# NOBELLƏR
## NEFT, MİLYONÇULAR VƏ QOÇULAR ŞƏHƏRİNDƏ

MÜSƏLLİM HƏSƏNOV

H63

Müsəllim Həsənov
Nobellər neft, milyonçular və qoçular şəhərində

Bakı, TEAS Press Nəşriyyat evi, 2018, 168 s.

ISBN 978 9952 313 74 1

Kitab TEAS Press Nəşriyyat evində çapa hazırlanmışdır.

www.teaspress.az
Bütün hüquqlar qorunur.

BAKU MEDIA CENTER

© Bakı Media Mərkəzi, 2018

Türkiyədə çap edilib.
Bilnet Matbaacılık ve Yayıncılık A.Ş.
Dudullu Organize Sanayi Bölgesi 1. Cadde No: 16
Ümraniye / İstanbul
Tel: 444 44 03 Faks: (216) 365 99 07
www.bilnet.net.tr

-22831-

# NOBELLƏR

## NEFT, MİLYONÇULAR VƏ QOÇULAR ŞƏHƏRİNDƏ

MÜSƏLLİM HƏSƏNOV

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

TEAS PRESS

# MÜNDƏRİCAT


*Ön söz əvəzi* ... 7

İsveç təbəəsinin neft axtarışı ... 9
Öz qaydaları olan şəhər haqda bir neçə söz ... 11
İltizam sistemi nədir? ... 13
Torpaq almaq istəyən… dirək basdırmalıdır ... 15
Torpaqdan pay olar… neft çıxarmaq üçün… ... 18
Vrangel də Bakıya tələsir – neft dalınca… ... 20
Gəmidən birbaşa hərraca: neft uğrunda sərt rəqabət ... 22
Bu bir təsadüf idi… ... 25
Nobelləri Rusiyaya hansı ruzigar gətirmişdi? ... 27
Amerika kerosini Rusiya bazarında ... 29
Qafqaza ikinci səfər ... 31
"Susuz və qeyri-məhsuldar" Nargin adasına maraq ... 34
Niyə məhz Nargin adası? ... 37
Robert Nobel Bakını tərk edir – qayıtmaq üçün… ... 39
Nargin sevdasının sonu ... 41
Lüdviq Nobel: "Bakıda böyük pullar var" ... 43
Neft kəmərini təkbaşına çəkmək arzusu ... 45
Lüdviq Nobel ikinci dəfə Bakıda ... 48
Şirkətin təsis edilməsi ... 51
Nobellər və gəmiçilik ... 53
Rudolf Dizelin müəmmalı ölümü və… ... 56
"Villa Petrolea" – "Neft bağı" ... 58
Alfred Nobelin ölümü və… problemlərin başlanğıcı ... 62
Alfred Nobel: "Məni diri-diri basdırmayın!" ... 65
Vəsiyyətnaməyə etirazlar və çətin barışıq ... 68
Nobel mükafatının neft ətri ... 70
Mükafat barədə əfsanələr və həqiqətlər ... 74
Emmanuil Nobel adına mükafat və təqaüdlər ... 77

Bakıda kiçik Nobel mükafatı: kimlərə verilsin? 80
Hacı Zeynalabdin Tağıyev və Nobellər: işgüzar əməkdaşlıq və... 83
...qarşıdurma. Tağıyev Nobellərə qarşı? 85
Konstantin Zubalovun neftinin qəpik-quruşa alınması barədə 87
Hacı Şıxəli Dadaşov Nobellərə... borc verir 89
Şəmsi Əsədullayevin "neft gölü" 91
Neft milyonçusu Mövsümovun faciəvi taleyi 94
Nobellər və Bakı qoçuları 95
Erməni-müsəlman qırğınlarının şahidi 98
Rusiyada çevriliş və Nobellərin qara günü 101
Bakı kommunasından "Sentrokaspi"yə... 104
Xəzər gəmiçiliyi general Denstervilin gözü ilə 106
Cümhuriyyət hökuməti Bakıya köçür və qayda yaradır... 108
Cümhuriyyət nazirlərinin neft sənayeçiləri ilə dialoqu 111
Topçubaşovun Nobel diplomatiyası 114
Əlimərdan bəyin Emmanuil Nobellə Paris görüşləri 116
İngilislər şəhəri tərk edir 119
Nobellər bolşeviklərlə gizli danışıq aparıbmı? 122
İsveç səfiri: "Dünən bolşeviklər Bakını tutdu" 123
Sovetlərin ikinci və qəti milliləşdirməsi 126
Rusiyadan kompensasiya almaq üçün sonuncu cəhd 129
Suraxanı, Atəşgah və... 2,6 milyon dollara satılan saat 131
Əbədi məşələ sitayiş qurtardı, neft zavodu tikilir 134
III Aleksandr Bakıda: təntənəli qarşılanma 136
İmperatorla üzbəüz: Emmanuil Nobel Rusiya vətəndaşı olur 138
Nobellər və ibadət evləri 141
Emmanuil Nobel Bibiheybət məscidində 144
Bakıda ilk dəfə... 146
Nobellərin zəlzələdən qorunmaq cəhdi 148
Nobellərin varisləri ulu babaları haqqında 151

*Son söz əvəzi* 153
*Biblioqrafiya* 157
*İndeks* 161

# ÖN SÖZ ƏVƏZİ

İndiyə qədər dünyanın hər yerində Nobel qardaşları haqda saysız-hesabsız esselər, məqalələr, kitablar yazılıb, filmlər çəkilib. Onların kəşfləri, ixtiraları, sahibkarlıq və çoxşaxəli sənayeçilik fəaliyyəti dəfələrlə elmi tədqiqata cəlb olunub.

Azərbaycanda da bu sahədə müəyyən işlər görülüb. Düzdür, sovet dövründə Nobellər də digər neft sənayeçiləri kimi Bakı neftini "sorub aparan" burjua nümayəndələri kimi qələmə verilib, "istismarçı kapitalist" adlandırılıblar. Amma dövlət müstəqilliyinin bərpasından sonra onların ölkəmizdəki fəaliyyətinə obyektiv qiymət vermək imkanı yaranıb, Azərbaycanda neft sənayesinin inkişafında Nobellərin xidmətləri araşdırılıb.

Bakı Media Mərkəzinin yeni layihələrindən olan Nobellər haqqında film də həmin mövzuya həsr olunub. Layihə ilə əlaqədar bu sətirlərin müəllifi uzun müddət Bakı, Moskva və Sankt-Peterburq arxivlərində araşdırmalar aparıb, o dövrün qəzetlərini vərəqləyib və Nobellərin Bakı həyatının heç də bütün cəhətlərinin geniş ictimaiyyətə doğru-dürüst çatdırılmadığına əmin olub.

Xüsusən də xaricdə nəşr edilən əksər kitablarda onların Bakıdakı fəaliyyəti, şəhər əhli ilə münasibətləri, yerli sahibkarlarla əlaqələri, neft biznesi ilə bağlı olan və olmayan sərgüzəştləri ya işıqlandırılmayıb, ya da neqativ planda təsvir edilib.

Ümumiyyətlə, Nobellər Bakıya necə gəlib çıxıb? Sadəcə, tüfəng qundağı üçün qoz ağacı almaq arzusu iləmi?

Niyə o vaxtlar Bakıya axışan yüzlərlə iş adamından yalnız bir neçəsi, o cümlədən Nobellər bu qədər şöhrət və... eyni zamanda böyük pullar qazana biliblər?

"Nobel qardaşları" şirkətinin loqotipi kimi niyə məhz Atəşgah seçilib?

Onları Azərbaycan milli burjuaziyasının nümayəndələri ilə: Hacı Zeynalabdin Tağıyevlə, Şəmsi Əsədullayevlə, Hacı Şıxəli Dadaşovla nə birləşdirib?

Bakı qoçularının Nobellərlə əlaqəsi olubmu?

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə Nobellər hansı cəbhədə dayanıb?

Əlimərdan bəy Topçubaşov Emmanuil Nobellə nələri müzakirə edib?

Bütün bunlar bu kitabda öz əksini tapan mövzuların yalnız kiçik bir hissəsini əhatə edir.

Biz Nobellərin Bakıdakı fəaliyyətinin nisbətən az öyrənilən tərəflərinə işıq salmaq istəyirik. Arxiv sənədləri, onların müasirlərinin xatirələri, nəhayət, o dövrün qəzet materialları əsasında...

Beləliklə, ilk dəfə Robert Nobel Bakıya gəlir...



# İSVEÇ TƏBƏƏSİNİN NEFT AXTARIŞI

Onu Peterburqdan Qafqaza Bakı neftinin ətri gətirməmişdi...

Adını bu vaxta qədər yalnız qəzet xəbərlərindən oxuduğu bu Şərq şəhərində o dövrün Avropasında populyar olan Zərdüştün adı ilə bağlı məbədin olmasından da xəbərsiz idi. Heç sonralar Atəşgahın onların yaradacağı şirkətin loqotipinə çevriləcəyini də o vaxt ağlına gətirə bilməzdi.

Ona görə də bu şəhərdə hər şey ona maraqlı gəlirdi. Az qala hər gün göylərə qalxan neft fontanı da, spesifik ətri olan mazut gölməçələri də, neft daşıyan at arabaları da...

Hətta ilk günlər neft quyularında baş verən və bir az təhlükəli görünən yanğınlar və fontanlar da artıq onu qorxutmurdu. Üz-gözü bu qədim Şərq şəhərində oda-alova da öyrəşmişdi. Özü əslən şimaldan olsa da...

Günün günorta çağı bir Bakı qoçusunun kimisə bir gülləyə yerə sərməsi ilk vaxtlar ona qeyri-adi təsir bağışlasa da, sonralar şəhərin bu "adəti"nə də alışacaqdı. Hətta bu zümrənin nümayəndəsi ilə alış-veriş etməkdən də çəkinməyəcəkdi...

Bütün bunlar barədə söhbət açılacaq. Amma hələlik şəhərə təzəcə qədəm qoyan bu əcnəbinin Bakı sərgüzəştlərindən danışırıq. Əsas istəyi neftli torpaq sahəsi almaq idi. Burada gözləmədiyin halda torpağın altından fontan vuran neft bir günün içində səni milyonçuya çevirə bilirsə, niyə torpaq almayasan? Artıq dörd-beş ay Bakıda olan bu əcnəbinin bu torpağa, bu torpağın yeraltı sərvətinin qüdrətinə şübhəsi qalmır. Di gəl arzusuna çata bilmir.

Neftli-neftsiz torpaq sahələrinin o dövrün Bakısında sağa-sola satıldığı bir vaxtda onun torpaq almaq istəyi niyə müşkülə çevrilir?

Səbəblər çoxdur. Bu barədə sonra söhbət açılacaq.

Ən maraqlısı odur ki, Bakıda torpaq sahəsi ala bilməyən bu əcnəbi ruhdan düşmür, əksinə, bir az da irəli gedir: Nargin adasını almaq arzusuna

düşür. Özü də təkcə arzulamaqla kifayətlənmir, Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə məktub da yazır:

> "...Mən Nargin adasını 24 ildən az olmayan müddətə icarəyə götürmək istəyirəm. Dövlət Əmlakı İdarəsinə bu barədə məlumat verməklə acizanə surətdə xahiş edirəm ki, həmin adanın mənə icarəyə verilməsi barədə sərəncam imzalayasınız. Heç nəyə yaramayan və dövlətə heç bir gəlir gətirməyən bu adaya görə icarə haqqı kimi ildə 50 rubl təklif edirəm".

1873-cü il dekabrın 21-də Nargin adasını 24 illiyə icarəyə götürmək xahişi ilə yazılan ərizənin sonunda imza belə idi:

> "Robert Nobel, İsveç təbəəsi..."

Bu, sonralar dünyaca məşhur olacaq Nobel qardaşlarının yaşca ən böyüyü, amma biznes sahəsində ən uğursuzu idi. Onun özündən kiçik qardaşlarının hərəsi dünyanın bir şəhərində artıq sərbəst biznes qurub pul qazanırdı, Robert isə hələ axtarışda idi. Əvvəlcə Finlandiyada iş qurmaq istəmişdi, alınmamışdı. Sonra gəmiçilik şirkəti yaratmağa cəhd göstərmiş, yenə də uğursuzluqla üzləşmişdi.

Sonralar məşhurlaşacaq bu familiya o vaxt Bakıda çox adi səslənirdi. Çünki onda bu qədim şəhərdə torpaq almaq, iş qurmaq istəyən əcnəbilərin sayı az deyildi. Robert də onlardan biri idi. Amma zaman göstərdi ki, Robert o vaxtlar Bakıya axışan adi iş adamlarından biri deyilmiş. O bu şəhərə böyük arzularla, böyük ideyalarla gəlibmiş. Sadəcə, bu arzuları reallaşdırmaq onun ilk vaxtlar düşündüyü qədər də sadə deyildi. Çünki Bakı Şərq şəhəri idi və Şərqin öz qaydaları var idi...



# ÖZ QAYDALARI OLAN ŞƏHƏR HAQDA BİR NEÇƏ SÖZ

Bakı rayonunda neftin olduğu barədə hələ lap qədim dövrlərdən müxtəlif yazılı mənbələrdə söhbət açılıb.

Abşeron yarımadasında 10-12 metr dərinlikdən ağ neftin çıxarıldığı barədə məlumata X əsr ərəb tarixçisi və səyyahı əl-Məsudinin əsərlərində rast gəlinir.

XIII əsrin sonlarında Abşerona gəlib çıxan italiyalı səyyah Marko Polo da bu ərazilərdə neftin olmasından danışıb. O vaxtlar Genuya və Venetsiya tacirlərini Xəzər dənizi vasitəsilə Abşerona neft qoxusu gətirib...

Xəzərin Bakı sahillərində neftin mövcudluğu sonrakı əsrlərdə də əcnəbi tacirləri zaman-zaman bu regiona cəlb edib.

Bəzi mənbələrdə XVII əsrin əvvəllərindən Bakı neftindən həm yanacaq, həm də pal-paltar üzərindəki ləkələri təmizləyən məhlul kimi istifadə edildiyi də xatırladılıb.

XVIII əsrin əvvəllərində isə Bakı regionu artıq neftdən də çox hərbi-strateji və ticarət platsdarmı kimi diqqəti cəlb etməyə başlayır və proseslər rus çarı I Pyotrun bura qoşun gətirməsi ilə nəticələnir. Ümumiyyətlə, həmin dövrdə Bakı əcnəbi dövlətlərin diqqətini, əsasən, Xəzərdəki münasib limanı ilə cəlb edir. Xəzərin hərbi-topoqrafik xəritələri də bu məqsədlə hazırlanır.

1828-ci ilin fevralında Rusiya-İran müharibələrinin yekun sənədi kimi imzalanan Türkmənçay sülh müqaviləsində Xəzər dənizinin adı doqquz dəfə çəkilsə də, "neft" sözü bircə dəfə də xatırladılmır. Müqavilədə əsas söhbət Xəzər dənizində ticarət gəmilərinin üzmə hüququndan gedir. Çünki o dövrdə neft dünya sənayesi və ticarəti üçün o qədər də ciddi əhəmiyyət daşımır, sonrakı illərdən fərqli olaraq, neftdən geniş istifadə edilmirdi.

Bununla belə, hətta o dövrdə də Xəzər regionunda ayrı-ayrı adamlar neft çıxarmağa cəhd göstərirdi. Təbii ki, primitiv üsullarla. XIX əsrin əvvəllərində Bakı sakini Qasım bəy Səlimxanov hətta dənizin dibindən neft çıxarmaq niyyətinə düşür: Bibiheybət sahillərindən təxminən 20 kilometr məsafədə iki taxta neft buruğu quraşdırır və bu quyulardan sutkada 3-4 vedrə neft çıxara bilir. Lakin 1825-ci ildə baş verən fırtına həmin buruqları yıxır, bununla da Xəzərdən neft çıxarmaq cəhdinə son qoyulur. Dəniz sahillərində qurudan neft çıxarılması da sonrakı illərlə müqayisədə böyük miqyas almır.

XIX əsrin 40-cı illərindən başlayaraq Bakıda neft hasilatı nisbətən artır. Həmin dövrdə artıq neft yanacaq və işıqlandırma vasitəsi kimi diqqəti cəlb edir. Sonrakı illərin hesablamalarına görə, 1843-cü ildə Bakı ətrafında "qara neft" hasilatı ildə 3,4 milyon kiloqrama çatır. "Ağ neft"in isə 14 milyon kiloqramdan çox çıxarıldığı iddia olunur. Ağlı-qaralı bütün bu neft məhsulları, təbii ki, xırda quyulardan, torpağın üst qatlarından bir növ nisbətən əziyyətsiz və az xərclə çıxarılırdı.

Bundan sonra 1846-cı ildə dünyada ilk dəfə Bibiheybətdə mexaniki üsulla neft quyusu qazılır. Belə neftçıxarma üsulu Amerikada hələ çox sonralar – 1859-cu ildə tətbiq olunacaqdı. Bu öz yerində. Bəs o vaxt torpaq sahələri elə başlı-başına buraxılmışdı ki, kim istəsə, quyu qazıb neft çıxarsın?

Bəli, əvvəllər tam yiyəsizlik hökm sürürdü. Amma XIX əsrin ortalarından çar Rusiyası Bakının neftli torpaq sahələrindən istifadədə qayda yaratmağa başlayır və iltizam sistemi tətbiq edir...



# İLTİZAM SİSTEMİ NƏDİR?

1850-ci illərdən başlayaraq Bakının neftli torpaq sahələri Rusiya hökuməti tərəfindən ayrı-ayrı iltizamçılara (rus dilində "otkupşik") icarəyə verilir. "Otkup" – Rusiyada dövlətə müəyyən miqdarda pul ödəmək müqabilində xüsusi şəxslərə verilən vergitoplama hüququ idi. Hələ XV əsrin sonları-XVI əsrin əvvəllərində dövlət xəzinəsini doldurmaq üçün şərab istehsalı, eləcə də duz çıxarılması sahəsində iltizam ("otkup") sistemi tətbiq olunmağa başlamışdı. Bakının neft sənayesində bu sistem 1850-ci illərdən tətbiq olunur. Neftli torpaq sahəsi hansısa imkanlı adama icarəyə verilir, o da həmin torpaq sahələrindən istifadə edənlərdən aldığı pulun cüzi bir hissəsini xəzinəyə ödəyir, qalan hissəsini isə mənimsəyirdi.

1872-ci ilin axırlarına qədər davam edən iltizam sistemi neft sənayesinin inkişafına mane olurdu. Yəni ayrı-ayrı konkret adamlar böyük gəlir götürür, dövlət xəzinəsinə isə cüzi vergi ödənilirdi. Nəticədə neft çıxarılması sahəsində, bütövlükdə neft sənayesində bir növ dövlət monopoliyası hökm sürür, bu da sözügedən sahənin inkişafına mane olurdu. Neftin, xüsusən kerosinin qiymətini də "otkupşiklər" müəyyən edirdi. Bütün bunlar isə neft hasilatı ilə məşğul olanlarda xüsusi bazarlar axtarmağa, bu sahədə texniki tərəqqinin tətbiqinə maraq yaratmırdı. Ona görə də hələ XIX əsrin 60-cı illərindən başlayaraq mütərəqqi baxışlı ayrı-ayrı adamlar neft sənayesində iltizam sisteminin ləğvinə çağırırdılar.

Müxtəlif mənbələrdəki məlumatlara görə, 1850-ci ildən 1863-cü ilə qədər Bakının neftli torpaqlarının iltizamçısı Ter-Qukasov, 1863-cü ildən iltizam sisteminin ləğvinə qədər isə Mirzoyev soyadlı şəxslər olub.

Hətta bu cür məhdudiyyətlərin olduğu dövrdə də Bakıda neft hasilatı və emalını səmərəli iş hesab edərək, ona pul xərcləyənlər tapılır. Neftdən

yanacaq məhsulları almaq üçün ilk addımlar atılır. 1858-ci ildə Suraxanıda ilk neftayırma zavodu inşa olunur.

1861-ci ildə Pirallahı adasında parafin zavodu, 1863-cü ildə Bakıda ağ neft zavodu tikilir.

Məhz bu dövrdə bir növ neftin perspektivləri aydın görünməyə başlayır. Amma o da aydın olur ki, neft sənayesinin inkişafı üçün iltizam sistemi ləğv olunmalıdır. 1863-cü ildə ilk dəfə Bakıya gələn və hələ onda kifayət qədər tanınmayan rus kimyaçısı Dmitri Mendeleyev də daxil olmaqla bir çox alimlər və tanınmış sənayeçilər bu ideyanı dəstəkləyirlər. Və Rusiya imperatoru 1872-ci ildə fərman imzalayır...



# TORPAQ ALMAQ İSTƏYƏN... DİRƏK BASDIRMALIDIR

1872-ci il fevralın 1-də Rusiya imperatoru "Neft mədənləri və fotogen istehsalından aksiz haqqında qaydalar"ı təsdiq edir. Həmin qaydalara görə, bütün imperiyada fəaliyyət göstərən şəxsi neft mədənlərinə ali nəzarət hüququ Maliyyə Nazirliyinin səlahiyyətinə aid edilir. Dərhal da qeyd olunur ki, Qafqaz və Zaqafqaziya diyarında bu nəzarət hüququ Qafqaz canişininə, canişinliyin Dağ İşləri İdarəsinə, yerlərdə isə yerli idarələrə və məsul şəxslərə verilir.

Bu qanunla həm Rusiya təbəələri, həm də əcnəbilər azad dövlət torpaqlarında neft axtarmaq və çıxarmaq hüququ qazanırlar.

Qaydalarda hətta bu və ya digər torpaq sahəsini almaq istəyənlərin onu necə fərqləndirməsi də göstərilirdi. Qaydaların 7-ci maddəsində deyilirdi:

> "Azad dövlət torpaqlarında neft axtarmaq və çıxarmaq məqsədilə torpaq almaq istəyən sənayeçi: a) həmin yerə öz adının və familiyasının baş hərfləri yazılmış dirəklər basdırmağa; b) dirək basdırandan sonra yeddi gün ərzində torpağın məxsus olduğu yerli idarəyə ərizə ilə müraciət etməyə borcludur".

Ərizədə torpağın sahəsi, həmin yerin adı, basdırılan dirəkdən orada məlum və məşhur olan məntəqəyə qədər olan məsafə və seçilmiş yerin digər fərqləndirici cəhətləri də qeyd edilməli idi.

Qaydaların 8-ci maddəsində isə deyilirdi ki, sənayeçi tərəfindən basdırılan dirəyin ətrafındakı 80 sajenlik[1] torpaq sahəsi tutulmuş sayılır və digər sənayeçilər bu əraziyə dirək basdıra bilməzlər.

[1] Köhnə rus uzunluq ölçüsü vahidi *(1 sajen = 1,8288 sm)*

1873-cü ilin mayında Qafqaz canişinliyindən Bakı qubernatoruna məlumat verilirdi ki, canişinliyin Dağ İşləri İdarəsinə bu il yanvarın 1-dən quberniyanın müxtəlif yerlərində neftli torpaq sahəsi almaq üçün 85-dən çox ərizə daxil olub.

Balaxanı kəndi ətrafında isə az qala hər yerə dirək basdırılır. Həmin dövrdə kəndlilərin pay torpaqlarının müəyyən edilməməsi səbəbindən hətta ayrı-ayrı adamlara məxsus bağ sahələrinə də dirəklər basdırılır. Vəziyyət o həddə çatır ki, 1873-cü ilin mayında məsələyə Qafqaz canişinliyi qarışmalı olur və Balaxanı ətrafında yerli kəndlilərə paylanmaq üçün nəzərdə tutulan 140 desyatin torpaq sahəsinin satışa çıxarılmadığı barədə xəbərdarlıq edilir. Kəndlilər üçün pay torpaqları müəyyən olunana qədər...

Hətta həmin əraziyə dirək basdırılması da qadağan olunur. Bununla belə, torpaq almaq üçün ərizə ilə müraciət edənlərin sayı durmadan artır. Çünki Balaxanıda torpaq neft, neft isə var-dövlət demək idi.

Rusiya imperatorunun fərmanına əsasən, Qafqazda belə torpaqların maksimum 24 illiyə icarəyə verilməsi və hər desyatinə[1] görə azı 10 rubl haqq ödənilməsi nəzərdə tutulurdu. Sənayeçilər icarə haqqını ildə iki dəfə olmaqla yarım il əvvəldən – hər il yanvarın 2-nə və iyulun 1-nə qədər ödəməli idi.

Qaydalarda "fotogen"in nə olduğu da izah edilirdi:

> "Fotogen dedikdə, ümumiyyətlə, neftdən alınan və "fotogen, kerosin, petrolium, qazolin və s." adlar altında məlum olan işıqlandırma məqsədli buxarlanan yağlar başa düşülməlidir".

Bu sənəddən də göründüyü kimi, o vaxt neft və neft məhsulları hələ işıqlandırma vasitəsi hesab olunurdu. Neftin sənayenin, nəqliyyatın və bütövlükdə iqtisadiyyatın əsas atributuna çevrilməsinə hələ bir neçə il qalırdı.

Bu qaydaların təsdiqindən təxminən iki həftə sonra – 1872-ci il fevralın 17-də Rusiya imperatoru "Qafqazda və Qafqaz arxasında dövlət neft mənbələrinin iltizam əsasında saxlanması qaydasının ləğv edilməsi və

[1] Köhnə rus sahə ölçüsü vahidi *(1 desyatin = 1,09 ha)*





bu mənbələrin fərdi şəxslərə verilməsi haqqında" fərman imzalayır. Bu fərman və onunla təsdiq edilən qaydalar 1873-cü ildə Peterburqda nəşr edilmiş "Rusiya imperiyasının qanunlar külliyyatı"nın 47-ci cildində çap olunur. Və orada qeyd edilir ki, əlahəzrət imperator bu qaydaların üstündə öz əli ilə yazmışdır: "İcra edilsin".

Bundan sonra iltizamda olan neft mənbələri neft çıxarılması üçün hərrac vasitəsilə fərdi şəxslərə satılır. Necə deyərlər, kim çox pul verirsə, neftli torpaq sahəsi onun olur!

Amma bir istisna ilə. Həmin dövrdə Balaxanı torpaqlarının bir hissəsi satışa çıxarılmır, "yasaqlıq", "toxunulmaz" torpaqlar elan edilir. Ayrı-ayrı adamlara hədiyyə olunmaq üçün... Kim idi bu adamlar?

-22831-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# TORPAQDAN PAY OLAR... NEFT ÇIXARMAQ ÜÇÜN...

Sən demə, Bakının o dövrdə satışa çıxarılmaqla böyük ajiotaja səbəb olan neftli torpaq sahələrinin bir hissəsi də "hərracdankənar" paylanıb. Daha doğrusu, Rusiya dövlətinin qarşısında xüsusi xidmətləri olan adamlara hədiyyə edilib. Özü də imperatorun şəxsi göstərişi ilə... Həm də bu barədə danışmaq, yazmaq xüsusi göstərişlə qadağan olunub. Həmin qadağaların izi Rusiya arxivlərindədir...

1872-ci ildə keçirilən hərraclardan sonra Balaxanıda 142 desyatin neftli torpaq sahəsi qalır və "yasaqlıq", "toxunulmaz" sahələr elan edilir. Xüsusi sərəncam olana qədər...

1878-1881-ci illərdə bu torpaqların bir hissəsi "əlahəzrət imperatorun bəxşişi" kimi ayrı-ayrı adamlara həmişəlik və irsi olaraq verilir. Çardan torpaq hədiyyəsi alanlar əsasən Qafqaz hərbi və mülki administrasiyasının yüksək çinli məmurları olub.

Məsələn, Qafqaz ordusu komandanının köməkçiləri – general-leytenant P.S.Lazarev və knyaz L.İ.Melikovun hərəsinə 10 desyatin torpaq sahəsi bağışlanıb.

Qafqaz canişininin baş idarəsinin rəisi, sonralar Bakının general-qubernatoru olmuş general-leytenant D.S.Staroselski də Balaxanıda 10 desyatin torpağın sahibi olub.

Ter kazak briqadasının Ferdinand Zeyn-Bitgenşteyn-Berleburq familiyalı komandiri olan general-mayor rütbəli dövlət məmuruna da Balaxanı torpaqlarından 10 desyatin pay verilib.

Siyahı bununla bitmir.

Balaxanı torpaqlarından pay hədiyyə alan hərbçilər arasında general, knyaz İ.Amilaxvari, Tiflisin komendantı, general Opoçinin, general-leytenant, knyaz S.N.Trubetskoy, Bakının qubernatoru, general-leytenant V.M.Pozen, general, knyaz D.Çavçavadze də var. Onların hər birinə 5 desyatin torpaq sahəsi hədiyyə edilib.





Aradan illər keçsə də, Rusiya imperatoru Qafqaz müharibələri dövrünün ayrı-ayrı hərbi xadimlərini, gürcü çarlarının varislərini və başqalarını da unutmayıb. Belə ailələrin hər birinə 2-3, bəzi hallarda 5 desyatin neftli torpaq sahəsi hədiyyə olunub.

Maraqlıdır ki, Balaxanı torpaqlarından hədiyyə verilməsi gizli saxlanılıb. Hətta mətbuatda bu barədə məlumatların açıqlanmasına da xüsusi göstərişlə qadağa qoyulub.

Həmin illərdə Balaxanıda cəmi 95 desyatin torpaq sahəsi hədiyyə edilib. Bu torpaqların əksər hissəsi sonralar neft sənayeçilərinə və səhmdar cəmiyyətlərə böyük pullara satılıb.

Məsələn, Kutaisinin general-qubernatorunun dul qalmış arvadı knyaginya A.Qaqarinaya hədiyyə edilən torpaq sahəsi uzun illər ayrı-ayrı neft sənayesi cəmiyyətlərinə icarəyə verilib. 1898-ci ildə isə həmin torpaq sahəsi 2,2 milyon rubla Peterburq Kommersiya Bankına satılıb.

Bakının general-qubernatoru olmuş D.S.Staroselskiyə məxsus torpağın 6 desyatini uzun müddətə "Nobel qardaşları" şirkətinə, qalan 4 desyatini isə "Xəzər yoldaşlığı" cəmiyyətinə icarəyə verilib.

1884-cü ildə Abşeron yarımadasında torpaqların fərdi adamlara təmənnasız verilməsi xüsusi qaydalar işlənənə qədər dayandırılıb.

1892-ci ildə qəbul edilmiş yeni qaydalar əsasında Balaxanı "yasaqlığı"ndan torpaq sahəsi hədiyyə alan sonuncu şəxs Qafqazın gələcək canişini İ.İ.Vorontsov-Daşkov olub. 1901-ci ildə Rusiya imperatoru ona 10 desyatin Balaxanı torpağı hədiyyə edib. Və general məhz "Nobel qardaşları" şirkətinin köməyi ilə 1903-cü ildə burada öz mədənini işə sala bilib...

Azərbaycan torpaqlarında, o cümlədən Bakıda müstəmləkəçilik siyasəti aparan çar Rusiyasının özünü bu yerlərin mütləq sahibi kimi hiss etməsi, kimə haradan və nə qədər istəsə pay verməsi qeyri-adi hadisə deyildi. Lakin əlahəzrət imperatorun hədiyyəsinə layiq görülənlər arasında Qafqazın müxtəlif xalqlarının nümayəndələri, o cümlədən gürcü çarlarının varisləri olduğu halda, bir nəfər belə azərbaycanlının, hətta imperiyaya canı-dildən xidmət göstərmiş xanların, bəylərin özlərinin və ya övladlarının adına rast gəlmək mümkün deyil. Bu da o dövrün daha bir ayrı-seçkiliyi...

Ancaq tarixin o dönəminə qayıdıb rəsmi arxiv sənədi əsasında qeyd edək ki, 1872-ci ildə Bakının neftli torpaq sahələrinin satışına başlananda dövlətin ixtiyarında 322 desyatin ərazi olub. Onun 142 desyatini dövlət qarşısında xüsusi xidmətləri olan adamlara verilib, 180 desyatini isə hərracda 3 milyon rubla satılıb. Və bu alqı-satqının sorağı bütün Rusiyaya yayılıb. Neftin mahiyyətindən az-çox xəbəri olan iş adamları Bakıya tələsiblər. Hətta Vrangel də...

# VRANGEL DƏ BAKIYA TƏLƏSİR – NEFT DALINCA...

Təbii ki, burada söhbət bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Rusiyanın cənubunda çar qoşunlarının tör-töküntüsündən yaradılmış, ağqvardiyaçı adlandırılan hərbi dəstələrin komandanı, general Pyotr Vrangeldən getmir. Bakıda neft həyəcanı yaşananda onun hələ izi-tozu da yox idi. Amma burada hasil olunan neftin sorağı onun atası, baron Nikolay Vrangelə gedib çatmışdı...

Gəncliyində hərbi məktəbdə təhsil alan Nikolay bu sahədə karyera qura bilməyərək, biznesə girişmiş, əvvəlcə gəmiçiliklə məşğul olmuş, sonra neft sənayesində bəxtini sınamışdı. Bakıda neft həyəcanının yaşandığından xəbər tutanda isə bu şəhərə tələsmişdi...

N.Vrangelin Bakının neft ehtiyatları barədəki qeydlərinə onun vəfatından sonra nəşr edilən xatirələrində rast gəlirik. O yazır:

> "Bakı rayonunda zəngin neft ehtiyatlarının olması qədim zamanlardan məlum idi. Hətta 1860-cı illərdə bu rayonda neft çox az çıxarılırdı. Amma tezliklə... burada torpağın qiyməti ağlagəlməz səviyyəyə qalxdı. Neftli torpaq sahəsi almaq praktiki olaraq qeyri-mümkün oldu, icarə haqqı günbəgün yox, saatbasaat qalxırdı. Hətta düşünmək olardı ki, qiymətlər tezliklə elə bir səviyyəyə çata bilər ki, icarəyə torpaq götürənlər üçün neft istehsalı səmərəsiz işə çevrilər".

Neft sənayesi sahəsində müəyyən uğurlar qazanmış N.Vrangel belə düşünürdü. Onun belə düşünməyə əsası da vardı. Neftli torpaq sahəsi almaq istəyənlərin axınında o da nə vaxtsa Bakıya gəlmişdi. Və hesab edirdi ki,





Bakının bütün neft maqnatları: Tağıyev, Zubalov, Mantaşov və başqaları, demək olar, heç nədən başlamışdılar və qazandıqları milyonlara görə xoşbəxt təsadüfə borclu idilər.

Bütün bunlar öz yerində. N.Vrangel Bakıda neftli torpaq sahələrinin hərraca çıxarılması barədə xəbəri Moskvada eşidir və mühəndis dostu A.M.Konşinlə birlikdə bu şəhərə tələsir.

N.Vrangelin Qafqaza gəlmək üçün Moskvada mindiyi qatar tanış neft sənayeçiləri ilə dolu olur. Onların hamısı Bakı hərracında iştirak etmək istəyənlər idi. Ona görə də elə yoldaca qızğın müzakirə başlayır: Petrovska (indiki Mahaçqala) qədər qatarla, bəs sonra necə getməli? Dənizlə, yoxsa Vladiqafqaz aşırımı vasitəsilə atlarla? Onda Petrovsk-Bakı dəmir yolu hələ tikilirdi.

Əksəriyyət dəniz yoluna üstünlük verir. Amma onu da anlayırlar ki, qatar Petrovska çatanda tərpənən gəmiyə bilet almaq mümkün olmayacaq. Növbəti gəmi ilə getmək isə hərraca çatmamaq deməkdir.

Bakıya tələsənlər bir məqamı da nəzərdən qaçırmırdılar. Vladiqafqaz aşırımında Bakıya gedən bu qədər adama at çatacaqmı? Ona görə də hamı rəqiblərin sayının azalmasını istəyirdi.

N.Vrangel də quru yolla getmək variantının tərəfdarı idi, hətta teleqram vuraraq at da sifariş vermişdi.

Vladiqafqazda neft sənayeçilərinin hərəsi bir tərəfə dağılır – kimisi gəmiyə tələsir, kimisi icarəyə at götürməyə. Hətta gəmi ilə daha tez çata biləcəyinə ümid edən dostlarından biri zarafatla Nikolay Vrangeldən Bakıya sözünün-tapşırığının olub-olmadığını soruşur.

Bir sözlə, hamı Bakıya tələsir, həm də hamı bir-birinə potensial rəqib kimi baxdığından bir-birinin hərraca gecikməsini arzulayır. Biznes biznesdir, hərə yağlı tikəni öz qabağına çəkmək istəyir, dost-tanış olsalar belə...

N.Vrangellə onun dostu və ortağı Konşinin səfəri isə daha maraqlı və macəralı olur.

# GƏMİDƏN BİRBAŞA HƏRRACA: NEFT UĞRUNDA SƏRT RƏQABƏT

Onlar sifariş etdikləri atları götürüb hərbi Gürcüstan yoluna çıxırlar. Bu yol N.Vrangelə yaxşı tanış idi. Əvvəllər də Bakıya bu yolla çox getmişdi.

Axşama yaxın onlar stansiyaların birində gözləmədikləri mənzərə ilə rastlaşırlar: Bakıya can atan neft sənayeçilərinin hamısını burada görürlər. Yolda qar uçqunu gözlənildiyindən heç kim buraxılmır. Və yolun nə vaxt açılacağını heç kim bilmir. N.Vrangel özü qar uçqununa görə bir dəfə 30 gün burada gözləməli olmuşdu. İndi isə gözləməyə vaxt yoxdur. İki gün sonra Bakıda torpaq hərracı başlayır...

Tələssələr də, bütün "neftçilər" gecəni bu stansiyada qalmalı olurlar. Əgər sabah bu stansiyadan çıxa bilməsəydilər, Bakı hərracına çatmayacaqdılar.

> "Biz Konşinlə həyətə çıxdıq. Göyün üzü tutqun idi, qar yağırdı. Bir neçə addımdan o yana heç yer görünmürdü. Əgər sabah bu stansiyadan çıxa bilməsəydik, hərraca çata bilməyəcəkdik. Hansı yolla olursa olsun, buradan çıxmaq lazım idi".

Hansı yolla?

Sual maraqlı idi.

Qərara alırlar ki, aşırımı piyada keçsinlər.

Stansiya rəisi icazə vermir. Qafqazın baş komandanının əmri belədir.

Vladiqafqaza qayıdıb oradan Petrovska getmək istəyi də mənasızdır, gəmiyə bilet almaq qeyri-mümkündür...

N.Vrangelin ağlına yeni ideya gəlir: Petrovsk-Bakı dəmir yolunu tikən rəisi tanıdığı üçün ona teleqram vurur ki, onları yolun hazır hissəsinin son dayanacağına qədər aparmaq üçün parovoz göndərsin, oradan Petrovska qədər isə atla getsinlər.





> "Əgər səhərə qədər Vladiqafqaza gedib qatara minə bilsək, Bakıya çatmaq olar. Stansiya rəisinin yanına xahişə getdik ki, bizə geri qayıtmağa icazə versin".

Çox xahiş-minnətdən sonra rəis icazə verir, amma xahiş edir ki, onların qayıtdığını heç kim bilməsin...

Sifariş etdikləri faytonçu Kazbekə qədər üç saatlıq yol olduğunu deyir.

– Bir saata bizi çatdırsan, əlavə bir qızıl onluq alacaqsan...

Faytonçu onları bir saatdan da tez çatdırır.

Onlar səhər tezdən Petrovska çatırlar.

Məlum olur ki, hazır dəmir yolunun bir hissəsini sel aparıb deyə parovoz vermək qeyri-mümkündür. Daha Bakıya getməyin mənası qalmır...

Və onlar görürlər ki, Petrovsk limanında balaca gəmiyə yük vurulur. Gəminin kapitanı Vrangelin köhnə tanışı çıxır. Gəmi Bakıya çıxmalıdır. Amma tam yüklənəndən sonra. Vrangel ondan xahiş edir:

– Sərnişin kimi bizi də götür və çıxaq gedək. Əskik yükünə görə də pul ödəyərik.

– Axı mənim sərnişin götürməyə ixtiyarım yoxdur, – kapitan deyir.

– Məni gəminin aşpazı, dostumu matros yaz, – Vrangel cavab verir.

Kapitan fikrə gedir...

Vrangel deyir:

– Bilirsən, biz çatışmayan yükə görə sənə iki min yox, üç min veririk. Tərpənək...

Xəsisliyin yeri yox idi. Bakı hərracına çatmaq lazım idi.

Kapitan:

– Əgər sözünüz ciddidirsə, tərpənək...

Və tərpənirlər.

Onlar Bakıya hərrac başlayanda çatırlar. Gəmidən birbaşa hərraca...

Artıq hərracı təşkil edənlərə teleqram çatır ki, Moskva və Peterburqdan gələnlər hava şəraiti ilə əlaqədar Bakıya çata bilmir. Hərracı təxirə salmaq istəyirlər. Lakin daha iki alıcının gəlməsi ilə fikirlərini dəyişirlər.

Teleqramda gələ bilməyənlər arasında N.Vrangellə A.Konşinin də adı var idi. Amma onlar artıq zalda idilər və hərrac başlamışdı...

N.Vrangel 1900-cü ilin əvvəllərində mühəndis Bratke ilə birlikdə Bibiheybət Neft Cəmiyyətini təsis edir.

Həmin qarlı qış günlərində Bakı hərracından geri qayıdanda isə maraqlı mənzərənin şahidi olur:

> "Biz geri qayıdanda hərraca tələsən yol yoldaşlarımızın hələ də hərbi Gürcüstan yolunda qaldıqlarını gördük. Onlar on üç gün idi ki, yolun açılmasını gözləyirdilər..."

N.Vrangelin müşahidəsidir.

Bakının neft həyəcanı adamları beləcə çöllərə salmışdı...

Robert Nobelin Bakıya gəlişi isə...



# BU BİR TƏSADÜF İDİ...

Robert Nobel adlı adi bir İsveç təbəəsi də Bakıya məhz belə bir vaxtda – 1873-cü ilin yayında gəlmişdi. Və o, neft hasilatı ilə məşğul olmağın sərfəli olduğuna inandığı üçün Bakıda qalmağa üstünlük vermişdi.

Robert Nobel neft sənayesi sahəsində iş qurmaq üçün dəqiq məkan və düzgün zaman seçmişdi...

Əslində, Robert Nobelin Bakıya məhz iltizam sisteminin ləğvi ərəfəsində gəlməsi bir təsadüf idi. Onu Rusiya imperiyasının cənubuna qardaşı göndərmişdi. O qardaş ki, artıq Peterburqda tanınmış iş adamı olmuş, Rusiyanın İjevsk şəhərində silah istehsalı zavodu qurmuşdu. Zavodda ABŞ-da vətəndaş müharibəsinin qəhrəmanı olan Hayrem Berdanın ixtira etdiyi sistem üzrə tüfəng istehsalına başlanılmışdı. Rusiyada, sadəcə, "berdanka" adlanan bu tüfəngin qundağı qoz ağacından hazırlanırdı. Və günlərin birində zavod sahibi olan qardaş – Lüdviq "berdanka" üçün qoz ağacının Qafqaz meşələrindən gətirilməsinin daha ucuz başa gələcəyini düşünür və Roberti bu işə cəlb etmək qərarına gəlir.

Onda özünün şəxsi işi – biznesi olmayan Robert Qafqaza getməyə tərəddüdlə razılıq verir. Çünki onun qarşısına qoyulan vəzifə sadə deyildi – ildə 500 min tüfəng qundağı üçün qoz ağacı tədarük etmək lazım idi.

Amma Robert də bilmədiyi işin dalınca kor-koranə getsəydi... yəqin ki, Nobel soyadını daşımazdı. Ona görə əvvəlcə Mərkəzi Avropada olan bir neçə silah zavodunu gəzir, yolüstü Parisdə olan kiçik qardaşı Alfredlə görüşür. Gələcək işi ilə, ümumiyyətlə, silah istehsalı ilə bağlı qardaşı ilə fikir mübadiləsi aparır və qoz ağacı tədarükü üçün Qafqaza yola düşür.

Lənkəran meşələrini gəzib real vəziyyətlə tanış olandan sonra 1873-cü ilin sentyabrında onu bu niyyətlə Qafqaza göndərən qardaşına uzun-uzadı məktub yazmalı olur.

O dövrdə məktub yazmaq bir dəb idi. Qardaşlar da dövrün bu dəbinə səliqə ilə əməl edir, bir-birinə müxtəlif şəhərlərdən məktublar yazırdılar.

Robert Lüdviqə yazır ki, Qafqaz meşələrindəki qoz ağacları tüfəng qundağına yaramayacaq dərəcədə qocadır, cavan ağaclar isə hələ yetkin olmadığı üçün gərəksizdir. Ona görə də buradan tüfəng qundağı üçün qoz ağacı daşımaq ideyası ilə vidalaşmaq vaxtıdır.

Qoz ağacı "sevdası" ilə Bakını da görməyə imkan tapan Robert bu şəhərdəki neft əhvali-ruhiyyəsini dərhal hiss edir. Və Peterburqa yeni ideyalarla qayıdır...



# NOBELLƏRİ RUSİYAYA HANSI RUZİGAR GƏTİRMİŞDİ?

Nobellər ailəsinin başçısı Emmanuil Stokholmda qurduğu iş uğursuzluğa düçar olandan sonra – 1837-ci ildə Sankt-Peterburq şəhərinə köçmüşdü. İşgüzarlığı və ixtiraçılıq qabiliyyəti sayəsində cəmi dörd il sonra bu şəhərdə işə saldığı sualtı minalar hazırlayan zavod təxminən 10 il uğurla fəaliyyət göstərmişdi. Lakin Krım müharibəsinin başa çatması ilə dövlət sifarişləri dayandığından Emmanuil müflis olaraq yenidən Stokholma qayıtmışdı.

Yeni ixtiralara meyilli olan Emmanuil Nobel daim axtarışda idi, hətta bu yolda qurbanlar da verməli olmuşdu. Belə ki, 1863-cü ildə övladları ilə birlikdə nitroqliserin və barıt qarışıqları üzərində apardığı təcrübə zamanı baş verən partlayışda o, 20 yaşlı kiçik oğlu Emili itirmiş, az sonra isə özünü iflic vurmuşdu...

Atalarının bu və digər uğursuzluqları, hətta gənc qardaşlarının faciəli ölümü belə Emmanuilin digər üç oğlunu ruhdan salmır, əksinə, onlara həyat dərsi verir. Ayrılıqda öz işlərini qurmaq üçün qardaşların hərəsi dünyanın bir şəhərinə yola düşür...

Hələ ailə Peterburqda yaşayanda Alfred kimya sahəsində təhsil almaq üçün Avropanın bir neçə ölkəsində olur. Parisdə nitroqliserinin kəşfindən xəbər tutur. Bundan sonra bir il də Amerikada yaşayır, kimya sahəsində daha yüksək səviyyədə təhsil alır və böyük təcrübə qazanır. Ailə faciəsi ilə yekunlaşan acı təcrübədən sonra da nitroqliserin üzərində tədqiqatlarını uğurla davam etdirir və İsveçdə "Alfred Nobel" şirkətinin əsasını qoyur.

Qardaşların ən böyüyü olan Robert isə nitroqliserin istehsalını Finlandiyada təşkil etmək istəyir, lakin problemlərlə üzləşir. Sonra Stokholma qayıdır, daha sonra Peterburqa gələrək 1857-ci ilin aprelində vitse-admiral Fon Moller, istefada olan 1-ci dərəcəli kapitan Qlazenapla birlikdə Oneqa və Ladoqa göllərində sərnişin və yük daşımaları təşkil etmək üçün "Şimal

gəmiçiliyi" cəmiyyəti təsis etmək üçün ərizə verir. Hansısa səbəblər üzündən bu iş də baş tutmur.

1860-cı illərin əvvəllərində Robert işıqlandırıcı yağlar mağazası açır, lakin bu işdə də uğur qazana bilmir.

Emmanuilin Peterburqda qalıb atasının mexaniki emalatxanalarına rəhbərlik edən ortancıl oğlu Lüdviq isə az sonra bu şəhərdə "Lüdviq Nobel" mexaniki zavodunu təsis edir. 1872-ci ildə Rusiya hökumətinin köməyi ilə İjevsk şəhərində tüfəng istehsal edən zavod qurur.

Dinamit istehsalı sahəsində kifayət qədər uğur qazanan Alfred isə Parisə köçür və tezliklə bu şəhərdə 15 zavodun sahibinə çevrilir...

Bütün bunlara baxmayaraq, Lüdviq Bakıdan yeni ideyalarla qayıdan qardaşının neftə marağını təbii qarşılayır. Çünki o, Amerikada neftdən gələn gəlirlər barədə mətbuatda yazılanları diqqətlə izləyirdi.



# AMERİKA KEROSİNİ RUSİYA BAZARINDA

Amerikada neft ilk dəfə 1859-cu ildə Pensilvaniyada tapılmışdı. Daha bir neçə il də keçmiş, yeni ehtiyatlar kəşf olunmuş, burada istehsal edilən kerosin dünya bazarına çıxarılmışdı. 1860-cı illərdən isə hətta Rusiyada da bu kerosindən istifadə olunurdu.

Onda Nobellər Amerika kerosini ilə işıqlandırılan lampalardan istifadə etsələr də, neftdən və neft sənayesindən çox uzaq idilər.

Robertin Bakıda neft istehsalına maraq göstərməsindən sonra Lüdviqin ilk işi Parisdə olan qardaşla – Alfredlə məsləhətləşmək olur. Ona uzun-uzadı bir məktub yazaraq, nəhayət, Robertin özünə gəlirli iş sahəsi tapdığı barədə məlumat verir. Bu işdə onun da məsləhətlərinə ehtiyac olduğunu bildirir.

O, Alfreddən Amerikadakı tanışları vasitəsilə Pensilvaniyadakı istehsal prosesləri barədə məlumat toplamağı xahiş edir. Hətta müəyyən pul ödənişi müqabilində neftlə bağlı informasiya toplanması zərurətini yada salır.

Təkcə bu faktın özü Nobellərin başladıqları işə nə qədər məsuliyyətlə yanaşdıqlarından xəbər verir. Bu işdə hətta informasiyanı belə pulla almağa xəsislik etmirlər. Təbii ki, daha böyük qazanc əldə etmək naminə...

Böyük pullardan söz düşmüşkən, sonralar məşhur iş adamına çevriləcək Con Rokfeller hələ 1870-ci ildə "Standard Oil" şirkətini yaradacaq, daha bir neçə il sonra Amerikanın neft kralına çevriləcəkdi. Bundan sonra dünya neft bazarına ağalıq etmək istəyəcək, hətta müəyyən vaxtdan sonra Nobellərlə rəqabətə girəcək, onları iflasa uğratmaq üçün bütün vasitələrə əl atacaqdı. Çünki Rokfeller öz rəqiblərini sıradan çıxarmaq üçün mümkün və mümkün olmayan bütün vasitələrdən istifadə edirdi...

Artıq 1870-ci illərin əvvəllərindən Lüdviq Peterburq qəzetləri vasitəsilə nəinki Amerika, həm də Bakı neft mədənləri barədə xəbərlər alırdı.

Günlərlə davam edən neft fontanları haqqında, mədənlərdə baş verən yanğınlar barədə məlumatları xüsusi maraqla izləyirdi.

Ona görə də Robertin Bakı haqqında danışdıqlarının çoxu onun üçün təzə deyildi. Lüdviqin neftin nə demək olduğu barədə qiyabi də olsa, təsəvvürü var idi və bu işin parlaq gələcəyinə inanırdı.

Tezliklə geriyə – Qafqaza dönmək fikrində olan Roberti yolundan saxlamaq onsuz da mümkün deyildi. Bunu yaxşı başa düşən Lüdviq qardaşına bir qədər maliyyə yardımı və müəyyən texniki məsləhətlər verməklə onu Bakıya yola salır...



# QAFQAZA İKİNCİ SƏFƏR

Robertin Həştərxandan Bakıya gəldiyi gəmidə birinci dərəcəli şturman Lev De Burla tanışlığı onun gələcək planlarını bir az da konkretləşdirir.

Bakıya ilk dəfə XIX əsrin 60-cı illərində gələn holland əsilli Lev Martınoviç De Bur əvvəlcə "Kavkaz i Merkuri" şirkətinin gəmisində kapitan köməkçisi olmuşdu. Əvvəllər daha çox müstəqil şturman kimi tanınırdı.

Sonralar "Kaspiyskoe tovarişestvo" – "Xəzər" şirkətində çalışmış, bir müddət bu firmaya rəhbərlik etmişdi.

Sabunçuda neftli torpaq sahələri almış, neft istehsalı ilə məşğul olmuş və Bakının tanınmış neft sənayeçilərindən birinə çevrilmişdi.

Hazırda Bakıda fəaliyyət göstərən Milli İncəsənət Muzeyinin binası uzun illər "De Burun sarayı" kimi tanınıb. Çünki binanı Lev Martınoviç inşa etdirib, lakin tikinti başa çatandan sonra – 1889-cu ilin avqustunda qəflətən vəfat edib. O, Bakıda Robert Nobelin ilk məsləhətçilərindən biri olub.

Robert Bakıda onun yardımı ilə neft mədənləri ilə daha yaxından tanış olur, primitiv üsullarla neftçıxarma proseslərini müşahidə edir. Müxtəlif hesablamalar aparmaqla bu sahənin böyük perspektivlərinə əmin olur. Və hər şeydən əvvəl, neftli torpaq sahəsi almaq barədə düşünür. Lakin bu cəhdi nəticəsiz qalır...

Neftçıxarmada iltizam sistemi ləğv edilsə də, boş torpaq sahələrinin icarəyə götürülməsi ilə əlaqədar bəzi bürokratik qaydalar hələ qaldığından Robertin torpaq almaq arzusu reallaşmır. Amma əcnəbi iş adamı bu yad şəhərdə ruhdan düşmür. O, neft biznesindəki boşluqları və çatışmazlıqları araşdırır, yeni ideyalar üzərində düşünür, Amerika təcrübəsini öyrənir. Apardığı hesablamalar nəticəsində mədənlərdən neftin arabalarla daşınmasının baha başa gəldiyini müəyyənləşdirir. Amerikada bu məqsədlə boru kəmərlərindən istifadə olunmasını əsas götürərək, Bakıda da bu təcrübənin tətbiqinin mümkünlüyünü düşünür. Lev De

Burla birlikdə Balaxanı mədənlərindən Qara şəhərə neft kəməri çəkmək planı hazırlayır.

Hökumətə bu barədə müraciət etmək imkanı olmadığından saray müşaviri, knyaz Bebutovla işbirliyi qurmalı olur. Əsl soyadı Bebutaşvili olan Abessalom Petroviç Tiflis knyazlarından idi, dövlət idarələrində güclü əlaqələri var idi. Buna görə də Robert neft kəməri çəkilməsi işində onun köməyindən yararlanmaq qərarına gəlir.

1873-cü il dekabrın 7-də Bebutova verdiyi etibarnamədə açıqca yazır:

> "Neft mədənlərindən Bakıya neft kəməri çəkilməsi üçün hökumətə birbaşa müraciət edə bilmədiyimizə görə xahiş edirik ki, bu məsələni hökumət qarşısında qaldırasınız".

Mühəndis Bebutov bu etibarnamə ilə Bakı qubernatoru D.Staroselskiyə müraciət edir. Qubernator üç nəfər Bakı sakininin şəxsi hesaba Balaxanıdan neft kəməri çəkmək barədə xahişini 1874-cü ilin yayında Tiflisdə olarkən Qafqaz canişininə çatdırır. Lakin canişin müraciətdəki bir şərtlə razılaşmır. Belə ki, müraciətdə kəmərin çəkilişinə müsbət cavab veriləcəyi təqdirdə 12 il müddətində başqa adamların bu işlə məşğul olması qadağan edilməli idi. Əslində, bu şərtlə onlar özlərinə, indiki terminlə desək, inhisarçılıq hüququ istəyirdilər. Qafqaz canişini bu şərtə qəti etiraz edir...

Qubernator Qafqaz canişininin iradını müraciət sahiblərinə çatdırır. Onlar bir neçə gün fikirləşdikdən sonra kəmər məsələsində inhisarçılıq hüququnun 12 ildən 6 ilə endiriləcəyini, neftin pudunun isə əvvəlki kimi 3 qəpiyə yox, 2 qəpiyə daşınacağını bildirirlər.

Qubernator bu dəfə Qafqaz canişinindən həmin şərtlər daxilində kəmər çəkilməsinə icazə verilməsini xahiş edir. Üstəlik bu işin təşkilinin Bakıda neft istehsalına böyük fayda verəcəyini də xatırladır.

Onda Balaxanı mədənlərindən çıxan xam neft şəhərdəki zavodlara arabalarla daşınırdı.

Buna görə də xam neftin zavodlara daşınması ilə bağlı yeni ideya dərhal mübahisələrə səbəb olur: hər şeydən əvvəl, arabaçılar işsiz qala bilərdilər.

Digər tərəfdən, elə bu ərəfədə Balaxanı meydanından şəhərə neft kəməri çəkmək ideyasından xəbər tutan Bakı Neft Cəmiyyəti də qubernatorun ünvanına bir müraciət göndərir. Müraciətdə bildirilir ki, Bakı Neft Cəmiyyəti Balaxanıdan Bakıya, oradan isə Suraxanı vasitəsilə Zığa qədər dəmiryol





xətti çəkməyi planlaşdırır və artıq layihələr üzərində iş gedir. Ən başlıcası, dəmir yolu nefti şəhərə daha ucuz – hər pudu[1] bir qəpiyə daşımaq imkanı verəcək...

Bu, neft istehsalı sahəsində iltizam sisteminin ləğvindən sonra yaranan rəqabətin real göstəricisi idi...

Qafqaz canişinliyindən Bakı qubernatoruna ünvanlanan məktubda Bebutov, Nobel və De Burun təklifinə bu dəfə də "yox" cavabı verilir. Yalnız ona görə ki onların irəli sürdüyü şərtlər xam neftin daşınması sahəsində inhisar hüququ yarada bilərdi.

Qafqaz canişinliyi bu işə icazə verməsə də, layihənin həyata keçirilməsində hökumətin yalnız bir formada iştirakının mümkünlüyünü xatırladır: hökumət kəmər üçün dövlət torpaqlarının ayrılmasına kömək göstərəcək...

Robert Nobel canişinliyin məktubundakı bu qeydi yadında möhkəm saxlayır, gələcək üçün...

[1] Köhnə rus kütlə ölçüsü vahidi (*1 pud = 16,38 kq*)

# "SUSUZ VƏ QEYRİ-MƏHSULDAR" NARGİN ADASINA MARAQ

Robert Nobel kəmər məsələsinin necə həll ediləcəyini gözləmədən Nargin (indiki Böyük Zirə) adasını icarəyə götürməkdə israr edir. Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə növbəti ərizəni 1874-cü ilin yanvarında yazır:

> "...Kimya zavodları və bu diyar üçün sərfəli olan digər sənaye müəssisələri tikməkdən ötrü fərdi adamlardan pulla torpaq sahələri almaq istəyirəm. Amma Bakı körfəzinin sahillərində torpaqların qanuni sahiblərinin kimliyi hələ müəyyən edilmədiyi üçün zati-alilərinizdən acizanə surətdə xahiş edirəm ki, Bakı şəhərinin 8 verstliyində[1] yerləşən, bu məktuba əlavə edilmiş xəritədən də göründüyü kimi, susuz və qeyri-məhsuldar Nargin adasının ildə 50 rubl haqq ödənilməsi müqabilində 24 illiyinə mənə icarəyə verilməsi barədə sərəncam imzalayasınız..."

Robert həmin ərizədə adadan istifadə ilə bağlı konkret şərtlərini də yazır: 1) Mənə hər cür tikililər inşa etmək və bu adanın üstündə və torpağın altında olan bütün sərvətlərdən pulsuz istifadə etmək hüququ verilsin; 2) Adanı bütövlüklə, yaxud bir hissəsini qardaşıma və ya başqa adamlara vermək hüququ ilə ondan öz şəxsi mülkiyyətim kimi 24 illiyə istifadə etməyimə icazə verilsin; 3) Əgər 24 ilin tamamında hökumət adanın məndə qalmasını istəməsə, onda adada tikilmiş bütün tikililər üzərində istədiyim kimi sərəncam vermək hüququna malik olum.

İddia böyük, şərtlər isə konkret və dəqiq idi.

[1] Köhnə rus uzunluq ölçüsü vahidi (*1 verst = 1068 km*)





Bu şərtləri yalnız sabahı görən, özünü gələcək problemlərdən sığortalamağı bacaran iş adamı irəli sürə bilərdi.

Bu məktub göstərir ki, Robert Nobel hələ ən azı 24 il Bakıda qalmağı nəzərdə tuturdu. Yeri gəlmişkən, o vaxt torpaq sahələri maksimum 24 illiyə icarə verilirdi. Yəqin ki, əgər 50 illiyə verilsəydi, Robert Nargin adasını 50 illiyə icarəyə götürmək fikrinə düşərdi. Çünki o, Bakıda pul qazanmaq perspektivlərini aydın görürdü...

İsveç təbəəsi "susuz və qeyri-məhsuldar" Nargin adasına niyə belə maraq göstərirdi?

Bu sualın cavabı öz əksini Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanan və Robert Nobelin vaxtilə Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə göndərdiyi məktubda tapıb.

Həmin sənəddə onun hesablamaları və təhlilləri verilir:

> "İltizam sisteminin ləğvi ilə Bakı şəhəri ətrafında və Balaxanı yüksəkliyində neftin daha səmərəli işlənməsi və hasilatı təşkil olunub. Buna görə də hazırda ildə 10 milyon puda qədər neft çıxarıla bilər. Bakı şəhərindəki fotogen zavodların sayı artsa da, belə böyük miqdarda neftin işlənməsi üçün yetərli deyil. Məhsuldarlıq o qədər çoxalıb ki, 1873-cü il ərzində Bakı şəhərindən 800 min puda yaxın fotogen aparılıb. Mənim hesablamalarıma görə, bu qədər fotogenin təmizlənməsi üçün Bakıya 12 min pud sulfat turşusu gətirilib. Fotogen istehsalının getdikcə artdığı indiki vaxtda sulfat turşusunun pudunun qiyməti artıq 5 rubla çatır. Bu rəqəm çox asanlıqla bir az da arta və fotogen zavodu sahiblərini çətin vəziyyətə sala bilər. Artıq zavod sahibləri sulfat turşusunun bahalığı ucbatından neftin təmizlənməsində ondan daha az istifadə edirlər ki, bu da məhsulun keyfiyyətinə və onun daxili və xarici bazarlarda satışına və bütövlükdə neft sənayesinin inkişafına mənfi təsir göstərəcək.
>
> Əgər sulfat turşusunun xaricdən gətirilməsinin asan və təhlükəsiz olmadığını nəzərə alsaq, onda bu məhsulun qiymətinin gələcəkdə aşağı düşəcəyini gözləmək düzgün olmazdı.
>
> Sulfat turşusundan başqa, neftin təmizlənməsində İngiltərədən baha qiymətə gətirilən "natri-hidroksid" adlı

kaustik soda da mühüm rol oynayır. Lakin zavod sahiblərinin əksəriyyətinin kifayət qədər vəsaiti olmadığından onlar birdəfəyə çoxlu miqdarda kaustik soda gətirə bilmirlər. Məcbur olub onu öz zavodlarında adi sodadan hazırlayırlar. Düzdür, bu, nisbətən ucuz başa gəlir, amma keyfiyyət aşağı olur.

Bu baxımdan Bakıda və ya onun ətrafında soda zavodunun tikilməsi yalnız bu diyarda fotogen istehsalına deyil, həm də Rusiyanın qalan hissəsində sənayenin inkişafına böyük təkan verərdi".

Yəqin ki, o dövrdə Bakıda neft istehsalı ilə məşğul olan çox az iş adamı neft sənayesinin problemlərini və perspektivlərini bu qədər dəqiq analiz edə bilərdi. Sonralar Nobellərin bu sahədə qazandığı uğurun ən böyük səbəbi bu idi: Bakıda olduğu müddətdə Robert bütövlükdə neft sənayesinin problemlərini araşdırır, bu sahəyə kompleks elmi yanaşma üzərində çalışır. Neftin çıxarılmasından satışına qədər bütün proseslərin bir əldə cəmlənməsi, bu proseslərin mexanikləşdirilməsi barədə planlar qurur, bunun üçün yollar axtarır. Və ilk arzusu Bakının 8 verstliyində yerləşən Nargin adasında kimya zavodları tikmək olur...



# NİYƏ MƏHZ NARGİN ADASI?

Nargin adası Xəzər dənizində, Abşeron yarımadasının cənubunda yerləşir. Su mənbəyi və bitki örtüyü olmayan bu adadan çar Rusiyası sonralar əsir düşərgəsi kimi istifadə edib. Sovet hakimiyyəti dövründə isə repressiyaya məruz qalan şəxslərin qətlə yetirildiyi cəhənnəm adası kimi tanınıb.

Əgər o vaxt Robert Nobelin adanı bir kimya sənayesi mərkəzinə çevirmək istəyi baş tutsaydı, onu sonralar nakam və günahsız insanların məzarlığına çevirmək, bəlkə də, mümkün olmazdı...

Bakı şəhərinin ətrafında biri sulfat turşusu, digəri isə soda istehsal edəcək iki kimya zavodu tikmək üçün yerli hakimiyyət orqanlarına müraciətində Robert həmin zavodların hətta iş prinsipləri barədə də məlumat verirdi. Məsələn, sulfat turşusu istehsalı üçün xammal kimi bu ərazilərdə bol olan kolçedandan[1] istifadə ediləcəkdi. Soda istehsalı isə Leblan üsulu ilə hazırlanacaqdı. Bu, o vaxt dünyada sodanın hazırlanması üçün istifadə edilən iki üsuldan biri idi. Fransalı kimyaçı Nikola Leblanın adı ilə bağlı olan bu üsul 1791-ci ildə kəşf edilmişdi.

İkinci üsulun müəllifi isə öz ixtirasını 1861-ci ildə ortaya qoyan belçikalı kimyaçı mühəndis Ernest Solven idi. Robert yerli şəraiti və imkanları diqqətlə təhlil etdikdən sonra üstünlüyü bu yerlər üçün daha uyğun saydığı Leblan üsuluna vermişdi.

Lakin Bakıda kimya məhsulları istehsalını təşkil etmək üçün bu zirək sahibkarın hökumətdən bəzi xahişləri də vardı. O, təbii soda və ya kolçedan külçəsi kimi mineral sərvətlərin mövcud olduğu dövlət torpaqlarından müəyyən pay istəyir, eyni zamanda tikəcəyi soda zavodu üçün alacağı duzun müvafiq aksiz vergisindən azad edilməsini arzulayırdı. Ən başlıcası isə Robert sənaye adasına çevirəcəyi Narginin bütövlükdə onun irsi

[1] Mineral külçə

mülkiyyətinə verilməsini xahiş edir və bunu bir sıra mühüm amillərlə əsaslandırırdı. Məsələn, uzaqgörən iş adamının qənaətinə görə, Rusiyanın ucqar əyalətində kimya zavodlarının tikintisinə ayrılacaq sərmayə ciddi risk altında olacaqdı. Bu riskdən sığortalanmaq üçün irsi mülkiyyət hüququnun əldə olunması vacib şərt idi.

Robert Nobel niyə məhz Nargin adasını almaq istədiyini isə belə izah edirdi:

> "Bakı buxtasının sahillərində fərdi torpaq sahələrinə sahiblik məsələsi hələ dəqiq müəyyənləşməyib. Nargin adası isə mülkiyyət kimi heç bir mübahisə doğurmurdu".

O həm də adanı yalnız 24 illiyə icarəyə götürmək istəyirdi. Çünki bu şərt daxilində Qafqaz canişinindən icazəni daha tez ala biləcəyini və qısa vaxtda işə başlayacağını düşünürdü.

Əslində, zavod və digər müəssisələrin tikintisi üçün Robert adanın bir hissəsindən istifadə edəcəkdi. Dənizin ortasındakı torpaq parçasına bütövlükdə sahib olmaq niyyəti isə gələcəkdə burada içməli su çıxarılmasına, gəmilərin rahat dayana bilməsi üçün hansısa müdafiə sisteminin və digər qurğuların tikilməsinə xərclənəcək kapital üçün bir təminat olacaqdı. Həm də adada digər torpaq sahibləri olardısa, zərərli qazlar buraxan zavodlarla qonşuluğun onlarda fasiləsiz şikayət və narazılıqlar yaradacağı şübhəsiz idi...

Robert Nobel Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə yazdığı məktubda bütün bu ideya və istəklərinin Qafqaz canişininə çatdırılmasını xahiş edirdi...

Lakin o, müraciətinə cavab almamış Peterburqa qayıtmaq qərarına gəlir.



# ROBERT NOBEL BAKINI TƏRK EDİR – QAYITMAQ ÜÇÜN...

1874-cü ilin martında Bakını yarım illiyə tərk etmək qərarına gələn Robert başladığı işləri yarımçıq qoymaq da istəmir. Və dostluq etdiyi azad şturman Lev Martınoviç De Bura özünün başladığı işləri davam etdirmək üçün etibarnamə verir.

Etibarnamədə deyilirdi:

> "Bakı şəhərindən altı aylığa getdiyim üçün, hörmətli cənab, sizdən xahiş edirəm ki, bu müddətdə zəhmət çəkib mənə aid işlərlə bağlı, o cümlədən, birincisi, başladığım aşağıdakı işlərlə bağlı vəsatət qaldırmağı davam etdirəsiniz: a) Xəzər dənizindəki Nargin adasının töycü ödəməklə həmişəlik mənə verilməsi haqqında; b) neft çıxarılması üçün Xəzər dənizi sahilində mənə torpaq ayrılması barədə; c) sizinlə və knyaz Bebutovla birlikdə Bakı quberniyasının Balaxanı kəndindən Bakı buxtasına qədər neft kəməri çəkmək haqqında..."

Bundan başqa, R.Nobel müvafiq idarələrdən ona Qafqazda, Zaqafqaziya diyarında və Xəzər dənizinin şərq sahillərində neft və minerallar axtarmaq və çıxarmaq üçün boş dövlət torpaqları ayrılmasına çalışmağı da De Bura həvalə edirdi.

Həmçinin xahiş edirdi ki,

> "Bakı buxtasının yaxınlığında sənaye müəssisəsi tikmək üçün onun adına qiyməti bir min beş yüz rubldan baha olmayan bir torpaq sahəsi alsın".

Eyni zamanda neft çıxarmaq və zavod və fabriklər tikmək üçün onun adından hərraclarda iştirak etsin.

Bakı ətrafındakı bir neçə torpaq sahəsinin ona icarəyə verilməsindən imtina olunduğu üçün həmin torpaqlara görə R.Nobelin Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə verdiyi girovu götürmək də De Bura tapşırılırdı.

Nəhayət, R.Nobel etibarnamə ilə De Bura onun adına gələn teleqram və bağlamaları almaq, bütün məhkəmə və inzibati idarələrdə onu təmsil etmək, lazım gəldikdə fərdi, apelyasiya və kasassiya şikayətləri vermək, onun adına olan hər cür kağızın və sənədin surətini götürmək, onun yerinə imzalamaq və s. kimi hüquqlar verirdi.

Bir sözlə, R.Nobel sanki öz yerinə Bakıda De Buru saxlayırdı.

Belə geniş hüquqların verildiyi sənədə indi "baş etibarnamə" deyilir. O dövrdə isə, görünür, sadəcə, etibarnamə adlanıb.

Sənəd bu sözlərlə bitirdi:

> "...Mən sizə inanıram, sizinlə mübahisə etməyəcək və əleyhinizə getməyəcəyəm. Bakı şəhəri, 30 mart 1874-cü il. Bu etibarnamə müstəqil şturman Lev Martınoviş De Bura verilir".

Etibarnaməni Bakı notariusu Qriqori Smolnikov təsdiq etmişdi...



# NARGİN SEVDASININ SONU

1874-cü ilin iyununda Bakı qubernatoru Robert Nobelin Nargin adası barədə xahişini Qafqaz canişinliyi Əmlak Məsələləri Baş İdarəsinin rəisinə çatdırır. O, Bakıda neft istehsalının, fotogen sənayesinin inkişafı, sulfat turşusuna olan tələbatın artması və s. barədə müraciətdə qeyd edilən faktları sadalayır və yazır ki, Bakıya gəlmiş İsveç təbəəsi Robert Nobel şəhər yaxınlığında iki zavod tikmək istəyir.

Bu məqsədlə fərdi adamlardan torpaq sahəsi ala bilmədiyi üçün ildə 50 rubl ödəməklə Nargin adasını həmişəlik icarəyə götürmək niyyətindədir.

Nargin adasının dövlətə heç bir gəlir gətirmədiyini nəzərə alan qubernator adanın Robert Nobelə verilməsinə etirazı olmadığını bildirir və məktuba Bakı quberniyası Dövlət Əmlakı İdarəsində hazırlanmış kontrakt layihəsini də əlavə edərək bu barədə Qafqaz canişininə məruzə olunmasını xahiş edir.

Qubernatorun müraciətinə həmin ilin sentyabrında cavab verilir:

> "Nargin adasının bütövlüklə Nobelə verilməsi dövlət üçün sərfəli ola bilməz!"

Bildirilir ki, sulfat turşusu və soda zavodu tikmək üçün ona lazım olan qədər torpaq sahəsi ayırmaq mümkündür. Qalan torpaq sahəsindən isə mövcud qanunlara uyğun olaraq, neft çıxarılması məqsədilə istifadə edilə bilər.

Arxiv sənədləri arasında bu məsələyə dair canişinliyin Dağ İşləri İdarəsinin də rəyi var. Həmin sənəddə deyilir ki, Nargin adasının özündə böyük neft ehtiyatları ola bilər...

Digər tərəfdən adada başqa iş adamlarının orada tikiləcək zavodların "zəhərli qazından əziyyət çəkəcəyi" barədə deyilənlərin də təhlükəli olmadığı, bunun üçün müvafiq qaydalar tətbiq etməyin mümkünlüyü xatırladılır.

Bununla da Robert Nobelin Nargin adası barədə plan və iddiaları qarşısında qırmızı işıq yandırılır. Hətta bu qərar da onun, necə deyərlər, əlini-ayağını soyutmur, yeni ideyalar axtarır...

O, 1875-ci ildə Qara şəhərdə kiçik fotogen (kerosin) zavodu alır və həmin zavoda öz adını verir:

"R.E.Nobelin mineral işıqlandırıcı yağlar zavodu".

Tezliklə bu zavodun kerosini keyfiyyətinə görə başqalarından seçilir. Çünki Nobel Avropadan ən yaxşı mühəndisləri işə cəlb edir.

...Peterburqda yaşayan Lüdviq Bakı neft mədənlərində baş verənləri qəzetlər vasitəsilə indi əvvəlkindən daha maraqla izləyir. Qəzetlərdən onu da öyrənir ki, hökumət yerli istehsalı gücləndirmək üçün Amerikadan idxal olunan kerosinə görə rüsumu qaldırır...



# LÜDVİQ NOBEL: "BAKIDA BÖYÜK PULLAR VAR"

Lüdviq o dövrdə artıq Peterburqun tanınmış iş adamı idi.

Bununla belə, Bakıya, Bakı neftinə marağı gündən-günə artırdı. Və belə günlərin birində – 1875-ci ilin oktyabrında qəzetdə "Bakıda Tağıyevin mədənində daha bir fontan" adlı xəbəri görəndə artıq dayana bilmir, qəzeti kənara atıb Alfredə məktub yazmağa başlayır:

"...Robert yenidən Bakıya qayıdıb... Ona pul və texniki məsləhətlər verməklə məndən asılı olan işləri gördüm. Robert deyir ki, neftin təmizlənməsi üçün hansısa təkmilləşdirmə işləri aparır. Onun işinə qiymət verə bilmərəm, çünki mən bu sahədən xəbərsizəm. Düşünürəm ki, biz ikimiz: sən və mən birlikdə ora gedib baxmalıyıq ki, görək ona necə kömək edə bilərik. Sənin də, mənim də müstəqil işimiz var, Robertə öz işini qurmaqda yardım etməliyik. Hər halda, sən Bakıya getmək barədə fikirləş..."

Alfredin Bakıya getmək barədə təklifə cavabı bir qədər sərt olur:

"...Səninlə, eləcə də Robertlə görüş mənə maraqlı görünür. Amma susuz, tozlu-torpaqlı, neftə bulanmış o səhra məni heç cür özünə cəlb etmir. Mən əsəblərimi sakitləşdirən yaşıllıqlar məkanında qalmağı üstün tuturam. İmkan dairəsində böyük şəhərlərdən və səhralardan uzaq olmaq istəyirəm..."

Alfred Nobel bununla da ömrünün sonuna kimi Bakıya ayaq basmır. Amma Nobellərin bu şəhərdə qazandığı gəlirdən payını vəfat etdiyi günə qədər almaqda davam edir.

Onun səhhətində problemlər var idi, uşaqlıqdan astma xəstəliyinə tutulmuşdu.

Alfredin soyuq cavabından sonra Lüdviq 26 yaşlı oğlu Emmanuili də götürüb Bakıya yola düşür.

Məşhur "Nobellər imperiyası" kitabının isveçli müəllifi Brita Osbrinkin yazdığına görə, Bakıya birinci səfərindən razı qalan Lüdviq 1876-cı ilin sentyabrında yenidən bu şəhərə gəlir. Hələ Bakıya çatmamış "Volqa çayı" adlı gəmidən Alfredə daha bir məktub yazır. Bakı neftinin daşınması üçün nəhəng planları barədə qardaşına məlumat verir, Bakıda böyük pulların olmasından inamla söhbət açır...

Lüdviq ikinci səfərində artıq qonaq kimi yox, Robertin şəriki kimi istehsalat prosesləri barədə təkliflər verir, neftin saflaşdırılmasının daha da təkmilləşdirilməsi üzərində baş sındırır. Çıxarılan neftin mədənlərdən zavoda daha tez və ucuz çatdırılması üçün yollar axtarır. Neftin saxlanması üçün çənlər qurulması barədə planlar cızır, nəhayət, neft məhsullarının daşınması üçün daha sərfəli variantlar haqda fikirləşir. Neftin daşınmasından ötrü gəmiçilik şirkətinin yaradılması ideyasını qardaşları ilə bölüşür...

Ümumiyyətlə, bu qardaşların fəaliyyətinin təhlili, onlar barədə yazılanlar bir həqiqəti təsdiq edir: Nobellər məşğul olduqları bütün fəaliyyət sahələrinə elmi yanaşmanın tərəfdarı olublar. Onlar bir-biri ilə, konkret mütəxəssislərlə məsləhətləşib, həmişə elmi əsaslandırmalara üstünlük veriblər.

Hələ Robert Bakıda fəaliyyətə təzə başlayanda Lüdviq Alfreddən xahiş etmişdi ki, Amerikadakı tanışları vasitəsilə neft sənayesinə dair ən son informasiyaların əldə edilməsinə yardımçı olsun. Lüdviq artıq Bakıya gəlib kerosinin alınması prosesində yaxından iştirak edəndən sonra onun Amerika təcrübəsini öyrənmək istəyi daha da güclənir. Və qardaşlar bir müddət Amerikada maşınqayırma zavodunda işləmiş gənc mühəndis Alfred Törnkvistin xidmətlərindən yararlanmaq qərarına gəlirlər. Çünki onlar Bakıda bu vaxta qədər heç kimin ağlına gəlməyən fasiləsiz neftayırma müəssisəsi yaratmağı planlaşdırırdılar. Ona görə də qardaşlar A.Törnkvisti yenidən Amerikaya göndərirlər. Gənc mühəndis özü ilə Bakı neftinin nümunəsini də aparır və həmin nümunə kimyəvi analizə verilir. Və mütəxəssislər Bakı neftinin Amerika neftindən fərqli olduğunu təsdiq edirlər.

Brita Osbrinkin yazdığına görə, hətta Robert mühəndis Törnkvistə xatırladır ki, neftdən işıqlandırma və yağlama vasitələri alınması prosesinin





detallarını gizli yolla öyrənsin. Bundan sonra isə ona neftin kəmərlərlə vurulması prosesinin incəliklərini mənimsəmək tapşırılır. Robert yazırdı:

> "Nəhayət, yaxşı olardı ki, siz bizim adımızı çəkmədən ən böyük və ən yaxşı firmalarda qazma alətlərinin, hər cür boruların, buxar qazanlarının və s. avadanlığın son qiymətlərini də öyrənəsiniz".

Mühəndis A.Törnkvist Nobellərin tapşırığını uğurla yerinə yetirir. O, Bakıya Amerika neft sənayesinin iş mexanizmi barədə zəngin məlumatlar və neft haqqında müxtəlif kitablarla qayıdır...

# NEFT KƏMƏRİNİ TƏKBAŞINA ÇƏKMƏK ARZUSU

1876-cı ilin sentyabrında Robert Nobel artıq Bakıdakı dövlət idarələrinin qapısını yeni ideyalarla döyməyə başlayır.

Əvvəlcə Bakı qubernatorluğuna müraciət edir. Özü də bu dəfə, sadəcə, İsveç təbəəsi kimi yox, 1-ci dərəcəli Bakı taciri kimi...

Bu rütbə ona hansı üstünlüyü verirdi?

Rusiyada tacir dərəcələrinin verilməsinə XVIII əsrdən başlanmışdı. Bu, imkanlı adamların müəyyən güzəştlərlə fərqləndirilməsi üçün bir bölgü sistemi idi. O vaxtdan müxtəlif illərdə bu və ya digər çarın fərmanı ilə tacir dərəcələrinə tətbiq olunan güzəştlər də dəyişdirilirdi. Məsələn, II Yekaterinanın vaxtında – 1775-ci ildə təsdiq olunan qaydalara görə, varidatının dəyəri 10 min rubldan çox olan adamlar 1-ci dərəcəli tacir sayılırdı. Bir mindən 10 min rubla qədər varidatı olanlar 2-ci, 500 rubldan 1000 rubla qədər varidatı olanlar 3-cü dərəcəli tacir hesab olunurdu.

1-ci dərəcəli tacirlər xarici ölkələrlə ticarət edə bilir, gəmilər saxlamaq hüququ qazanırdılar.

2-ci dərəcəli tacirlər ölkə daxilində topdan və pərakəndə ticarətlə məşğul ola, fabrik-zavoda sahiblik edə bilərdilər. Və bir də onların çay gəmiləri saxlamaq hüququ var idi.

3-cü dərəcəli tacirlərin isə şəhər və qəzalarda xırda ticarət və sənətkarlıqla məşğul olmaq, yeməkxanalar, yolüstü mehmanxanalar saxlamaq hüququ var idi.

1876-cı ildə Robert Nobelin Bakı şəhər rəhbərlərinin qapısını artıq 1-ci dərəcəli tacir kimi döyməsi təsadüfi deyildi. Onda Robertin Bakıda öz zavodu fəaliyyət göstərirdi...

O, Bakı qubernatorundan Balaxanıdan, neft mədənlərindən Qara şəhərə qədər kəmər çəkmək üçün 2 sajen enində torpaq sahəsi ayrılmasını





xahiş edirdi. Kəmərin keçəcəyi yerlərdə nasoslar qoyulacağını və mühafizə köşkləri tikiləcəyini də nəzərə almaqla bütövlükdə kəmər üçün cəmi 10 desyatinə qədər torpaq sahəsi lazım olacağını bildirirdi. Kəmərin Balaxanı, Sabunçu və Keşlədə olan dövlət torpaqlarından keçəcəyini xatırladır, yalnız dövlət torpaqlarına görə icazə verilməsini xahiş edir, fərdi torpaq sahibləri ilə özü dil tapa biləcəyini söyləyirdi.

Robert oxşar məzmunlu daha bir məktubu isə Bakının vitse-qubernatoru, baron Aleksandr fon Der Bryüggenə göndərir.

Bu məktubda üç il əvvəl Lev De Bur və knyaz Bebutovla birlikdə Balaxanıdan Qara şəhərə qədər neft kəməri çəkmək istədiklərini xatırladır, lakin bu işə icazə verilmədiyini yada salır. Və bildirir ki, indi həmin kəməri təkbaşına və öz vəsaiti hesabına çəkmək istəyir!

Ötən üç ildə artıq çox şey dəyişmişdi. Nobellərin Bakıda neftayırma zavodu işə düşmüş, qardaşlar neft emalı sahəsində xeyli bilik və təcrübə əldə etmişdilər. Uzun yazışmalar vasitəsilə fasiləsiz neftayırma prosesinin təşkili sahəsində konkret ideyalar hazırlamışdılar.

Nobellər anlamışdı ki, neftin arabalarla daşınması vaxtı keçib. Çünki belə daşınma baha başa gəlirdi. Onda neftin arabalarla pudunun daşınma qiyməti artıq 6 qəpiyə qalxmışdı. Bu isə o dövr üçün böyük rəqəm idi, çıxarılan neftin maya dəyərinə ciddi təsir edirdi. Nəticədə bütövlükdə neft sənayesinin inkişafına zərbə dəyirdi.

Belə bir vaxtda Robert Nobel təkbaşına, öz vəsaiti hesabına kəmər çəkmək iddiasını ortaya qoyur. Və bu mövzuda ilk müraciətinə Qafqaz canişinliyindən gələn cavab məktubundakı bir cümləni indiki müraciətinə əlavə edir:

> "...bu işdə administrasiyanın iştirakı yalnız neft kəməri çəkilməsi üçün lazım ola biləcək dövlət torpaqlarının ayrılması ola bilər..."

Nobel indi kəməri öz xərci ilə çəkməyi öhdəsinə götürür, yalnız kəmərin keçəcəyi dövlət torpaqlarına görə icazə verilməsini xahiş edir.

Və fikrinin qəti olduğuna inandırmaq üçün bu ilin payızından neft kəməri çəkməyə başlamaq istədiyini xatırladır.

Brita Osbrinkin yazdığına görə, Lüdviq Nobel məhz belə bir vaxtda – sentyabrın axırlarında yenidən Bakıya gəlir.

# LÜDVİQ NOBEL İKİNCİ DƏFƏ BAKIDA

Peterburqun nüfuzlu iş adamı kimi tanınan Lüdviqin Bakıya gəlişi sanki Roberti daha da ürəklәndirir və bu dəfə o, mətnində cüzi dəyişiklik etdiyi məktubunu yenidən şəhər rəhbərliyinə təqdim edir.

Nə idi bu dəyişiklik?

İndi məktub iki nəfər: "1-ci dərəcəli Peterburq və 1-ci dərəcəli Bakı tacirləri və zavod sahibləri Robert və Lüdviq Nobel qardaşları"nın adından yazılmışdı.

Artıq Lüdviq də Bakıda neft işinin rəsmi şəriklərindən biri olmaq arzusunda idi. Qardaşlar məktubun əvvəlində "kəmər çəkilməsi ilə bağlı Tiflisə gedib Qafqaz canişini Böyük knyaz qarşısında vəsatət qaldırmaq" niyyətində olduqlarını bildirirdilər.

O dövrdə Qafqaz canişini I Nikolayın dördüncü oğlu Böyük knyaz Mixail Nikolayeviç Romanov idi. Lüdviq Nobelin onunla tanışlığı və mehriban münasibətləri var idi və knyazın yanına getmək barədə xatırlatma təsadüfi deyildi.

Qardaşlar məktubda kəmərin vacibliyini belə əsaslandırırdılar:

> "Amerika kerosininin qiymətinin qalxması və onun Rusiyaya kifayət qədər gətirilməməsi Bakıda fotogenin qiymətinin artmasına səbəb olub. Amma daşıma vasitələrinin azlığı nəticəsində əvvəlki illərlə müqayisədə daşıma xərcləri 2,5 dəfə artdığından bir çox zavod sahibləri neft çatışmazlığı üzündən zavodlarını dayandırmağa məcbur olublar. Bu arada neft daşınması da azalıb və arabaçılar qiyməti bir az da qaldırıblar. Yeni quyuların qazılması ilə neft çatışmazlığı aradan qaldırılacaq, amma daşıma vasitələrinin çatışmazlığı əvvəlki kimi zavodların istehsal gücünün artırılmasına maneə olaraq qalacaq".





Emmanuil Nobel *(ata)*.
1850-ci illər



Robert Nobel. 1896-cı il



Lüdviq Nobel. 1880-ci illər



Alfred Nobel. 1896-cı il



Emmanuil Nobel *(nəvə)*. 1900-cü illər



“Villa Petrolea”. 1900-cü illər



Nobellərin fəhlələr üçün tikdirdiyi evlər. 1909-cu il



Fəhlələr Nobellərin mədənində fontan vuran quyularda torpaq işləri görərkən. 1889-cu il



Bakıda Lüdviq Nobel prospekti. 1917-ci il



Nobellər tezliklə Bakıda neft böhranının yaranacağını xüsusi vurğulayır, bunun qarşısının alınması üçün neft kəmərinin çəkilməsinin vacibliyini bildirirdilər.

Məktub bu sözlərlə bitirdi:

"...mən, Lüdviq Nobel, əlahəzrət imperatora, Böyük knyaza müraciət etməyi nəzərdə tuturam".

Bu fikrin ikinci dəfə xatırladılması da təsadüfi deyildi. Qardaşlar tələsirdi. Onlar neft kəmərinin səmərəsinə və böyük pullar gətirəcəyinə inanırdılar.

Lüdviq Nobel Böyük knyaz Mixail Nikolayeviçin qəbuluna bu inamla gedir. Görüşdən sonra Alfredə yazdığı məktubda bildirir ki, canişin onlara hər cür kömək etməyə söz verib:

"Yəni hakimiyyət tərəfdən hər hansı əngəl çıxsa, şübhə etmirəm ki, onun köməyinə arxalana bilərik".

Lüdviq haqlı idi. Sonralar da Nobellərin qarşısına çıxan bir çox problemlərin həllində məhz bu amil – Rusiya imperiyasının hakim dairələri ilə Lüdviq Nobel arasında yaranmış işgüzar və mehriban münasibətlərdən doğan əlaqələr az rol oynamır.

Görünür, yuxarılarda "adamı olmaq" o dövrdə də bir çox məsələlərin həllində "yaşıl işıq" rolu oynayıb. Artıq dekabr ayında Qafqaz canişinliyindən Bakı qubernatoruna göndərilən məktubda Nobel qardaşlarının "Şimali Amerika Birləşmiş Ştatlarında qəbul olunmuş nümunə əsasında" kəmər çəkmək istəyinin reallaşması üçün onlara dərhal torpaq sahəsi ayrılması barədə tapşırıq verilir:

"Əlahəzrət imperator əmr etdi ki, ...Bakıda Balaxanıdan Qara şəhərə qədər neft kəməri çəkmək üçün Nobellərə 24 illiyə dərhal lazımi qədər dövlət və boş dövlət-icma torpaqları ayrılsın".

Arxiv sənədləri arasında kəmərin keçəcəyi ərazinin xəritəsi və kəmərin sxemi də saxlanılır...

Bu arada Robertin neftli torpaq sahələri almaq arzusu da reallaşmağa başlayır.

1876-cı ilin mayında İsveç təbəəsi, 1-ci dərəcəli Bakı taciri Robert Nobellə Balaxanı sakini Eyvaz Kərbəlayi Qasım oğlu arasında torpaq alqı-satqısı barədə müqavilə bağlanır...

On gündən sonra Hacı Əli Kərbəlayi Baba oğlu ilə oxşar müqavilə imzalanır...

Həmin ilin oktyabrında isə Ələkbər Məmməd oğlu ilə torpaq alqısına görə razılıq əldə olunur...

Bundan sonra Robert Nobel bir-birinin ardınca neftli torpaq sahələrinin icarəsinə dair onlarla müqavilə bağlayır...

1877-ci ilin yayında Robertin Balaxanıdan Qara şəhərə neft kəməri çəkmək üçün sifariş verdiyi "boru və maşınlar artıq Qlazqodan Bakıya doğru gətirilir". O bu barədə Bakı quberniyası Dövlət Əmlakı İdarəsinə məlumat verərək müvafiq torpaq sahəsinin ayrılmasını sürətləndirməyi xahiş edir. Çünki texnikanın gəlməsinə qədər "torpaq işləri dərhal görülməli" idi.

Nəhayət, 1877-ci ilin sentyabrında Bakı quberniyasının torpaqölçəni neft kəməri üçün müvafiq torpaq sahələrinin ayrıldığı barədə raport təqdim edir...

Elə həmin ilin sentyabr ayında R.Nobel neft kəmərlərinin keçəcəyi torpaqlara görə iki aylıq icarə haqqını da şəhər büdcəsinə ödəyir və müvafiq kontrakt imzalanır...

1877-ci ilin dekabrında isə Nobellər kəmər üçün torpaq icarəsinə görə bir illik icarə haqqını şəhər büdcəsinə ödəyirlər.

Nobellərin Bakıda ilk neft kəməri 1878-ci il mayın 20-də istifadəyə verilir və gündə 15 min pud xam neft ötürür. Bunun üçdəbiri Nobellərin öz zavoduna, qalanı isə digər zavodlara nəql edilir.

Bununla da Nobellər Bakının neft sənayesində böyük bir inqilabi dəyişikliyin əsasını qoyurlar. Neftin kəmər vasitəsilə daşınmasının səmərəsi dərhal görünür. Digər neft sənayeçiləri də boru xətti çəkmək niyyətinə düşürlər.

Bundan sonra Nobellər mədənlər arasında, eləcə də Qara şəhərdəki zavodlar arasında kəmərlər şəbəkəsi çəkməyi qərara alırlar. İlk təcrübəyə əsaslanaraq kəmərləri artıq torpağın üstü ilə, yol kənarları ilə, hətta yolu korlamadan üstündən keçirməklə çəkmək ideyasını irəli sürürlər.

Nobellərin işi uğurla davam edir və onlar, nəhayət ki, daha böyük şirkət təsis etmək arzusuna düşürlər. Artıq 1879-cu il idi...



# ŞİRKƏTİN TƏSİS EDİLMƏSİ

Həmin ilin mayında Rusiya imperatoru II Aleksandr "Nazirlər Komitəsinin əsasnaməsinə uyğun olaraq, Peterburqdakı Lüdviq Emmanuil Nobelə, Bakıdakı Robert Emmanuil Nobelə, Parisdəki Alfred Emmanuil Nobelə və qvardiya polkovniki Pyotr Aleksandroviç Bilderlinqə 1879-cu il mayın 18-ci günündə yüksək səviyyədə baxılıb təsdiq edilməyə layiq bilinmiş nizamnamə əsasında fəaliyyət göstərəcək müştərək "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin təsis olunmasına icazə verməyi iltifat edir".

Şirkətin nizamnaməsinin 1-ci bəndində deyilirdi:

> "Bakı şəhərində yerləşən və 1-ci dərəcəli tacirlər: Sankt-Peterburqdakı Lüdviq və Bakıdakı Robert Emmanuiloviç Nobellərə məxsus neftayırma zavodunun canlandırılması və fəaliyyətinin daha da genişləndirilməsi üçün, habelə imperiyanın digər yerlərində də neft çıxarılması və emalı məqsədilə müştərək "Nobel qardaşlarının neft istehsalı şirkəti" təsis edilir".

Nobellər hələ 1879-cu ildə imperiyanın digər yerlərində də neft çıxarılmasının mümkünlüyü haqqında düşünür, artıq Zakaspi vilayətində də işləyirdilər...

Nobellər hələ bu şirkəti təsis etməzdən xeyli əvvəl anlamışdılar ki, yalnız neftin çıxarılması, emalı, daşınması, saxlanması və satışı sahəsində bütün istehsal proseslərinin bir əldə cəmlənməsi böyük uğura gətirib çıxara bilər! Onlar isə Bakıya məhz böyük uğur dalınca gəlmişdilər.

Deməli, hələ yeni şirkətin nizamnaməsi hazırlanarkən Nobellər uzaqgörənliklə gələcəkdə şəxsi gəmilərə malik olacaqlarını bilirdilər. Daha doğrusu, onlar gəmiçilik şirkəti yaratmağı nəzərdə tuturdular.

Bu baxımdan ilk nizamnamənin 6-cı bəndi xüsusi əhəmiyyət kəsb edirdi: şirkət öz materiallarını və məhsullarını daşımaq üçün şəxsi gəmilərə, yelkənli gəmilərə, barjlara və başqa daşıma vasitələrinə, eləcə də məhsullarını dəmir yolu ilə daşımaq üçün Dəmir Yolu İdarəsi ilə razılaşdırmaqla dəmir yolu vaqonlarına malik ola bilər.

Onda Xəzərdə Nobellərin "Zərdüşt" gəmisi üzürdü...



# NOBELLƏR VƏ GƏMİÇİLİK

Hələ şirkət təsis olunmazdan əvvəl Bakı quberniyasında neftin kəmərlərlə daşınmasını təşkil edən qardaşlar neftin Bakıdan kənara aparılması sahəsində yeni ideyalar üzərində baş sındırmağa başlamışdılar. Düzdür, onda Bakı neftini Rusiya bazarlarına Xəzərdə çoxdan fəaliyyət göstərən gəmiçilik şirkətləri daşıyırdı. "Kavkaz i Merkuri", ""Vostoçnoye" Mal Anbarları Cəmiyyəti", "Nadejda" və s. adlarla fəaliyyət göstərən şirkət və səhmdar cəmiyyətləri ilə yanaşı, yerli iş adamlarının: Dadaşovların, Useynovların və başqalarının gəmiçilik şirkətləri də neft daşınmasında mühüm rol oynayırdı.

Xəzərdə neft daşınması sahəsində yaranmış bu gərgin rəqabət şəraitində Nobellər də gəmiçilik şirkəti yaratmaq, nefti öz gəmiləri ilə daşımaq barədə düşünürlər. Və bu işdə bir təsadüf nəinki Nobellər, bütövlükdə neftdaşıma sahəsi üçün inqilabi dəyişikliyin əsasını qoyur.

...Bakıdan neft daşımaqla məşğul olan Həştərxan tacirləri Nikolay və Dmitri Artyomov qardaşlarının gəmiləri fırtınaya düşür. Nəticədə gəmidəki taxta çəlləklər dağılır və neft tryümə – gəminin ən aşağı göyərtəsinin altındakı yük yerinə tökülür. Həştərxana çatanda məlum olur ki, tryümə tökülən neft limana qədər itkisiz gəlib çıxıb. Məhz bu hadisə tacir qardaşlara yeni ideya verir. Onlar 1873-cü ildə özlərinin "Aleksandr" adlı yelkənli gəmisinin tryümündə dəmir rezervuar quraşdırır, nefti əl nasosu ilə ora vurur, elə həmin üsulla da boşaltmağa başlayırlar. Beləliklə, dünyada ilk dəfə Xəzərdə neftin birbaşa tryümdə daşınmasına başlanılır. Daha doğrusu, bu qeyri-adi hadisə Bakı neftinin neftdaşıyan gəmilərlə nəqlinin kəşfinə gətirib çıxarır.

1874-cü ilin naviqasiyası zamanı "Aleksandr" gəmisi Bakıdan Həştərxana səkkiz reys edə bilir, nefti xüsusi qablarda daşıyan gəmilər isə ancaq altı reyslə kifayətlənməli olur. Üstəlik "Aleksandr" Həştərxandan geri dönərkən

taxta-şalban gətirir, o biri gəmilər isə geriyə boş neft çəlləkləri ilə qayıtmalı olur. Bundan sonra Artyomov qardaşları yelkənli gəmilərinin əksəriyyətini neftdaşıyan gəmilərə çevirirlər.

Bu sahədə qazanılan uğur digər gəmi sahiblərinin, gəmiçilik şirkətlərinin də diqqətini cəlb edir və Xəzərdə neftdaşıyan gəmilərin sayı artır. 1877-ci ildə Xəzərdə artıq 12 yelkənli neftdaşıyan gəmi üzürdü.

Daha bir neçə il keçir, neftin və neft məhsullarının tryümə doldurulub-boşaldılması texnologiyası da təkmilləşdirilir, neft güclü buxar nasoslarının köməyi ilə doldurulub-boşaldılır, nəticədə bu üsulla daşıma nisbətən ucuz başa gəlir.

O dövrdə yeni daşıma üsulu sərfəli və səmərəli olsa da, təhlükəsiz deyildi. Gəmi sahibləri yanğından və məhsulun keyfiyyətini itirəcəyindən ehtiyat edərək, məsələn, kerosini əvvəlki qayda ilə taxta çəlləklərdə daşıyırdılar. Deməli, neftin daşınma texnologiyasının yenə də təkmilləşdirilməsinə ehtiyac var idi.

Xəzər dənizində bu sahədə növbəti yenilik də Nobel qardaşlarının adı ilə bağlıdır. Nobellər neftin tryümdə daşınması sahəsində yaranan təcrübəni diqqətlə öyrənir və 1877-ci ildə İsveçdə fəaliyyət göstərən "Motala" gəmiqayırma zavoduna ilk neftdaşıyan tanker sifariş verirlər. Zərdüşt fəlsəfəsinə və bütövlükdə atəşpərəstliyə maraq göstərən qardaşlar tankerə qeyri-adi və maraqlı ad – "Zoroastr" ("Zərdüşt") adı verirlər. Növbəti naviqasiyaya qədər gəmi hazır olur və 19 dəmir rezervuarı olan ikivintli "Zərdüşt" tankeri 1878-ci ildə ilk dəfə 15 min pud Bakı nefti ilə yola çıxır.

Bunun ardınca Nobel qardaşları 1878-1880-ci illərdə "Motala" zavoduna daha 7 neftdaşıyan tanker sifariş verir. Bu gəmilərə də maraqlı adlar qoyulur: "Budda", "Məhəmməd", "Moisey", "Spinoza", "Darvin", "Linney" və s. 1882-ci ildə artıq Nobel qardaşları şirkətinin Xəzərdə 13 belə gəmisi üzür və naviqasiya ərzində Həştərxana 10 milyon puda yaxın kerosin daşıyırdı.

Hesablamalara görə, o dövrdə Bakıdan Nijni Novqoroda tankerlə daşınan neftin bir pudu o biri gəmilərlə müqayisədə 70-80 qəpik ucuz başa gəlirdi.

Beləliklə, XIX əsrin 70-ci illərinin sonlarında və 80-ci illərində Xəzərdə fəaliyyət göstərən digər gəmiçilik şirkətləri də Nobel qardaşlarından nümunə götürür və yeni neftdaşıyan tankerlər alır. "M.İ.Şipov və Ko", "Kaspi" və s. cəmiyyət və şirkətlər Xəzərə yeni tankerlər gətirir.





Gəmiçilikdə tətbiq olunan bu yenilik neftin nəinki daşınma xərclərini azaldır, üstəlik daşınma sürətini qat-qat artırırdı. Məsələn, 1873-cü ildə Bakıdan Rusiya bazarlarına 833 min pud kerosin daşınmışdısa, 1882-ci ildə bu rəqəm təxminən 15 dəfə artaraq 12,5 milyon puda çatmışdı.

Bakı nefti uğrunda rəqabət gündən-günə artırdı.

Zaman Nobellərdən neft sənayesi sahəsində yeniliklər tələb edirdi. Və daha çox Peterburqda olan Lüdviq daim Parisdə yaşayan Alfredlə əlaqə saxlayır, onun ideyalarından bəhrələnir, Bakıda işləyən Robertə lazımi köməklik göstərirdi.

1880-ci ilin martında Alfred Lüdviqə yazırdı: "...Mən neftin təmizlənməsi üçün böyük gəlir gətirəcək tamamilə yeni üsul işləyib-hazırlamışam. Sınaqlar yaxşı keçdi".

Onda Nobellər bütün sahələrdə sınaqları davam etdirirdilər. Elə gəmiçilik sahəsində də...

# RUDOLF DİZELİN MÜƏMMALI ÖLÜMÜ VƏ...

Həmin dövrdə artıq neftin istehsalı və satışı sahəsində dünyada amansız rəqabət gedirdi. Məşhur amerikalı sahibkar Con Rokfeller Rusiyanın neft sənayesi sektoruna girməyə can atırdı. "Rotşild qardaşları" Paris bankir evinin nümayəndəsi baron Alfons Rotşild Bakıda Xəzər-Qara Dəniz Neft Sənayesi Cəmiyyəti təsis etmişdi. Bakıya xarici ölkələrdən iş adamlarının axını dayanmırdı.

Nobellər bu rəqabətdən qalib çıxmaq üçün daha da irəli gedir, dünya neft bazarında Rokfelleri sıxışdırmağa başlayırlar. Hətta Rotşildlə birgə "Nobmazut" şirkəti yaradır, Avropada onun filiallarını təsis edirlər.

...1913-cü ilin sentyabrında Antverpendən İngiltərəyə yola düşən "Drezden" gəmisinin sərnişinlərindən biri axşam öz kayutuna gedir və yoxa çıxır. Bir neçə gündən sonra balıqçılar dənizdən səliqəli geyimdə olan kişi meyiti aşkar edirlər. Sonradan məlum olur ki, bu, məşhur alman ixtiraçısı Rudolf Dizeldir.

Hətta məşhur ixtiraçının intihar etdiyi, yoxsa öldürüldüyü barədə mübahisə və müzakirələr uzun illər mətbuat səhifələrindən düşmür.

Bir versiyaya görə, Böyük Britaniyada onun ixtirası ilə hazırlanmış mühərrik istehsal edən zavodun açılışına gedən R.Dizel özünü dənizə atıb.

Başqa versiyaya görə, R.Dizel onun Britaniya hərbi dairələri ilə danışıqlar aparmaq cəhdindən xəbər tutan alman kəşfiyyatı tərəfindən dənizə atılıb. Məşhur ixtiraçı o vaxt Britaniya hərbi sənayesinin nümayəndələri ilə əməkdaşlıq edibmi?

Bu sualın bu gün də dəqiq cavabı yoxdur.

Amma bütün bunlardan xeyli əvvəl – hələ XIX əsrin sonlarında R.Dizelin Nobellərlə əməkdaşlıq etdiyi sirr deyil.





Rudolf Dizel 1897-ci ildə özünün "yeni səmərəli istilik mühərriki" adlandırdığı mühərriki yaradır.

Dizelin daxiliyanma mühərrikinə dünyanın hər yerində maraq göstərilsə də, Almaniyanın özündə bu ixtira yetərincə qiymətləndirilmir. Belə bir vaxtda, 1898-ci ildə Emmanuil Nobel həmin mühərrikə lisenziya əldə edir və onu kerosinlə deyil, neftlə işləməyə uyğunlaşdırmaqla Peterburqdakı "Lüdviq Nobel" zavodunda kütləvi istehsalına nail olur. Zavodun mühəndisləri gəmilər üçün xam neftlə və mazutla işləyən 20 at gücündə mühərrik hazırlayırlar. Bu mühərriklər yanacağa qənaət etməyə imkan verdiyindən Rusiyada dizel mühərriklərinin geniş tətbiqinə başlanılır. Dizel mühərrikləri buxar maşınları ilə müqayisədə öz üstünlüyünü qısa vaxt ərzində təsdiq edir. Çünki bu mühərriklər buxar maşınlarından 5-6 dəfə az yanacaq sərf edir, onlara texniki qulluq daha asan başa gəlirdi.

1903-cü ildə "Nobel qardaşları" şirkəti Sormovo zavoduna dünyada ilk teploxod hesab edilən və hər biri 120 at gücündə olan üç dizel mühərrikli "Vandal" adlı gəmi-barjı, 1904-cü ildə isə hər biri 180 at gücündə iki dizel mühərriki ilə işləyən, 750 ton yükgötürmə qabiliyyəti olan "Sarmat" tankerini sifariş verir.

Teploxodların məhz XX əsrin əvvəllərində aktuallıq kəsb etməsi, hər şeydən əvvəl, neft yanacağının qiymətinin ilbəil artması ilə bağlı idi. Teploxod isə daha az yanacaqla işləyirdi.

Bundan sonra "Nobel qardaşları" şirkəti Kolomna zavoduna artıq 240 min pud yük götürən gəmilər sifariş verir.

Həmin dövrdə Bakıda möhkəmlənən şirkət öz işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması qayğısına qalır. "Villa Petrolea" adı ilə bu gün də Bakıda qorunan şəhərciyinin əsası qoyulur. Çünki Avropadan dəvət olunan mütəxəssislər bu şəhərin iqliminə bəzən tab gətirmir, əziyyət çəkirdilər. Nobellər isə əmin idi ki, peşəkar mühəndislər, ağıllı mütəxəssislər cəlb etmədən neft sənayesində uğur qazanmaq mümkün deyil. Məhz buna görə "neft bağı" salınır...

# "VİLLA PETROLEA" – "NEFT BAĞI"

Nobellər Bakıda neftayırma sənayesinin daha da təkmilləşdirilməsi üçün bu və digər yeni texnoloji addımlar atdığı vaxtda Bakı neft sənayeçilərinin çoxu texniki tərəqqini yaxına buraxmaq belə istəmirdi. Elə bir vaxt idi ki, günəş tutulanda avam əhali küçələrə tökülüb qab-qazan döyəcləyirdi ki, günəşi "xilas etsin"...

Və bir də əhalinin savadsızlığından yararlanan fırıldaqçılar az deyildi. Manaf Süleymanov bir vaxtlar əl-əl gəzən "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında yazırdı ki, Bakıda neft həyəcanı zamanı yalançı neftaxtaranlar da peyda olurdu:

> "Çoxlu yalançı alim, neftin harada gizləndiyini müəyyən edən "sehrkarlar" kontorlara, mədənlərə soxulur və sahibkarlara öz "kömək" əllərini uzatmağa can atırdılar. Bunlardan biri də Montvij-Montvil adında bir "alim" idi. O, Bakıya gəlib özünü faydalı filiz axtaran alim kimi qələmə verirdi. Bu adamın nə diplomu, nə də alim olması barədə bir sənədi var idi. Özünün dediyinə görə, əlindəki sehrli əsa yer altında olan neft, su, dəmir və s. faydalı qazıntılardan xəbər verirdi".

Təbii ki, belə "alimi-biəməllər" Nobellərin qapısını döyə bilməzdi...

Doğrudur, onlara yeni ixtiraları ilə bağlı müraciət edənlər çox olurdu. Şirkət isə hər bir müraciətə diqqətlə yanaşır, təklif olunan yeniliyin sınaqdan keçirilməsini təşkil edir, bir növ elmi əhəmiyyətini müəyyənləşdirirdi. Səmərəli görünən təkliflər mükafatlandırılırdı.

Arxiv sənədləri arasında belə müraciətlər az deyil.





Nobellər Bakıya yerin altını və üstünü tədqiq edən peşəkar mütəxəssislər, neft emalı proseslərini dəqiq bilən alimlər dəvət ediblər. İkinci Dünya müharibəsi illərində əfsanəvi qəhrəmanlıq göstərmiş məşhur bakılı Rixard Zorgenin atası kimi...

Bakılı olduğunu bu gün də qürurla qeyd etdiyimiz və şəhərimizdə heykəlini qoyduğumuz məşhur kəşfiyyatçı Rixard Zorge məhz Nobellərin bura dəvət etdiyi alman texnik QustavVilhelm Rixard Zorgenin ailəsində 1895-ci ildə dünyaya gəlmişdi. Arxiv sənədləri arasında Qustav Rixard Zorgenin ayrı-ayrı texnoloji problemlərə dair maraqlı yazışmaları da saxlanılır.

Bakı nefti İsveç əsilli Nobelləri və onların dünyanın müxtəlif yerlərindən dəvət etdikləri mütəxəssisləri bu şəhərə bağlasa da, quru iqlim şəraiti əcnəbilər üçün həmişə ciddi problem yaradırdı. Yaşıllığın olmaması onları daim narahat edirdi. Nobellər bu problemi aradan qaldırmaq üçün 1882-ci ilin fevralında Keşlə kənd icmasından 49 illiyə torpaq sahəsi icarəyə götürürlər. 1931-ci ilə qədər...

Və burada, özlərinin dediyi kimi, cənnət yaratmağa başlayırlar. Şirkətin 100-ə yaxın işçisinin yaşaması və istirahəti üçün nəzərdə tutulan "Villa Petrolea" tezliklə şəhər əhalisinin də istirahət etdiyi parka çevrilir. "Villa Petrolea" üçün Həştərxandan içməli su, Lənkərandan münbit torpaq daşınır. Dünyanın hər yerindən qiymətli ağaclar gətirilir.

Bütün sahələrdə olduğu kimi, yaşıllığın salınması da peşəkar mütəxəssisə etibar olunur. Varşavada bağ və parkların salınması sahəsində kifayət qədər ad çıxaran E.Bekle Bakıya dəvət edilir.

Lüdviq Nobel qızına Bakıdan yazdığı bir məktubunda xatırladırdı:

> "Bakı bizim bütün müzakirə və söhbətlərimizin əsas mövzusudur. Siz, yəqin ki, bilirsiniz, burada havalar tez-tez çox isti olur və qum fırtınaları dözülməz vəziyyət yaradır. Amma mən düşünürəm ki, ilin o biri hissələrini: payız və yazı da unutmaq olmaz. Bu fasillərdə hava olduqca gözəl olur. Şəhərdə elə yerlər var ki, üzücü tüstüdən boğulmursan, yaxud üfunətli buxar iyindən bezmirsən... Belə yerlərdən biri mənim sərəncamımla yaradılan və mənim "Villa Petrolea" adlandırdığım kiçik yaşayış məntəqəsidir".

Lakin "Villa Petrolea"da bu rahatlıq bir ara pozulur. 1907-ci ilin aprelində "Villa Petrolea"nın yerləşdiyi torpaq sahəsi ilə əlaqədar mübahisə

başlayır. Keşlə kənd icması torpaq ayrılması barədə 1882-ci ildə bağlanmış müqavilənin ləğvini tələb edir. Kənd sakinləri onlara məxsus torpaq sahələrinin mənimsənildiyi barədə iddia qaldırırlar.

Şirkət problemin həlli ilə əlaqədar ən yaxşı vəkillərə müraciət edir. Məsələn, 1907-ci ilin iyununda şirkət bakılı vəkil Stanislav Vonsoviçə müraciət edir ki, bütün məhkəmə instansiyalarında şirkətin mənafeyini qorusun. Ona bu işi udacağı təqdirdə 6000, uduzacağı halda isə 3000 rubl vəd olunurdu. Bu o dövr üçün böyük pul sayılırdı.

Dövlət Tarix Arxivində bu məsələyə dair çoxsaylı yazışmalar saxlanılır. İddiaya əvvəlcə Bakı Dairə Məhkəməsində baxılır, sonra iş Kutaisi Dairə Məhkəməsinə göndərilir. Qafqaz canişinliyi məsələyə qarışır. Nəhayət, bir ildən çox davam edən mübahisə və məhkəmə çəkişmələrindən sonra Nobellər qalib gəlir. 1908-ci ilin iyununda Keşlə kənd icması ilə bu dəfə 12 illiyə müqavilə bağlanır. Əvvəlkindən bir qədər baha qiymətə olsa da...

Beləcə, "Villa Petrolea" Nobellərin fəhlə və qulluqçularının istirahət mərkəzi kimi fəaliyyət göstərir. Və günlərin birində Bakıda daşnak-bolşevik Stepan Şaumyanın rəhbərliyi altında Bakı kommunası yaradılır, hakimiyyət Xalq Komissarları Sovetinə – bolşeviklərə keçir. Şəhərdə həyat dəyişir, ayrı-ayrı iş adamlarına və şirkətlərə məxsus əmlak "inqilabi məqsədlər üçün" müsadirə olunur.

Bolşeviklər Nobellərin Bakıdakı əmlakına da göz dikirlər.

1918-ci il mayın 24-də Xalq Daxili İşlər Komissarlığının tikinti şöbəsi "Nobel qardaşları" şirkətinə məktub göndərir: xalq daxili işlər komissarının sərəncamı ilə Nobel bağı və onun içindəki klub binası Xalq Maarifi Komissarlığının sərəncamına verilir...

Söhbət "Villa Petrolea" kimi tanınan istirahət mərkəzindən gedirdi.

Sadəcə, bolşeviklər "Nobel bağı"nı zorla "almırdılar", "Nobel bağı"nın Xalq Maarifi Komissarlığının sərəncamına keçirilməsi üçün komissiya yaratmışdılar və həmin komissiyada "Nobel qardaşları" şirkətinin nümayəndəsinin də olmasını istəyirdilər. Sadəcə, müsadirə faktına şahidlik eləmək üçün...

"Villa Petrolea" sovet dövründə Lunaçarski adına parka çevrilir.

1928-ci ildə isə bu ərazidə ilk Bakı zooparkı təşkil olunur.

1930-cu ildə buranı yenidən mədəniyyət və istirahət parkına çevirmək qərara alınır. Daha sonra parka Almaniya kommunistlərinin nəşri olan "Rote fane" ("Qırmızı bayraq") qəzetinin adı verilir. 1931-ci il mayın





1-də yeni adda parkın açılışı olur. Lakin 1941-ci ildə faşist Almaniyasının SSRİ-yə hücumundan sonra parkın adında alman sözlərinin saxlanılmasına heç kim risk eləmir. Kommunist təmayüllü qəzet adı olsa da...

Qərara alınır ki, parka böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adı verilsin. Həm də ona görə ki məhz həmin illərdə şairin anadan olmasının 800 illiyi SSRİ miqyasında geniş qeyd olunurdu...

2004-cü ildə Bakıda Nobellər irsini bərpa etmək və yaşatmaq məqsədilə yeni ictimai təşkilat – Nobellər İrsinin Bakı Fondu yaradılır. İctimai təşkilat 2007-ci ildə Nobellərin Bakıdakı tarixi iqamətgahında bərpa və yenidənqurma işləri aparır. 2008-ci ildə fondun binasının təntənəli açılışı təşkil edilir. Vaxtilə "Villa Petrolea" kimi tanınan həmin binada indi Bakı Nobel Neft Klubu, Beynəlxalq Konfrans Mərkəzi və İsveçdən kənarda Nobellərin ilk muzeyi – Nobel qardaşlarının muzeyi yerləşir.

# ALFRED NOBELİN ÖLÜMÜ VƏ... PROBLEMLƏRİN BAŞLANĞICI

1896-cı il Nobellər ailəsi üçün kədərli hadisələrlə tarixə düşür.

Avqustun 7-də Robert Nobel dünyasını dəyişir, dekabrın 7-də isə İtaliyanın San-Remo şəhərində Alfredin beyninə qan sızır. Onun hələ neçə illər əvvəl ayrı-ayrı məktublarında həyatının sonu ilə bağlı əksini tapan narahatlığı reallığa çevrilir: tənhalıqda dünyasını dəyişir. Həmin vaxt yanında fransız qulluqçudan başqa bir kimsə yox idi. Özünün gözlədiyi kimi, əbədiyyətə yollanarkən son anda doğma, məhrəm bir adamın məhəbbət və sevgi ifadə edən xoş sözlərini, səmimi təsəllisini eşitmək ona qismət olmur. Çünki ailə həyatı qurmamışdı, ömrü boyu, demək olar ki, tənha yaşamışdı. Bu dünyadan köçərkən tənhalığın əzabını çəkirdimi, həyatla vidalaşarkən son sözü nə oldu? Ömrünün son dəqiqələrində yalnız ana dilində deyə bildiklərini, təbii ki, fransız qulluqçu anlamırdı...

Dekabrın 10-da Alfred Nobel vəfat edir.

Bəd xəbər barədə dünyanın müxtəlif şəhərlərindəki qohumlarının ünvanına teleqram göndərilir. Qardaşı Robertin oğlu Yalmar və Lüdviq, əmisi Emmanuil, hətta özünə dost və sirdaş bildiyi Raqnar Sulman San-Remoya gəlirlər.

Qərara alınır ki, Alfred Nobel Stokholmda dəfn edilsin.

San-Remoda vida mərasimi üçün İsveçin Parisdəki nümayəndəliyinin keşişi dəvət edilir.

Keşiş Alfredin cənazəsi üstündə uzun nitq söyləyir:

> "...Ölüm üçün milyonluq sərvət sahibi ilə adi muzdur, dahi ilə cahil arasında heç bir fərq yoxdur. Ölüm hamını bərabərləşdirir... Çünki o biri dünyaya nə var-dövləti, nə şan-şöhrəti, nə də dahiliyi aparmaq mümkün deyil..."





Alfred Nobel də Tanrının hüzuruna hamı kimi yalnız ruhunu götürüb getmişdi. Bu dünyada qalan var-dövlətinin, milyonlarının taleyini isə hələ həyatda olan doğmaları, yaxınları həll edəcəkdilər... Uzun mübahisə və müzakirələr aparmaqla...

Bu barədə bir az sonra.

Alfred Nobelin ölüm xəbəri beş gündən sonra Bakıya da gəlib çatır.

"Kaspi" qəzeti onun haqqında qısa nekroloq dərc edərək xidmətlərindən söhbət açır: Nobelin əsas xidməti nitroqliserinin sənaye, mühəndislik və dağ-mədən işlərində istifadə edilməsinə imkan yaratmasıdır; təbii nitroqliserin bir azca silkələnən kimi partlayır, amma ona müəyyən miqdarda kimyəvi toz qatılandan sonra sənaye məqsədilə istifadə etmək, dağ aşırımlarını partlatmaq mümkün olur. Nobelin 1862-ci ildə kəşf etdiyi bu ixtira nitroqliserindən dinamit formasında istifadəyə imkan verib.

> "...Ümumiyyətlə, o, XIX əsrin ikinci yarısında sənayeni bu qədər vacib olan partlayıcı maddələrlə təmin etmiş ən görkəmli ixtiraçıdır".

Bakı Alfred Nobelin vəfatını bu sözlərlə yad etmişdi.

Onun dostu və köməkçisi olmuş gənc Raqnar Sulman isə sonralar həmin günləri belə xatırlayacaqdı: "Dekabrın 15-də axşam hotel nömrəsində yatmağa hazırlaşarkən Emmanuil və Yalmar Nobellər yanıma gəldilər və Stokholmdan aldıqları teleqram barədə məlumat verdilər. Teleqramda deyilirdi ki, Alfredin vəsiyyətnaməsi üzə çıxıb və o həmin sənəddə məni və stokholmlu vəkil Rudolf Lillekvisti vəsiyyətnamənin icraçıları təyin edib".

Vəsiyyətnamənin detalları hələ açıqlanmasa da, Raqnar Sulmanın həmin gecə gözünə yuxu getmir.

Alfred dünyasını dəyişəndə cəmi 26 yaşı olan R.Sulman o dövrün məşhur İsveç qəzetlərindən birinin baş redaktorunun oğlu idi. Stokholmda Kral Texnologiya İnstitutunu bitirəndən sonra bir müddət Amerikada işləmişdi. Vaxtilə Nobellərin nitroqliserin şirkəti üçün kredit verən bankir Yohan Smitt 1893-cü ildə Alfredə məktub yazaraq özünün gənc qohumu Raqnarı işə götürməsini xahiş edir. Alfred gənc mütəxəssisin xarici dilləri bilmək səviyyəsi ilə maraqlanır, nəhayət, 1893-cü ilin payızında onlar görüşürlər. Alfred Raqnarı özünə köməkçi götürür. Lakin cəmi üç il bir yerdə

işləmələrinə baxmayaraq, aralarında o qədər etibarlı münasibət formalaşır ki, Alfred onu öz vəsiyyətnaməsinin icraçısı təyin edir.

Vəsiyyətnamədə deyilirdi:

> "Mən, aşağıda imza edən Alfred Bernhard Nobel, bununla öldüyüm günə qədər qazandığım varidatla əlaqədar şüurlu şəkildə son qərarımı elan edirəm.
>
> Qohumlarım – qardaşım Robertin oğlanları Yalmar və Lüdviq Nobellərin hər birinə 200 min kron vəsiyyət edirəm.
>
> Qohumum Emmanuil Nobelə 300 min kron, digər qohumum Mina Nobelə 100 min kron vəsiyyət edirəm.
>
> Qardaşım Robertin qızları İngeborq və Tiranın hər birinə 100 min kron vəsiyyət edirəm".

Bundan sonra vaxtilə bu və ya digər formada əməkdaşlıq etdiyi konkret ünvanı göstərilən bir neçə adamın adı çəkilir: Freken Betger, Gerr Lidbek, Freken Anten, Gerr Hammond və başqalarının hər birinin alacağı konkret məbləğlər göstərilir.

Siyahıda Alfred Nobelin keçmiş qulluqçularının, bağbanının və s. adları var idi. Məsələn, Fransada yaşayan keçmiş bağban ildə 300 frank almalı idi.

Vəsiyyətnamənin bu hissəsinə qədər olanları hamı təbii qəbul edir. Amma bundan sonrakı hissə müzakirə və mübahisələrə səbəb olur. Niyə?





Suraxanıda Atəşgah məbədinin parametrlərinin ölçülməsi *(tarixi məlum deyil)*



Bakıda neftin araba ilə daşınması. 1870-ci illər



Emmanuil Nobel Bibiheybət məscidində. 1907-ci il




Məşədi Süleyman bəy Mansurov və Emmanuil Nobel.
1905-1909-cu illər arası



"Nobel qardaşları" şirkətinin fəhlə və qulluqçuları. 1904-cü il



Nobellərin xəstəxanasında vəba şöbəsi. 1892-ci il



Nobellərin fəhlə evlərində mətbəx. 1892-ci il




Balaxanıda neft fontanı. 1880-ci illər




Nobellərin sulfat turşusu zavodu. 1885-ci il



"Nobel qardaşları" şirkətinin Bakıdakı zavodu. 1909-cu il



Nobellərin zavodunda sürtkü yağı üçün çənlər. 1900-cü illər




Balaxanı mədənləri. 1900-cü illər




Nobellərin "Zərdüşt" gəmisi Xəzər dənizində. 1880-ci illər



Nobellərin neftdaşıyan gəmiləri Qara şəhərdə. 1900-cü il

# ALFRED NOBEL: "MƏNİ DİRİ-DİRİ BASDIRMAYIN!"

Alfred Nobel vəsiyyətnamənin sonrakı hissəsində öz dəstxəti ilə yazmışdı:

"...Mənim qalan varidatımla bağlı aşağıdakı kimi hərəkət etmək lazımdır: vəsiyyətimi icra edənlər bütün kapitalımı qiymətli kağızlara çevirərək fond yaratmalıdır. Hər ötən il ərzində bəşəriyyətin tərəqqisinə daha çox töhfə verənlər bu fonddan əldə olunan gəlirlə mükafatlandırılmalıdır. Gəlir beş bərabər hissəyə ayrılmalı və aşağıdakı kimi bölünməlidir: birinci hissə fizika sahəsində daha mühüm kəşf və ya ixtira edənə verilməlidir; ikinci hissə kimya sahəsində daha vacib kəşf və ya təkmilləşdirmə işləri aparana təqdim olunmalıdır; üçüncü – fiziologiya və ya tibb sahəsində daha vacib kəşflərə; dördüncü – idealist istiqamətdə daha əhəmiyyətli ədəbi əsər yazana; beşinci hissə xalqların birliyinə, nizami orduların sayının azaldılmasına və ya sülh təşəbbüslərinin inkişafına sanballı töhfə verənlərə təqdim edilməlidir".

Bu mükafatı kim və necə verməlidir? Qalibləri kim müəyyən etməlidir? Alfred vəsiyyətnaməsində bu sualları da cavabsız qoymur:

"Fizika və kimya sahəsində mükafat İsveç Kral Elmlər Akademiyası tərəfindən verilməlidir.

Fiziologiya və tibb sahəsində mükafatı Stokholm Kral İnstitutu təqdim etməlidir.[1]

[1] Stokholm Kral İnstitutu o dövrdə İsveçin və Avropanın ən böyük tibb universitetlərindən biri idi.

Ədəbiyyat sahəsində mükafatı Stokholmdakı İsveç Ədəbiyyat Akademiyası verməlidir.

Sülh mükafatını Norveç stortinqinin[1] təyin etdiyi beş nəfərdən ibarət komitə təqdim etməlidir".

Alfred Nobelin ən maraqlı şərti isə belə idi:

"Mənim ən vacib tələbim ondan ibarətdir ki, mükafat verilərkən namizədlərin milliyyəti heç bir əhəmiyyət kəsb etməsin və skandinav olub-olmamasına baxmayaraq, bu mükafatları ən layiqli insanlar alsınlar".

Və nəhayət, A.Nobel vəsiyyətnamənin icraçısı kimi iki nəfərin: Raqnar Sulman və Rudolf Lillekvistin adını yazır, hər ikisinin yaşadığı ünvanları göstərir. Qeyd edir ki, "öz vaxtlarının böyük hissəsini bu vəzifələrin yerinə yetirilməsinə həsr edəcəklərini nəzərə alaraq, Raqnar Sulmana 100 min, Rudolf Lillekvistə isə 50 min kron hədiyyə edirəm".

Daha sonra isə əmlakı haqqında ümumi məlumat verir: Parisdə və San-Remoda daşınmaz əmlak, Qlazqo, London, Paris və Berlində yerləşən banklarda, Rusiya Mərkəzi Bankında, Göteborq və Stokholm banklarında, habelə Parisin Malakoff prospektindəki evin seyfində yerləşdirilmiş qiymətli kağızlar; bundan başqa, "qonorar ödənilməli olan patentlər var ki, vəsiyyətnamənin icraçıları bu barədə lazımi informasiyanı mənim kağızlarımın və kitablarımın içində tapa bilərlər".

A.Nobelin son vəsiyyəti isə belə idi:

"Nəhayət, son arzumdur ki, mən vəfat edəndən sonra vena damarım açılsın və təcrübəli həkim ölüm faktını dəqiq təyin etsin; yalnız bundan sonra mənim cəsədim krematoriyaya verilərək yandırılsın".

A.Nobel bu vəsiyyətnaməni ölümündən təxminən bir il əvvəl – 1895-ci il noyabrın 27-də yazmışdı.

[1] Norveç parlamenti





Bəri başdan qeyd edək ki, A.Nobelin "venasını açmaqla təcrübəli həkim tərəfindən ölüm faktını dəqiq təsdiqləmək" barədəki arzusu onun ölümdən və diri-diri dəfn edilməkdən qorxması ilə bağlı olub.

Hələ beş il əvvəl qardaşı oğlu Emmanuilə bir məktubunda bu qorxunu etiraf etmişdi:

"O dünyaya getməzdən əvvəl soruşmaq istəyirəm ki, mən sizin hamınıza növbəti dəfə lazım ola bilərəmmi. Əvəzində bircə xahişim var: ömrüm başa çatanda məni diri-diri basdırmağa qoymayın, yandırılmağımı təmin edin".

Söhbət ölümünə tam əmin olmadan basdırılmaq qorxusundan gedirdi...

Vəsiyyətnamə isə onun ölümündən beş gün sonra üzə çıxır. Təbii ki, onun ölüm faktını təsdiq edən həkimə son arzusunu xatırladan olmur. Amma... onu son dəfə görən italiyalı həkim sonradan mərhumun arzusu barədə eşidərkən dəhşətə gəlir və bildirir ki, "bu prosedur artıq mərhumun balzamlaşdırılması zamanı tətbiq olunub, çünki balzamlaşdırma zamanı onsuz da arteriyaya müəyyən miqdarda zəhərli maddə, məsələn, etil-nitrat vurulur və biz bu məqsədlə mərhumun venasını açmışdıq..."

Bütün bunlardan sonra Raqnar Sulmanın hotel otağında gecə niyə yata bilməməsinin səbəbini anlamaq olar. Bu qədər böyük varidatın qiymətli kağızlara çevrilməsi və hələ heç kimin təsəvvür etmədiyi bir fondun təşkil olunması, sözün həqiqi mənasında, böyük məsuliyyət və ciddi zəhmət tələb edirdi. Hələ Alfredin qohumlarının, İsveç hakimiyyət nümayəndələrinin, hətta kənar adamların da etiraz və qınaqları nəzərə alınmasa...

# VƏSİYYƏTNAMƏYƏ ETİRAZLAR VƏ ÇƏTİN BARIŞIQ

Alfred Nobel son vəsiyyətnaməsinə qədər də bir neçə vəsiyyətnamə yazmışdı. Lakin sonuncu qeydlərlə əvvəlkilərin hüquqi qüvvəsinin itdiyini bəyan etmişdi. Bu sənədləri müqayisə edən qardaşı oğlu Emmanuil Nobel özü oxumuşdu ki, son vəsiyyətnamə ilə ona və ailəsinə ayrılan vəsait xeyli azaldılıb və onun adı vəsiyyətnamənin icraçıları siyahısından çıxarılıb.

Bu baxımdan Emmanuil Nobelin öz əmisinin son arzusundan narazı qalması təbii idi.

Digər tərəfdən, Bakıda fəaliyyət göstərən və "Branobel" kimi tanınan "Nobel qardaşları" şirkətinə Emmanuil Nobel rəhbərlik edirdi. Həmin şirkətin səhmlərinin daha çoxu Alfredə məxsus idi və bu şirkətin taleyinin necə olacağı da onu narahat etməyə bilməzdi.

1897-ci il yanvarın ilk günlərində Alfred Nobelin vəsiyyətnaməsi barədə İsveç qəzetlərində məlumatlar dərc edilir və bunun ardınca ciddi diskussiyalar başlayır. Nobellərə aidiyyəti olmayan adamlar da bu məsələyə münasibət bildirir, Alfredi qeyri-vətənpərvərlikdə qınayanlar çoxalır.

Robert Nobelin oğlanları: Yalmar və Lüdviq vəsiyyətnamənin qeyri-qanuni olduğu barədə iddialar qaldırır.

Bundan başqa, Yalmar və Lüdviqin bacılarının həyat yoldaşı, Emmanuil Nobelin bacısının əri, Emmanuilin qardaşı Karlın qızlarının atalığı və s. yaxın və uzaq qohumlar, hətta bir vaxtlar Alfredin məşuqəsi olmuş xanım belə vəsiyyətnamənin icra olunmasına açıq-aşkar etiraz edir, bu vəsiyyətnamə əleyhinə kampaniyaya da başlayırlar.

A.Nobelin varidatından İsveç dövlətinə və ictimaiyyətinə heç nə çatmaması da ciddi narazılıq doğurur. Ona görə də mükafatın təsis edilməsinin ən qatı əleyhdarlarından biri də İsveç kralı II Oskar olur. O, 1898-ci ilin fevralında hətta E.Nobeli qəbul edərək bildirir ki, "sizin əminiz





pasifistlərin[1], xüsusən qadın pasifistlərin təsiri altına düşüb, siz məhkəmə vasitəsilə vəsiyyətnaməyə etiraz etməlisiniz".

İsveç kralı daha çox sülh mükafatı ilə bağlı fikir ayrılıqları yaranacağından ehtiyat etdiyini bildirir. Əslində isə, kralın fikrincə, A.Nobel çoxsaylı zavodlarını İsveç taxt-tacına, deməli, İsveç xalqına verməli idi. Onun qənaətinə görə, vətənpərvər insan bu addımı atmalı idi...

Amma Alfred belə bir addım atmamışdı.

Onu qeyri-vətənpərvərlikdə qınamağa isə əsaslar var idi. A.Nobel ömrü boyu, necə deyərlər, kosmopolit həyat tərzi yaşamışdı. "Harada işləyirəmsə, ora mənim üçün vətəndir", – demişdi.

E.Nobel İsveç kralı ilə görüşəndə artıq mövqeyi dəyişmişdi. Əmin olmuşdu ki, vəsiyyətnamənin mətnini olduğu kimi qəbul etməkdən başqa çıxış yolu yoxdur. Hətta Nobellər ailəsinin başçısı kimi qohumlarına mövqelərini yumşaltmaq barədə müraciət də ünvanlamışdı. Ona görə də İsveç kralı ilə söhbətin sonunda mövqeyini tam açıqlayaraq bildirmişdi:

> "Zati-aliləri, mən gələcəkdə dünyanın ən böyük alimlərinin mənim bacı və qardaşlarımı qanunla bu alimlərə məxsus vəsaiti mənimsəməkdə günahlandırmaları riskinə yol verə bilmərəm".

Müzakirə və mübahisələr hətta bundan sonra da davam edir. Məsələ mətbuatın aparıcı mövzusuna çevrilir, elmi dairələrdə ciddi müzakirələrə səbəb olur. Müxtəlif şəhərlərdə məhkəmə prosesləri başlayır.

Bütün bunlara baxmayaraq, nəhayət, 1898-ci ilin yayında artıq narazı qohumlar arasında ümumi razılıq əldə olunur. Vəsiyyətnamənin icraçıları mükafatla bağlı bütün sənədləri hazırlayıb İsveç krallığına təqdim edirlər. Sentyabrın 9-da kral tərəflər arasında əldə edilmiş barışığı dövlət və cəmiyyət adından təsdiq edir. Bununla da A.Nobelin vəsiyyətnaməsi ətrafında illərlə davam edən hüquqi mübahisəyə son qoyulur.

1900-cü ilin iyununda İsveç kralının fərmanı ilə Nobel fondunun nizamnaməsi və mükafatın verilməsi üzrə müvafiq komitələrin fəaliyyətini tənzimləyən xüsusi qaydalar təsdiq edilir.

İlk Nobel mükafatı isə 1901-ci ilin dekabrında təqdim olunur.

[1] Burada hər cür müharibə əleyhinə çıxan yalançı sülhpərvərlər nəzərdə tutulur.

# NOBEL MÜKAFATININ NEFT ƏTRİ

Nobel mükafatının verildiyi təxminən 120 il ərzində bu mükafata bir nəfər də olsun Azərbaycan alimi və ya ədibi layiq görülməyib. Doğrudur, "Nobelsiz" ölkələr sırasında Azərbaycan tək deyil. Bu mükafat dünyanın əksər ölkələrindən yan keçib. Lakin Azərbaycan dünyanın çox az ölkələrindən biridir ki, Nobel mükafatı fondunun formalaşmasına özünün kifayət qədər böyük töhfəsini verib. Söhbət Bakıda 40 ilə yaxın fəaliyyət göstərən "Nobel qardaşlarının neft istehsalı şirkəti"nin – "Branobel"in gəlirlərindən fondun təşkilinə yönəldilən vəsaitdən gedir. Heç kimə sirr deyil ki, Nobel fondunun formalaşmasında Bakı neftinin rolu az olmayıb.

Təsadüfi deyil ki, A.Nobelin qalmaqallı vəsiyyətnaməsi üzə çıxandan sonra Nobellər ailəsinin başçısı sayılan E.Nobel daha çox "Branobel"də Alfredə məxsus səhmlərin taleyindən narahat olmağa başlayıb.

O vaxt artıq "Nobel qardaşları" şirkətinin səhmlərinin yarısından çoxunun Alfredə məxsus olduğunu nəzərə almaqla fondun yaradılmasının şirkətin sonu olacağını düşünənlər də var idi. Nobellər ailəsi də bu təhlükədən qorxurdu. Şirkətin Alfredə məxsus səhmləri satılaraq pul şəklində banka qoyulmalı idi. Günün birində məşhur bir şirkətin bütün səhmlərinin yarıdan çoxunun eyni zamanda satışa çıxarılması şirkət üçün, həqiqətən, fəlakət demək olardı.

Təsadüfi deyil ki, vəsiyyətnamənin üzə çıxmasından sonra Alfredə məxsus bütün əmlakın satışa çıxarılaraq qiymətli kağızlara çevriləcəyi barədə şayiələr dərhal şirkətin səhmlərinin qiymətinin düşməsinə səbəb olur. Elə şirkətin rəhbəri E.Nobelin vəsiyyətnamə ilə bağlı ilk etirazları da bu narahatlıqdan qaynaqlanır.

"Mən onu inandırmağa çalışdım ki, hadisələri qabaqlamağa tələsməsin. Və Bakı səhmlərinin məcburi qaydada satılacağı barədə məsələnin qaldırılmayacağına kömək göstərəcəyimi və bu məsələdə qarşılıqlı razılaşmaya gəlməyə çalışacağımı vəd etdim", – R.Sulman sonralar E.Nobellə vəsiyyətnamə barədə apardığı söhbətlərlə bağlı belə deyəcəkdi. Çünki bu mövzuda onların çoxsaylı görüş və müzakirələri olmuşdu.

Robert Nobelin oğlu Lüdviqin vəsiyyətnamə ətrafında etiraz kampaniyası apardığı dövrdə R.Sulman ona da məktub yazaraq Bakı zavodlarının səhmləri ilə bağlı narahatlığa ciddi əsas olmadığını xatırlatmışdı: "...mən bu fikirləri Emmanuilə də dedim və ona qarşılıqlı anlaşma şəraitində razılığa, xüsusən Bakı səhmlərinin satışı ilə bağlı razılığa gəlmək üçün bütün gücümü sərf edəcəyimi vəd etdim".

A.Nobelin dünyanın hər yerinə səpələnmiş varidatı içərisində niyə Bakı zavodlarının səhmləri bu qədər mübahisə doğururdu?

Ömründə bir dəfə də olsun ayağı Bakıya dəyməyən Alfredin Bakıdakı səhmləri və ümumiyyətlə, varidatı nə qədər idi?

Həqiqətən də, Alfred heç vaxt Bakıda olmamışdı. Dəfələrlə onu bu şəhərə dəvət edən Robertə isə qısa və konkret cavab yazmışdı:

"Səninlə və Lüdviqlə görüşmək imkanı mənə cəlbedici görünür, amma susuz, tozlu-torpaqlı və neftə bulanmış səhra məni heç cür özünə cəlb etmir".

Amma bu şəhər onun daha da varlanmasına, daha böyük qazanc əldə etməsinə şərait yaratmışdı.

1879-cu ildə Bakıda səhmdar cəmiyyət yarananda onun təsisçilərindən biri də Alfred olmuşdu. Bundan başqa, şirkətin formalaşmasına, Bakı neftinin işlənməsi üçün ən müasir texniki vasitələrin alınmasına və tətbiq olunmasına o daha çox vəsait qoymuşdu. Vəfat edəndə artıq Bakı şirkətinin səhmlərinin yarıdan çoxu ona məxsus idi.

Nobellər nəslinin Bakı zavodları ilə bağlı narahatlığının əsas səbəbi bu idi.

Ona görə də Bakı ilə bağlı danışıqlar zamanı R.Sulman həmişə Nobellərin ailə üzvlərini sakitləşdirirdi:

"...bu səhmlərin satışı tədrici xarakter daşıyacaq və son dərəcə diqqətlə aparılacaq".

E.Nobelin əmlak bölgüsündə əsas iqtisadi marağı o idi ki, "Nobel qardaşları" şirkətinin Alfredə məxsus səhmləri ailənin əmlakı kimi ona qalsın, bununla da şirkətin rəhbərliyində etibarlı çoxluq təmin edilsin.

R.Sulman həm də xatırladır ki, bu məsələdə Robert Nobelin ailə üzvləri hansısa formada E.Nobeldən narazı idi. Bakıda işi ilk dəfə quran adamın ailəsi kimi...

Bakıda neft biznesinə, həqiqətən də, Robertin başladığını heç kim dana bilməzdi, 1880-ci ildə səhhətində problem yaranana qədər Bakıdakı şirkətdə texniki direktor olmuşdu. Doğrudur, o, səhhəti ilə əlaqədar Bakını tərk edəndən sonra şirkət Lüdviqin rəhbərliyi altında daha da güclənmiş, onun ölümündən sonra isə qardaşı oğlu Emmanuil atasının işini davam etdirmişdi. Ona görə də Bakı şirkətində kimin zəhmətinin daha çox olduğunu söyləmək asan deyildi.

Bununla belə, vəsiyyətnamə üzə çıxanda şirkətin hər biri 250 rubl dəyərində olan 4000 ədəd səhmi Alfredə məxsus idi. Həmçinin şirkətə məxsus hər biri 5000 rubl dəyərində olan 200 ədəd "pay" da onun idi.

Bu rəqəmlər R.Sulmanın xatirələr kitabından götürülüb.

Onun yazdığına görə, "Nobel qardaşları" şirkətinin səhmləri ilə bağlı mərhələli danışıqlardan sonra qərara alınır ki, şirkətin Alfredə məxsus bütün səhmləri L.Nobelin rusiyalı varisi kimi Emmanuilə satılsın.

Səhmlərin Emmanuilin adına keçirilməsi zamanı qiymətlər birja kursundan bir az aşağı qiymətə hesablanır ki, bu da özlüyündə tərəflər arasında müəyyən dərəcədə kompromis xarakteri daşıyırdı.

Onu da unutmaq olmaz ki, Alfredin vəfatına qədər Bakı səhmlərinin qiyməti nominal dəyərinin 200 faizini təşkil edirdi. Amma vəsiyyətnamə barədə mətbuatda məlumat veriləndən dərhal sonra səhmlər dəyərdən düşməyə başlayır, 1897-ci ilin yanvarında səhmlərin qiyməti nominal dəyərinin 150 faizini təşkil etməyə başlayır.

Əgər vəsiyyətnamə üzə çıxandan dərhal sonra Bakı səhmləri satışa çıxarılsaydı, qiymətlər daha da aşağı düşə bilərdi. Lakin istər E.Nobelin, istərsə də vəsiyyətnamənin icraçılarının ağıllı siyasəti nəticəsində belə təlaşa imkan verilmir, bu da şirkətin dağılmasının qarşısını alır.

Bütövlükdə Alfred Nobelin varidatı, təxmini hesablamalara görə, 33 milyon 234 min İsveç kronu təşkil edib. O dövrün pulu ilə təxminən 9 milyon ABŞ dolları və ya 17 milyon rus rublu...





"Nobellər imperiyası" kitabının isveçli müəllifi Brita Osbrink yazır ki, "Nobel qardaşları" şirkəti və Bakı mədənləri Nobel fondunun əsas kapitalının 10 faizdən bir qədər çoxunu təşkil edirdi.

Bakı neftinin tarixini araşdıran Elmira Muradəliyevanın fikrinə görə, "ilkin mənbələrin təhlili deməyə əsas verir ki, ilk günlərdən Nobel mükafatı fondunun yaradılmasında Nobellərin Azərbaycanda neft biznesindən qazandığı kapitalın rolu həlledici olub".

Hətta A.Nobeli bir İsveç vətəndaşı kimi göylərə qaldırmağa meyilli olan maliyyəçi və tarixçi Erik Bergenqren də bu mövzuda yazdığı kitabda etiraf etməli olub ki, "Nobel mükafatının ortaya çıxmasında həlledici amil" məhz bu ailənin neft krallarının A.Nobel tərəfindən vəsiyyət edilən vəsaitin Nobel mükafatı fonduna verilməsi barədə çıxardığı qərardır.

Uzun illər Nobel fondunun direktorlarından biri olmuş N.Stolenin də fikri təxminən belə olub.

Azərbaycanın neft tarixi barədə maraqlı araşdırmaların müəllifi olan Miryusif Mirbabayev də Nobel mükafatı fondunun yaradılmasında Bakı neftinin rolunun kiçildilməsinin əleyhinədir. O da Nobellərin ailə arxivinə buraxılışı olan E.Bergenqrenin tədqiqatlarına istinad edərək bu göstəricinin 17 faizə qədər olduğunu bildirir.

M.Mirbabayev daha sonra konkret rəqəm göstərir: Nobel fondu fəaliyyətə başlayanda "Barnobel" şirkəti bu fonda 5,23 milyon İsveç kronu köçürüb. Bu isə az qala Nobel fondunun əsas kapitalının altıdabir hissəsi deməkdir...

# MÜKAFAT BARƏDƏ ƏFSANƏLƏR VƏ HƏQİQƏTLƏR

Nobel Sülh mükafatı 120 ildir ki, digər mükafatlar kimi İsveçin paytaxtı Stokholmda deyil, Norveçin paytaxtı Osloda təqdim olunur.

Əgər bütün beş mükafat İsveç əsilli Alfred Nobelin məlum və məşhur vəsiyyətnaməsi əsasında təsis edilibsə, niyə Norveç?

Məsələ ondadır ki, hələ Alfred Nobelin sağlığında Norveçlə İsveç eyni ittifaqda – bir dövlət şəklində olub. Norveç İsveç kralının hakimiyyətini qəbul edib, bununla belə, 1814-cü ildə "stortinq" ("böyük məclis") adlandırılan öz parlamentini yaradıb.

A.Nobel hesab edib ki, İsveç və Norveç xalqları nəinki qohum xalqlar, hətta bir xalqdır. O bu birliyi təsdiq etmək məqsədilə arzu edib ki, sülh mükafatı Osloda təqdim olunsun. Vəsiyyətnamədə bu məsələ öz əksini belə tapıb:

> "Sülh mükafatı Norveç stortinqinin təyin etdiyi beş nəfərdən ibarət komitə tərəfindən verilməlidir".

Bununla da o, Norveç xalqına öz ehtiramını bildirib. Həmin dövrdə Norveçin İsveçdən ayrılması istiqamətində təbliğat işləri aparılırdı və bu məsələ Alfredi daim narahat edirdi.

1905-ci ildə, hər halda, bu ayrılma baş verib, Norveç müstəqil dövlət statusu əldə edib. Lakin sülh mükafatının Osloda verilməsi praktikası saxlanılıb. Buna görə də 1905-ci ildən Nobel Sülh mükafatı Norveç kralı, qalan mükafatlar isə İsveç kralı tərəfindən təqdim olunur.

Və bir də... 1969-cu ildən başlayaraq iqtisadiyyat üzrə Nobel mükafatı verilməyə başlayıb. A.Nobelin vəsiyyətnaməsində nəzərdə tutulmayan bu mükafat necə təsis edilib və maliyyə mənbəyi haradan qaynaqlanıb?





R.Sulman Alfred Nobelin vaxtilə dünyanın müxtəlif yerlərinə səpələnmiş varidatının satışından əldə olunan bütün vəsaiti İsveç bankında yerləşdirib. Bu vəsaitin dövriyyəsindən yetərincə gəliri olan bank da 1969-cu ildə məşhur isveçlinin xeyirxahlığına öz ehtiramını bildirməyi qərara alıb və iqtisadiyyat üzrə Nobel mükafatını təsis edib. Mükafatın rəsmi adı belədir: "İqtisadi elmlər sahəsində nailiyyətlərə görə Alfred Nobelin xatirəsinə".

"Tam Nobel mükafatı" sayılmasa da, fizika və kimya sahəsində olduğu kimi, iqtisadiyyat üzrə Nobel mükafatı da Kral Elmlər Akademiyası tərəfindən verilir və İsveç kralı tərəfindən təqdim edilir.

Nobel mükafatları sırasında riyaziyyat elminin adının çəkilməməsinə gəlincə... Məşhur vəsiyyətnamədə riyaziyyat elminin guya Alfredin sevdiyi qadının hansısa riyaziyyatçıya qoşulub qaçmasına etiraz olaraq xatırladılmaması barədə deyilənlər əfsanədən başqa bir şey deyil. Əgər belə olmasaydı, onda, məsələn, tarix elminin bu siyahıya salınmamasını necə əsaslandırmaq olardı?

Alfred Nobel vəsiyyətnamədə o elm sahələrinin adını çəkib ki, özü bu və ya digər dərəcədə həmin sahələrlə məşğul olub. Əsas fəaliyyətində fizika və kimya elmlərindən istifadə edib, ədəbiyyatı sevib, hətta özü də nələrsə yazıb. Uşaqlıqdan səhhətində problemlər olduğu üçün daim həkimlərə müraciət edib, tibb işçilərinə və bioloqlara xüsusi hörməti formalaşıb. Dünyada sülhün qorunması isə onun ən böyük arzularından biri olub. Hələ gəncliyində dostlarından birinə yazdığı məktubda qeyd edib ki, "müharibə dəhşətlərin dəhşəti, ən təhlükəli cinayətdir... İstərdim elə bir dağıdıcı gücə malik maddə və ya maşın ixtira edim ki, ümumiyyətlə, hər cür müharibəni qeyri-mümkün eləsin".

Nobel fondu Alfred Nobelə məxsus müəssisələrin satılmasından əldə olunan kapital hesabına alınmış qiymətli kağızların gəlirlərindən formalaşıb.

Bəs Alfred Nobel ölümündən sonra qalan varidatından niyə məhz mükafat fondu yaratmağı vəsiyyət edib?

Bu barədə də müxtəlif əfsanələr dolaşır.

Hələ 1888-ci il martın 31-də Lüdviq Nobelin Kann şəhərində vəfatından sonra Lüdviqi Alfredlə səhv salan bəzi Avropa jurnalistləri "dinamit kralı"nın vəfatı barədə xəbərlər yayırlar. Bununla da onun bütün fəaliyyətinin insanlıq əleyhinə yönəldiyini xüsusi vurğulayırlar. Və həmin

qəzetləri Alfred Nobel özü də oxuyaraq, həyat və ölüm barədə bir daha düşünməli olur.

Bir versiyaya görə, Alfred Nobel bu məşhur mükafatın təsis edilməsi barədə qərarı məhz həmin qəzet yazılarının təsiri altında qəbul edib.

Başqa bir versiyaya görə, ömrü boyu ailə qurmayan və övladı olmayan Alfred belə bir mükafat təsis etməklə bəşəriyyətin tərəqqisinə öz töhfəsini vermək istəyib.

Amma onu da unutmaq olmaz ki, niyə və hansı məqsədlə təsis edilməsindən asılı olmayaraq, Nobel mükafatı Nobel soyadı ilə təsis olunan ilk və son mükafat deyildi...



# EMMANUİL NOBEL ADINA MÜKAFAT VƏ TƏQAÜDLƏR

1888-ci il martın 31-də Lüdviq Nobel müalicə üçün getdiyi Fransanın Kann şəhərində dünyasını dəyişir.

Bu xəbər Bakıya bir neçə gün sonra çatır.

Şəhər başçısı Dumanın aprelin 4-də keçirilən iclasını kədərli xəbərlə açır:

> "Sizə kədərli xəbər verməyə məcburam. Lüdviq Emmanuiloviç Nobel martın 31-də Kann şəhərində, Fransada vəfat edib. Neft sənayesinin bu böyük xadiminin, bizim şəhərin vətəndaşının vəfatı ilə əlaqədar kədərləndiyimi bildirir və qlasnılara[1] təklif edirəm ki, ayağa qalxmaqla mərhumun xatirəsini yad etsinlər".

İclasda iştirak edən 24 nəfər qlasnı mərhumun xatirəsinə ehtiram əlaməti olaraq ayağa durur. Şəhərin başçısı mərhumun ailəsinə teleqram vuraraq hamının adından başsağlığı verəcəyini bildirəndən sonra "Nobel qardaşları" şirkətinin yanından keçən küçənin əbədi olaraq Nobel prospekti adlandırılmasını təklif edir.

Qlasnılar bu təklifi ayaq üstə dinləyir və yekdil qərar qəbul edirlər.

Lakin Nobellər zavodunun yanından keçən küçə əbədi yox, Azərbaycanda sovet hakimiyyəti qurulana qədər Nobel prospekti adlandırılır. Sovetlər bu küçəni Fəhlə prospektinə çevirirlər. Yalnız Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Nobel prospektinin əbədi adı geri qaytarılır...

Bu, sadəcə, tarixə qısa bir ekskurs idi.

Elə həmin günlər "Kaspi"də elan da dərc edilir:

[1] Qlasnılar – Şəhər Dumasının üzvləri

““Nobel qardaşları” şirkətinin Bakı şöbəsinin müdiri Lüdviq Nobelin xatirəsini yad etmək istəyənlərin hamısı aprelin 7-də saat 12-də şirkətin Qara şəhərdəki kontorunda keçiriləcək matəm mərasiminə dəvət olunur”.

Daha bir il keçəcək və “Kaspi” qəzeti yenə də Lüdviq Nobelin xatirəsinin anılması üçün onu tanıyanları ölümünün birinci ildönümü ilə əlaqədar təşkil edilən matəm mərasiminə dəvət edəcəkdi. Yenə də Nobellər üçün doğma olan Qara şəhərə...

L.Nobelin vəfatından bir neçə ay sonra – 1888-ci ilin iyulunda isə “Nobel qardaşları” şirkəti səhmdarlarının yığıncağına təqdim edilən məruzədə onun neft sənayesi sahəsində xidmətləri xatırladılır və təklif olunur ki, L.Nobelin xatirəsinin əbədiləşdirilməsi üçün əlahəzrət imperatorun razılığı ilə şirkətin vəsaiti hesabına Sankt-Peterburqdakı bir neçə ali məktəbdə onun adına təqaüd təsis edilsin.

Bundan başqa, Rusiya İmperator Texniki Cəmiyyətinə 1500 rubl köçürülsün ki, həmin kapitalın faizlərindən gələn gəlir hesabına üç ildən bir verilən Lüdviq Nobel adına qızıl medal təsis olunsun. Nobel medalının metallurgiya və neft sənayesi sahəsində ən yaxşı əsərlərə görə verilməsi nəzərdə tutulurdu.

Deməli, hələ Alfredin vəfatından əvvəl də Nobellərin mükafat təsis etmək təcrübəsi var idi və artıq Lüdviq Nobel adına medal təsis edilmişdi.

Sankt-Peterburq ali məktəblərinin tələbələri üçün L.Nobel adına təqaüd təsis olunduğu vaxt Bakı məktəbləri də unudulmamışdı.

1888-ci il avqustun 24-də Rusiyanın Maarif Nazirliyi “Nobel qardaşları” şirkətinin İdarə Heyətinə Bakı Real Məktəbində Lüdviq Nobelin adına beş təqaüd təsis olunmasına icazə vermişdi.

Təqaüdün əsasnaməsinə görə, şirkət real məktəbin quberniya xəzinədarlığındakı hesabına 6350 rubl köçürürdü. Həmin toxunulmaz kapitaldan gələn faizlərdən isə 5 tələbəyə təqaüd ödənilirdi. Maraqlıdır ki, bu təqaüddən istifadə etmək hüququ yalnız şirkətdə çalışan valideynlərin uşaqlarına verilirdi. Şirkətdə işləyən fəhlə və qulluqçuların uşaqları real məktəbində bu təqaüdlə təhsil ala bilərdilər.

Bundan sonra təqaüd təsis etmək ənənə halına keçir və artıq 1896-cı ildə Mariya Fyodorovna Nobelin verdiyi 3731 rubl kapitaldan gələn faizlər





hesabına Bakı Real Məktəbində Lüdviqin oğlu Karl Nobelin adına üç təqaüd təsis edilir.

1903-cü ildə isə Bakı Real Məktəbində general-mayor Pyotr fon Bilderlinqin dul qalmış həyat yoldaşı tərəfindən qoyulan 1500 rubl müqabilində generalın adına təqaüd təsis olunur. O həm də xahiş edir ki, mərhum ərinin portreti məktəb direktorunun otağından asılsın. General fon Bilderlinq Nobel qardaşları ilə birlikdə şirkəti təsis edənlərdən biri olmuşdu.

Xeyriyyəçilik edənlərin portretinin məktəbdən asılması isə o dövrün ənənəsi sayılırdı. Yeri gəlmişkən, Bakı Real Məktəbinə uzun illər hamilik etmiş Bakı neft sənayeçisi Musa Nağıyevin portreti də o vaxtlar uzun müddət məktəbin divarından asılıb.

1897/98-ci tədris ilində Bakı Real Məktəbində L.Nobelin təqaüdü ilə 4, K.Nobelin təqaüdü ilə 4 uşaq təhsil alıb. 1899-cu ilin yanvarından sonrakı bir neçə ildə isə L.Nobel adına təqaüdü alanların sayı 6 nəfər olub.

Dövlət Tarix Arxivində saxlanılan 1904-cü ilə aid bir arayışda Bakı Real Məktəbində “Nobel qardaşları” şirkətinin təsis etdiyi təqaüdlər haqqında şirkətə hesabat verilib: məktəbdə Lüdviq Nobelin adını daşıyan təqaüdlə 6, Karl Nobelin təqaüdü ilə 3 və general-mayor fon Bilderlinqin təqaüdü ilə 1 nəfərin təhsil aldığı bildirilib.

Bir maraqlı detalı da xatırlatmaq yerinə düşər. O vaxt təqaüd fondu kimi yaradılan kapitaldan gələn faizlərin artığı təqaüdün sayını çoxaltmağa imkan verirdi. 1904-cü ildə Lüdviq Nobel adına təqaüd üçün qoyulmuş 9500 rubl artaraq 9677 rubl olmuşdu. Bu isə imkan verirdi ki, həmin puldan gələn faizlərlə daha bir təqaüd təsis edilsin. Beləliklə, həmin ilin noyabrından L.Nobel adına təqaüdçülərin sayı 7 nəfərə çatmışdı.

Belə təqaüdlər 1917-ci ilə qədər ardıcıl olaraq verilmişdi. Yəni Alfredin vəsiyyətnaməsinə qədər də Nobellərin mükafat və təqaüd təsis etmək sahəsində kifayət qədər təcrübəsi var idi. Ona görə də 1904-cü ildə Bakıda kiçik Nobel mükafatının təsis edilməsi təəccüblü sayılmamalıdır.

Bu mükafatın özünün maraqlı tarixçəsi var...

# BAKIDA KİÇİK NOBEL MÜKAFATI: KİMLƏRƏ VERİLSİN?

Mükafatın təsis olunması barədə ilk yazışmalar 1904-cü ilə aiddir. Bu mükafat artıq uzun illərdən bəri şirkətə rəhbərlik edən Emmanuil Nobelin adını daşıyacaqdı.

"Rusiya İmperator Texniki Cəmiyyəti Bakı şöbəsinin əsərləri" adlı toplunun 6-cı nömrəsində cəmiyyətin Bakı şöbəsinin 28 iyun 1904-cü il tarixli iclasının protokolu dərc edilib.

K.Xatisovun sədrliyi ilə keçən iclasda məlumat verilib ki, "Mazut" Neft Sənayesi Cəmiyyətinin və bir sıra digər dost firmaların nümayəndələri öz aralarında 25 min rubl dəyərində kapital toplayaraq, bu kapitaldan gələcək faizlə Emmanuil Lüdviq Nobel adına illik mükafat təsis etmək istədiklərini bildiriblər.

Bu mükafatın neftin çıxarılması və emalı üzrə ən yaxşı əsərlərə verilməsi nəzərdə tutulurdu. Həmin məqsədlə toplanan kapital toxunulmaz fond kimi xüsusi təyinatla Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinə köçürülməli idi.

İclasda qərara alınır ki, "Mazut" Neft Sənayesi Cəmiyyətinin təklifi qəbul olunsun.

1904-cü ilin mayında "Nobel qardaşları" şirkətinin yaradılmasının 25 illiyi qeyd edilmişdi. Bu mükafat həmin yubiley münasibətilə təsis olunurdu.

Oktyabr ayında bu ideyanın reallaşdırılması üçün "Mazut" cəmiyyətinin Bakı ofisi fonda 10 min rubl köçürür. Qalan 15 min rublu isə Nobellərə və "Mazut" cəmiyyətinə yaxın olan şirkətlər ödəməli idi. Lakin hansısa səbəblər ucbatından ödəmələr ləngiyir. E.L.Nobel adına mükafatın təsis edilməsi üçün "Kavkaz" cəmiyyəti 3000 rubl köçürəcəyini vəd etsə də, vədinə xilaf çıxır.

1906-cı ilin əvvəllərində E.L.Nobel adına mükafatın verilməsi haqqında əsasnaməni işləyib-hazırlamaq üçün komissiya yaradılır.






"Nobel qardaşları"
şirkətinin loqotipi. 1880-ci illər



17741

Въ Главное Правленіе Товарищества Братьевъ „Нобель".

Въ С. Петербургѣ

Ключника св. гробницы „Биби-Эйбатъ", Имама Бахиша Бунъятова, жителя сел. Шихова, Бакинскаго уѣзда и губерніи

Покорнѣйшая просьба.

По всей вѣроятности по перепискамъ Бакинской конторы извѣстно Главному Правленію Т-ва „Бр. Нобель", что я все время оказалъ услуги и содѣйствіе инженеру г. Карасову, производившему мѣну для Т-ва, да при томъ нынѣ находящійся въ пользованіи Т-ва участокъ нефтеносной земли, находящійся на Биби-Эйбатской дачѣ, перешедшій къ нему отъ Іосифа Ивановича Джакели, по содѣйствію моему былъ отданъ въ аренду последнему на 24 года съ тѣмъ, чтобы онъ платилъ обществу по 1000 руб., а мнѣ по 300 руб. въ годъ, а въ случаѣ возобновленія еще на 24 года аренды онъ обязался по мимо уплаты вышесказанной суммы уплачивать еще по одной коп. съ пуда нефти, добываемой съ того участка, но всю Биби-Эйбатскую дачу во время размежеванія претендовалъ частное лицо, тогда какъ дача эта принадлежала гробницѣ св. „Биби Эйбатъ"; я же для устраненія претензіи частныхъ лицъ израсходовалъ громадную сумму денегъ по мимо своихъ трудовъ.

Т-во „Бр. Нобель" какъ это видно, не оставляетъ ника

Bibiheybət məscidinin imamı Baxış Bünyatovun
"Nobel qardaşları" şirkətinə müraciəti. 1907-ci il



0012

ТОВАРИЩЕСТВО НЕФТЯНОГО ПРОИЗВОДСТВА
БРАТЬЕВЪ НОБЕЛЬ
НЕФТЯНЫЕ ПРОМЫСЛА въ БИБИ-ЭЙБАТЪ
ГЛАВНАЯ КОНТОРА
№ 240

Биби-Эйбатъ, 13-го Мая 1920 г.

Товариществу Нефтяного Производства
Бр. Н о б е л ь,
Чорный Городъ

Милостивые Государи,

Симъ честь имѣемъ сообщить Вамъ нижеслѣдующія свѣдѣнія о состояніи Биби-Эйбатскихъ промысловъ Т-ва, а также о ходѣ работъ по буренію и добычѣ нефти за Апрѣль м-цъ с/г..

I. ОБЩЕЕ СОСТОЯНІЕ.

Въ теченіе отчетнаго мѣсяца въ количествѣ служащихъ и рабочихъ произошло незначительно измѣненіе въ сторону уменьшенія. На I-ое Мая с/г. служащихъ состояло 100 чел. и рабочихъ 598 чел. (вмѣсто 10 и 605 на I-ое Апрѣля).

Изъ работъ общаго характера въ теченіе отчетнаго мѣсяца производились лишь самыя необходимыя, не терпящія отлагательства въ связи съ текущей промысловой работой. Вообще въ отчетномъ мѣсяцѣ число рабочихъ дней было незначительно - изъ за большого количества праздниковъ. Въ концѣ по мѣсяца въ связи съ переворотомъ и перемѣной власти значительное количество рабочихъ было отвлечено отъ своихъ прямыхъ обязанностей для различныхъ общественныхъ работъ, какъ напримѣръ въ рабочую гвардію для охраны промысловъ и проч.. Точно такъ же рабочіе, состоящіе членами промысловыхъ комитетовъ, мало - по-малу перестали исполнять свои прямыя обязанности по работѣ на промыслахъ, занимаясь въ рабочее время общественными дѣлами.

2. БУРЕНІЕ.

Изъ состоявшихъ къ началу мѣсяца въ буреніи 21 скважи-
см. н. об.

"Nobel qardaşları" şirkətinin 1920-ci ilin aprel ayında
fəaliyyətinə dair hesabatı. 1920-ci il



Дѣйствительный статскій совѣтникъ
Гаджи Зейналъ Абдинъ
ТАГІЕВЪ.

№ 184/2

Баку, 2 Іюля 1908 года

Бакинскій отдѣлъ 3 - ІЮЛЬ 1908 Т-ва Бр. Нобель

Д. 1069

Товариществу Нефтяного Производства
БРАТЬЕВЪ НОБЕЛЬ
Здѣсь.

Милостивые Государи,

[illegible] подтвердить наши личные переговоры въ слѣдующемъ: [illegible]
Своихъ 16.500.000 пудовъ нефтяныхъ продуктовъ, которые взять отъ Васъ на перевозку [illegible] и [illegible], [illegible] съ Вами [illegible],
взяли отъ Васъ на перевозку еще два съ половиною [illegible] (2.500.000) пудовъ нефтяныхъ продуктовъ, какое количество [illegible] перевезти въ теченіе Іюля мѣсяца.-
Цѣна фрахта и прочія [illegible] перевозки для обѣихъ сторонъ обязательны [illegible]
договорены въ [illegible] по отношенію къ вышеприведенныхъ 16.1/2 милліонамъ пудовъ.-Настоящее письмо [illegible] въ Руб.27.80 коп. за общій счетъ
Покорнѣйше прошу Васъ настоящую сдѣлку подтвердить и пребываю
съ высокопочтеніемъ

Тысяча девятьсотъ восьмого года Авгу[illegible] [illegible] Бакинское Казначейство

H.Z.Tağıyevin "Nobel qardaşları" şirkətinin neftini daşımağa dair öhdəlik məktubu. 1908-ci il



ПРАВЛЕНІЕ
Кавказскаго Акціонернаго О-ва
ОБРАБОТКИ ВОЛОКН. ВЕЩЕСТВЪ
Г. З. А. Тагіевъ
гор. Баку.

30 Апрѣля 1914 г.

3730

5 МАЙ 1914 Т-ва Бр. Нобель

БУХГАЛТЕРІЯ 6 МАЯ 1914 Т-ва Бр. Нобель

Товариществу Бр. Нобель"
Здѣсь

Милостивые Государи!

Считаясь на основаніи нашихъ съ Вами переговоровъ [illegible] Вы [illegible] отпускать намъ для нуждъ нашихъ [illegible] моторовъ на нашей фабрикѣ [illegible] отъ 0,850 до 0,870 въ [illegible] при [illegible] отъ 6 до 10 вагоновъ [illegible] въ [illegible] съ Вашей [illegible] каждаго мѣсяца [illegible]. Покупку у Васъ [illegible] условіяхъ [illegible] и въ [illegible] Вашу [illegible]

H.Z.Tağıyevin "Nobel qardaşları" şirkətinə məktubu. 1914-cü il



Копія.

На основаніи Высочайшаго повелѣнія 5 Декабря 1881 года утверждаю.
24 Августа 1888 г.
Управляющій Министерствомъ
Народнаго Просвѣщенія (подп.) А. Бачковъ

Положеніе
о стипендіяхъ имени Людвига Эммануиловича Нобеля при Бакинскомъ реальномъ училищѣ

1. На проценты съ капитала въ шесть тысячъ триста пятьдесятъ руб., пожертвованнаго товариществомъ нефтяного производства братьевъ Нобель и заключающагося въ облигаціяхъ восточнаго займа, учреждаются пять стипендій имени Людвига Эммануиловича Нобеля при Бакинскомъ реальномъ училищѣ.

2. Стипендіальный капиталъ хранится въ мѣстномъ Казначействѣ въ числѣ спеціальныхъ средствъ названнаго училища и составляетъ неотъемлемую собственность заведенія, оставаясь навсегда неприкосновеннымъ.

3. Проценты съ означеннаго капитала, за удержаніемъ изъ нихъ въ казну государственнаго

Ст. К. Л. Нобель
183.50
547.90 731.40

Bakı Real Məktəbində L.Nobelin adına
təsis edilən təqaüdün əsasnaməsi. 1888-ci il



И. Н. П.
ИМПЕРАТОРСКАЯ
АКАДЕМІЯ НАУКЪ.
ПОСТОЯННАЯ ЦЕНТРАЛЬНАЯ
СЕЙСМИЧЕСКАЯ КОМИССІЯ.
Академія Наукъ
Физическая Лабораторія

22 Октября 1911 г.
№ 245.

Милостивый Государь
Эммануилъ Людвиговичъ,

Позвольте Васъ извѣстить, что Ваше предложеніе, касающееся изслѣдованія движеній Апшеронскаго полуострова, будетъ обсуждаться Коммиссіей въ ближайшемъ же ея засѣданіи, имѣющемъ быть 28 сего Октября.

Такъ какъ Ваше присутствіе при обсужденіи сего вопроса весьма желательно я позволяю себѣ обратиться къ Вашему Превосходительству съ просьбою почтить своимъ присутствіемъ засѣданіе Коммиссіи, программу котораго при семъ прилагаю.

Примите увѣреніе въ совершенномъ моемъ почтеніи и преданности.

Rusiya İmperator Elmlər Akademiyasının E.Nobeli Abşeron yarımadasında aparılan tədqiqatların müzakirəsinə dəvət etməsi barədə məktub. 1911-ci il



ЗАВОДЪ
Минеральныхъ Освѣтительны
МАСЛЪ
Э. НОБЕЛ
ВЪ БАКУ.

Robert Nobelin Bakıdakı ilk zavodunun blankı. 1875-ci il



Прошение

Robert və Lüdviq Nobellərin adından
Bakı qubernatoruna müraciət. 1878-ci il



Görünür, o dövrün də öz bürokratik əngəlləri olub.

1906-cı ildə mükafat fonduna S.M.Şibayev şirkətindən daha 5000 rubl daxil olur.

Beləliklə, 15 min rubl dəyərində ilkin kapitalla E.L.Nobel adına mükafatın məbləği 1000 rubl müəyyən edilir. Və ilk mükafat 1909-cu il mayın 23-də – "Nobel qardaşları" şirkətinin təsis edildiyi gün ərəfəsində verilir. Amma tam yox…

Münsiflər heyətinin fikrinə görə, iddiaçı təqdim etdiyi əsərində yeni tədqiqat üsulları təklif etməyib. Lakin gələcək tədqiqatlar üçün çoxlu eksperimental material verdiyinə görə mükafatın məbləğinin yarısı – 500 rublla təltif edilib.

İlk laureat Bakı neftinin fraksiyaları haqqında əsərin müəllifi kimyaçı-mühəndis V.Gerr olub.

Cəmiyyətin 1909-cu ilin iyununda keçirilən növbəti iclasında qərara alınır ki, E.L.Nobel adına mükafatın əsasnaməsində nəzərdə tutulan 25 min rublluq əsas kapital toplanmadığı üçün qaliblərə 1000 rubl vermək qeyri-realdır. Ona görə də mükafat fondu 770 rubla endirilir, amma qərara alınır ki, 1910-cu il üçün qalibə ikiqat məbləğdə – 1400 rubl mükafat verilsin.

Lakin mükafat fondunun iki dəfə artırılmasına baxmayaraq, 1910-cu il üçün mükafata cəmi bir iş – neft quyularının təmizlənməsi üçün hazırlanmış qurğunun layihəsi təqdim olunur. Münsiflər heyəti həmin layihəyə baxaraq qərara alır:

> "Təqdim edilən iş E.L.Nobel adına mükafata layiq bilinmir, lakin qurğunun konstruksiyasının əsasını təşkil edən ideya səmərəli olduğuna görə münsiflər heyəti ixtiraçıya mükafat fondundan həvəsləndirmə məqsədilə 300 rubl verməyi mümkün sayır".

Bu ixtiranın müəllifi isə mədən mühəndisi K.İlgisonis idi.

Mükafat fondunun tələbkar münsiflər heyətini 1911-ci il üçün təqdim olunan əsərlər də qane etmir. Bu dəfə də qalibə cəmi 300 rubl vermək qərara alınır. Mükafat Moskva universitetinin professoru A.Nastyukova və onun assistenti K.Malyarova verilir.

Mükafat fondunun 1912-ci ilə aid protokolundan: "Təqdim edilən əsərlərdən heç biri mükafatlandırılmağa layiq deyil".

1913-cü ildə isə mükafata təqdim edilən dörd əsərin elmi məziyyətləri müzakirə olunur. Onlardan biri artıq çap edildiyi üçün mükafat haqqında əsasnaməyə zidd olduğundan müzakirəyə buraxılmır. Qalan üç əsər isə mükafata layiq bilinmir. Beləliklə, 1913-cü il üçün də L.E.Nobel adına mükafat verilmir.

1914-cü ildə bu mükafat dağ-mədən mühəndisi S.İsakova təqdim olunur.

1915-ci ildə isə mükafatı təqdim edən münsiflər heyətinin üç iclası keçirilir.

Münsiflər heyəti ilk iclasına mart ayında toplaşır. Lakin "Parafinin təbiəti və təsnifatı və onun neftdən ayrılması üsulları haqqında" və "Neftin fiziki-kimyəvi geologiyası təcrübəsi" adlı əsərlərə dərhal "yox" deyilir. Çünki bu "əsərlər dövri jurnalların səhifəsi kimi çap şəklində təqdim olunub, hətta ikinci işin hər səhifəsinin yuxarısında müəllifin adı – Rakuzin – göstərilib".

Bu isə müəllifin anonimliyini qorumaq barədə şərtə və E.L.Nobel adına mükafatın verilmə qaydasına ziddir. Ona görə bu iki işə baxılmaması barədə qərar qəbul edilir.

Mayın 23-də keçirilən son iclasda əvvəlcə fikir mübadiləsi aparılır, sonra isə gizli səsvermə keçirilir. "Təqdim olunan əsərə mükafat verilsin, ya yox" sualına hamının cavabı "yox" olur.

Hətta həvəsləndirmə məqsədilə fərdi mükafat verilməsi barədə təklif də keçmir. Deməli, 1915-ci il üçün mükafat verilmir.

Bu faktlar həm də E.L.Nobelin adını daşıyan mükafata təqdim edilən əsərlərə son dərəcə ciddi münasibətdən xəbər verir.

Bakıda Nobel mükafatının verilməsinin hansı səbəblər üzündən dayandırıldığını demək çətindir. Amma neft sənayesi sahəsində elmi araşdırmalara görə belə bir mükafatın indi də təsis edilməsi maraqlı olar, bu sahədə tədqiqatların genişlənməsinə kömək edərdi.



# HACI ZEYNALABDİN TAĞIYEV VƏ NOBELLƏR: İŞGÜZAR ƏMƏKDAŞLIQ VƏ...

Nobel qardaşlarının Bakıda fəaliyyətinin müxtəlif sahələrinə dair kifayət qədər yazılıb. Bəs qardaşlar o dövrün burjuaziyasının yerli nümayəndələri ilə necə əməkdaşlıq edib?

Bakı milyonçuları ilə Nobellər arasında münasibət necə olub?

Arxiv sənədləri arasında "Nobel qardaşları" şirkəti nümayəndələrinin Bakının tanınmış neft sənayeçiləri ilə bəzi işgüzar yazışmaları saxlanılır.

Bu sənədlərdən görünür ki, 2-ci dərəcəli Bakı taciri Murtuza Muxtarov 1900-cü ilin yayında Sabunçuda Nobellər üçün bir quyu qazmağı öhdəsinə götürüb.

Bakı taciri Ağabala Quliyev isə Nobellərin neftini Tsaritsına daşımağı öz boynuna çəkib. Təbii ki, müvafiq müqavilə əsasında və müvafiq ödəniş müqabilində...

1913-cü ildə Sabunçu sakini Nəcəfqulu bəy Aşurbəyov bağ sahəsinin bir hissəsini 12 illiyə Nobellərə icarəyə vermək barədə müqavilə imzalayıb.

Ələsgər Şıxəli oğlu Dadaşovla Nobellər arasında 1915-ci ildə imzalanmış müqavilədə Dadaşova məxsus "Useyn Manafov" gəmisi ilə Nobellərin neftinin Həştərxana daşınacağı qərara alınıb.

Tanınmış bəstəkar Eldar Mansurovun dediyinə görə, Nobellər onun babaları olan Mansurovlarla yaxın münasibətlər saxlayıb.

Əslində, Mansurovlar neft sənayesi ilə məşğul olmayıblar, amma Qara şəhərdə onların çoxlu torpaq sahələri olub. Mansurovlar iri torpaq sahibləri kimi tanınıblar. Ona görə də Nobellər Qara şəhərdə zavodlar tikərkən Mansurovlardan torpaq icarəyə götürüblər. Bu işgüzar münasibətlər sonralar dostluğa çevrilib və Eldar Mansurovun dediyinə görə, Nobellər, Rotşildlər və o dövrün digər tanınmış iş adamları, şəhər rəhbərləri dəfələrlə Mansurovlar ailəsinin qonağı olublar.

Emmanuil Nobellə Məşədi Süleyman bəy Mansurovun bu kitaba daxil edilən birgə fotosu da həmin dostluğu təsdiq edir.

Eldar Mansurovun Səfərovların ailə arxivindən götürdüyü foto təxminən 1905-1909-cu illərdə çəkilib.

Göründüyü kimi, Nobellər Bakı sahibkarları ilə öz işgüzar fəaliyyətlərinin bütün sahələri üzrə əməkdaşlıq ediblər.

Hacı Zeynalabdin Tağıyevlə də həmçinin...

Məsələn, 1908-ci il iyulun 2-də H.Z.Tağıyev "Nobel qardaşları" şirkətinə məktub yazaraq şirkətə məxsus 2 milyon 500 min pud neftin bu ay daşınacağı barədə götürülmüş öhdəliyin vaxtında yerinə yetiriləcəyini bildirib.

1911-ci ilin iyununda "Nobel qardaşları" şirkətindən Tağıyevə ünvanlanmış məktubda isə tanınmış milyonçunun Nobellərin 15 milyon pud neftini daşımaq barədə öhdəliyi xatırladılıb. H.Z.Tağıyev şirkətə cavab məktubunda razılaşdırmanın qüvvədə qaldığını təsdiq edib.

H.Z.Tağıyevlə Nobellər arasında sonrakı illərdə də belə yazışma-razılaşmalar var. Bu faktlar qardaşlara məxsus şirkətlə H.Z.Tağıyev arasında daim işgüzar əlaqələrin, qarşılıqlı hörmət və ehtiramın olduğunu göstərir.

Tağıyevlə şirkət arasında yazışmalar, əsasən, belə bir cümlə ilə başlayır:

> "Görüşümüz zamanı şifahi razılığa gəldiyimiz kimi..."

Yaxud:

> "Sizinlə telefon danışığımız zamanı razılaşdığımız kimi..."

Görünür, bu da XX əsrin əvvəllərinin biznes etiketinin bir elementidir. Yəni əvvəlcə görüşüb, yaxud telefonla danışıb müəyyən razılığa gəlir, sonra bu razılaşmanı yazılı sənədlə – məktubla təsdiq edirlər.



# ...QARŞIDURMA. TAĞIYEV NOBELLƏRƏ QARŞI?

Uzun illər "Nobel qardaşları" şirkətinin nümayəndəsi kimi Bakıda yaşamış İsveç əsilli mühəndis Karl Vasilyeviç Hagelin sonradan nəşr etdirdiyi xatirələr kitabında özünün, şirkətin və Nobellərin Bakı neft sənayeçiləri ilə münasibətlərinə də geniş yer ayırır.

O, H.Z.Tağıyevin fəaliyyəti, necə varlanması, Bakıda tikdirdiyi bina və zavodlar haqda da ətraflı söhbət açır. Məşhur Bakı milyonçusunun xarakterini isə belə təsvir edir:

> "Tağıyev Bakıda böyük qüvvə idi. Dumanın əksəriyyətini təşkil edən müsəlmanlar ona sözsüz qulaq asırdılar. Şəhər başçısı İretskini bu vəzifəyə, demək olar ki, o təyin etmişdi. Tağıyev "Kaspi" qəzetinin əsasını qoymuş[1], teatr tikdirmişdi. O daha böyük bir iş görmüşdü: müsəlman qız məktəbi yaratmışdı. Tez-tez "mən özüm təhsilsiz işləməyin nə qədər çətin olduğunu bilirəm" deyərək gənc müsəlman oğlanlara orta və ali təhsil almaqda kömək edirdi. O nə oxumağı, nə yazmağı bilirdi, sənədlərə qol çəkməyi də ona uzun əziyyətdən sonra bizim Q.Karasayev öyrətmişdi".

K.Hagelin 1917-ci ilin mayında Bakını tərk edəndə sonuncu dəfə H.Z.Tağıyevin evində qonaq olmuşdu. Əslində, o, Petroqradda baş verən fevral inqilabının uzanacağını və Nobellərin Rusiyanı tamam tərk edəcəyini ağlına gətirə bilməzdi. Sadəcə, K.Hagelin növbəti dəfə Bakıya gəlir, burada öz həmkarları olan neft sənayeçiləri ilə görüşür, sonra Bakını tərk edir. Və bundan sonra bu şəhərə qayıda bilmir. Bakıya qayıtmağı çox istəsə belə...

Nobellərin nümayəndəsi neft sənayeçiləri ilə son görüşündən söhbət açarkən bu görüşün H.Z.Tağıyevin evində təşkil olunduğunu xüsusi qeyd edir:

[1] Əslində, H.Z.Tağıyev "Kaspi" qəzetinin əsasını qoymamışdı, sadəcə, 1895-ci ildə eyniadlı mətbəəni və qəzeti pulla almışdı.

"Hacı Zeynalabdin Tağıyev mənim üçün nahar məclisi qurmuşdu. Belə məclislərdə həmişə olduğu kimi tamada Stepan Sergeyeviç Taqianosov idi".

K.Hagelinin "Mənim əmək yolum" adlı xatirələr kitabından götürülən bu kiçik parça da Tağıyevin Nobellərlə, onların əməkdaşları ilə münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir.

1909-cu ildə Emmanuil Nobelin anadan olmasının 50 illiyi ilə əlaqədar Peterburqda keçirilən yubiley günlərində Nobellər ailəsinin aldığı təbrik teleqramları arasında bir neçə Bakı milyonçusunun, o cümlədən H.Z.Tağıyevin teleqramı da var idi...

Amma bundan xeyli əvvəl bu iki iş adamının arasında ciddi problem, hətta qarşıdurma da olmuşdu. Onlar "kerosin müharibəsi"nin iştirakçısına çevrilmişdilər...

1880-ci illərin ikinci yarısında kerosin satışı sahəsində birgə siyasət işləyib-hazırlamaq üçün "Kerosin zavodçuları ittifaqı" deyilən birlik yaratmaq qərara alınmışdı. O dövrdə neft sənayesi böhran yaşadığı üçün belə birliklərə ehtiyac yaranmışdı ki, Bakı kerosininin xarici bazarlara çıxışını təmin etmək mümkün olsun. Hətta 1886-cı ilin yanvarında H.Z.Tağıyev Rusiya İmperator Texniki Cəmiyyətinin iclasında "Neft sənayesini böhrandan necə çıxarmalı" adlı məruzə ilə də çıxış etmişdi.

"Kerosin zavodçuları" istehsal etdikləri məhsulu yeni yaradılacaq şirkətə təhvil verməli idi, xam neft hamıdan eyni qiymətə alınmalı, eyni qiymətə daşınmalı idi. Tağıyev hesab edirdi ki, bu yolla böhrandan çıxmaq olar.

Məqsəd daha aşağı qiymətlərlə Avropa bazarlarına çıxmağı təmin etmək və Amerika kerosinini sıxışdırmaq idi. Həmin dövrdə Tağıyevin neft firması Nobellərlə əməkdaşlıq şəraitində işləyirdi.

1893-cü ilin sonunda hökumətin köməyi ilə ən iri inhisar birliyi – "Bakı kerosin zavodçuları birliyi" yaradılır. Bundan bir il sonra birlik 80 firmanın iştirak etdiyi "Bakı kerosin zavodçuları ittifaqı"na çevrilir.

Lakin tezliklə bu ittifaqda maraqlar toqquşur və iki qruplaşma yaranır. Nobellər bir qrupda, Tağıyev əks qrupda yer alır...

Düzdür, bu qarşıdurma uzun sürmür, həmin birlik pozulur və H.Z.Tağıyevin ittifaqa münasibəti də dəyişir. Birliyin ləğvi ilə əlaqədar təşkil edilmiş təntənəli naharda Hacı Nobellərin Bakıdakı nümayəndəsi K.Hagelinlə bir masa arxasında əyləşir və... heç nə olmamış kimi həmişəki qaydada mehriban müzakirə aparır.



# KONSTANTİN ZUBALOVUN NEFTİNİN QƏPİK-QURUŞA ALINMASI BARƏDƏ

XIX əsrin sonlarına yaxın artıq Nobellər Bakıda etibarlı tərəfdaş və ciddi şirkət kimi tanınır. Ona görə də çətinliyə düşən Bakı milyonçuları kömək üçün çəkinmədən Nobellərə müraciət edirlər. Xüsusən gözlənilməz fontan nəticəsində nefti əlində qalan iş adamları Nobellərin yardımından istifadə edir. Şirkət isə iş adamlarını çətin vəziyyətdən çıxarır, belə alqı-satqıdan, təbii ki, böyük qazanc da götürürdü. Onlar həm kiməsə əl tutur, necə deyərlər, "yaxşı kişi" olur, həm də qazanırdılar.

Bakının tanınmış neft sənayeçisi Konstantin Zubalovla bağlı tarixçə bu cəhətdən maraqlıdır.

... K.Zubalovun Bibiheybətdəki mədəni 1892-ci ildə – Bakıda vəba xəstəliyi yayılan vaxt fontan vurur. Lakin vəba xəstəliyinin yayılması ilə əlaqədar neftin qiyməti aşağı düşür. K.Zubalovun özünün isə neft anbarı yox idi.

Nə etməli?

O, Nobellərin Bakıdakı nümayəndəsi K.Hagelinə zəng vurur:

– Karl Vasilyeviç, mənim neftimi alın, başqa yolum yoxdur, nefti dənizə axıtmağa məcburam...

K.Hagelin dərhal cavab verə bilmir. Hələ vəba xəstəliyi yayılana qədər neftin pudunun qiyməti 2 qəpiyə qədər düşmüşdü. İndi neçəyə almaq olar? Heç kim bilmir. Çünki birja işləmir. Ona görə də K.Hagelin Zubalova qiymət deməkdə çətinlik çəkir və bir qədər düşündükdən sonra deyir:

– Yaxşı... Biz alarıq, amma vəziyyətin necə olduğunu özünüz bilirsiniz, qiyməti özünüz deyin...

Zubalov:

– Qəpiyin dörddə üçü...

– Yaxşı, – deyə K.Hagelin razılaşır.

Bu razılaşmadan sonra "Nobel qardaşları" şirkəti cəmi 30 min rubl ödəməklə Zubalovdan 4 milyon pud neft alır.

K.Hagelinin sonralar xatırlayacağı bu alış-verişdən sonra "Nobel qardaşları" şirkəti Bakıda neft və neft məhsulları üçün iri anbarlar tikmək qərarına gəlir. Şirkətdə anlayırlar ki, qəfil fontanlar, ictimai-siyasi vəziyyətin gərginləşməsi və s. neftin qiymətinin aşağı düşməsinə səbəb olur. Belə vaxtlarda neft alıb anbarlara yığmaq çox sərfəli ola bilər!

Böyük ticarətin uğurunun adi və kiçik sirlərindən biri bu idi...

Və Nobellər bu sirri hamıdan yaxşı bilirdilər.

Onlar Bakıda ilk iri neft anbarını həmin 1893-cü ildə tikirlər. Bu anbarın tutumu 5 milyon pud idi.

"Amma düzgün ticarət siyasəti yeritmək və neft bazarına nəzarət etmək üçün bizə daha böyük anbarlar lazım idi". Bu da K.Hagelinin fikridir...

Çünki həmin vaxt yeni dövlət torpaqlarının hərraca çıxarılacağı barədə söhbətlər gəzirdi. Bundan sonra isə neft hasilatının sürətlə artacağını hiss etmək üçün Nobel və ya Hagelin olmağa ehtiyac yox idi...

Beləcə, Nobellər neftin ucuzlaşdığı günlərdə anbarları doldura bilirlər. Bu isə onlara qiyməti diktə etmək imkanı verir.

K.Hagelin yazırdı:

> "Bakıda xeyli anbarımız, əlimizdə kifayət qədər pul olduğuna görə ucuz neft məhsullarını yığıb saxlamaq və qiymətləri istədiyimiz kimi tənzimləmək imkanımız var idi".

Sadə adamlar böyük ticarətin bu incəliyindən xəbərsiz idi. Və onlar Nobellərin ticarət siyasətindən narazı deyildilər. Əllərində qalan nefti heç kimə sata bilməsələr də, həmişə alıcı var idi – Nobellər. Onlar alırdılar, hətta bəzən lap su qiymətinə...



# HACI ŞIXƏLİ DADAŞOV NOBELLƏRƏ... BORC VERİR

Nobellər şirkətinin Bakıda təşkil etdiyi özünəməxsus ticarət siyasəti bütün şirkətin xüsusi nüfuz qazanmasına səbəb olmuşdu. Bakılılar hesab edirdi ki, "Nobellərlə işləmək olar", "Nobellər aldatmaz", "bu şirkət alınan malın real qiymətini ödəyir" və s. və i.a.

...1894-cü ildə Bakıda yeni dövlət torpaqları hərraca çıxarılır. Nobellərin Bakı kontoru bu fürsəti əldən vermək istəmir. Qərara alınır ki, bu hərracda daha çox torpaq sahəsi alsınlar. Peterburqdan da bu alqı-satqıya etiraz yoxdur. Hərrac vaxtı çatır, lakin Bakı kontoru Peterburqdan hələ vəsait ala bilmir.

K.Hagelin İdarə Heyətinə teleqram vurur. Cavab verirlər ki, artıq pul köçürülüb.

Banka zəng vurur. Cavab verirlər ki, pulun gəlməsi barədə təsdiq teleqramı yoxdur...

Artıq sabah hərracdır. Nobellərin Bakı kontoru isə Peterburqdan gəlməli olan 200 min rublu ala bilmir. Nə etməli?

Bu vaxt Nobellərin torpaq alma üzrə agenti Q.Karasayevin ağlına ideya gəlir:

– Karl Vasilyeviç, mən Şıxəli Dadaşovun yanına getmək istəyirəm. Bəlkə, o, bir neçə günlüyə borc verdi...

O dövrün kifayət qədər tanınmış gəmi sahibkarlarından biri olan Şıxəli Dadaşovun da Nobellər şirkəti ilə işgüzar münasibətləri var idi. Ona görə də K.Hagelin Q.Karasayevin təklifinə diqqətlə qulaq asır və:

– Gedin, – deyir.

> "Şıxəli Dadaşov Bakı müsəlmanları arasında xüsusi tip idi. Onun böyük var-dövlətinin mənbəyi dürüstlük idi. Məkkəyə ziyarətə gedən müsəlmanlar pullarını ona verib gedirdilər.

Deyirdilər ki, əgər qayıtmasam, – belə hallar da olurdu, – filankəslərə bu qədər verərsən, özünə bu qədər götürərsən. Sağ-salamat qayıdanlar isə pulu saxladığına görə ona cüzi faiz ödəməklə pullarını geri götürürdülər".

Ş.Dadaşovu xarakterizə edən bu fikirlər K.Hagelinə məxsusdur.

"Dadaşovun qazancı aldığı həmin faizlər deyildi. Onun əlində həmişə böyük pullar olurdu və bu pulları sələmə verirdi. Sadəcə, dürüst olmaq ona sərfəli idi. Onunla yazılı müqaviləyə ehtiyac yox idi. Dadaşovun qənaətinə görə, müqavilə etibar etməməyin göstəricisidir. Onun üçün verdiyi sözlə qazanılan etibar müqəddəs idi".

Bir Bakı milyonçusunun xarakterini açan bu fikirlər də Nobel şirkətinin Bakı kontoruna rəhbərlik edən K.Hagelinə aiddir.

...Q.Karasayev Ş.Dadaşovla görüşdən saat yarım sonra, özü də Şıxəli Dadaşovun oğlu Ələkbərlə qayıdır. Özü də çamadan dolu pulla...

"Biz çamadanı açıb pulları saydıq. Mən iltizam yazmaq istəyəndə Ələkbər dilləndi:

– Atam dedi ki, iltizam yazmağa ehtiyac yoxdur. Biz sizə inanırıq. Atam bir də onu dedi ki, pulu qaytaranda çeklə yox, nağd ödəyəsiniz..."

Bütün bunlardan məhəbbətlə söhbət açan K.Hagelin qeyd edir ki, Ş.Dadaşov bizə həm də ona görə kömək elədi ki, bizim alacağımız torpaq sahələri onun əbədi düşmənlərinə – ermənilərə qismət olmasın!

Bu da əcnəbi iş adamının maraqlı və xarakterik müşahidəsidir...

Bütün bu yaxşılıqlara görə Nobellər şirkəti də bakılı milyonçuya borclu qalmır:

"Sonradan biz böyük bir şxununu[1] təmənnasız təmir etməklə Şıxəli Dadaşovun yaxşılığının əvəzini çıxdıq".

K.Hagelin belə yazır. Və o, xatirələrində Şəmsi Əsədullayevdən də bəhs edir...

[1] İngiliscə "schonner" sözündəndir, iki və daha artıq dor ağacı olan yelkənli gəmi deməkdir.



# ŞƏMSİ ƏSƏDULLAYEVİN "NEFT GÖLÜ"

1895-ci ilin əvvəllərində neft sənayeçisi Şəmsi Əsədullayevin Ramana kəndindəki mədənində neft fontan vurur. Gözəyarı müəyyən olunur ki, buruqdan sutkada bir milyon pud neft çıxır.

Bu hadisə o qədər söz-söhbətə səbəb olur ki, hətta "Kaspi" qəzeti 1895-ci ilin yanvar nömrələrinin birində fontan haqqında məlumat verir:

"Artıq bir həftədən çoxdur ki, neft sənayeçisi Şəmsi Əsədullayevin Ramanadakı torpağında neft fontan vurur..."

Bakıda hamı anlayır ki, Ş.Əsədullayev bu qədər nefti, necə deyərlər, yığıb-yığışdıra bilməyəcək. "Nobel qardaşları" şirkətinin Bakı kontorunda da bu həqiqəti anlayırlar. Və gözləyirlər...

Gözləyirlər ki, Ş.Əsədullayev gec-tez kömək üçün, daha doğrusu, nefti satmaq üçün Nobellərə müraciət edəcək.

"Mən Əsədullayevin zəngini gözləyirdim, – bunu sonralar K.Hagelin xatırlayacaqdı. – Bir gün gözlədim, iki gün gözlədim, zəng vurmur. Görünür, nəyisə hesablayır, nəyəsə ümid edir..."

Artıq üçüncü gün – Ramana gölü neftlə dolandan sonra Ş.Əsədullayevin faytonu Nobellərin Bakı kontorunun qabağında dayanır.

Ş.Əsədullayev heç nə olmamış kimi kontordan çıxıb şəhərə getmək istəyən K.Hagelinin qabağını kəsir: "Mən sənin yanına gəlmişəm, – deyir, – sənə neft satmaq istəyirəm".

K.Hagelin onu öz faytonuna dəvət edir və birlikdə şəhərə yola düşürlər. Alqı-satqı məsələsini də elə faytonda həll edirlər.

"İlk 3 milyon pud nefti xırda güzəştlə birja qiymətinə almağa razılaşdıq. Bundan sonrakı hər 3 milyon pud aşağı enən qiymətlərlə hesablanacaqdı".

Bu, K.Hagelinin şərtləri idi.

Ş.Əsədullayev də öz şərtini irəli sürür, cəmi bir şərt: üç gündən sonra şirkət sutkada ən azı 500 min pud neftin yığılmasını təşkil etməlidir.

K.Hagelin: "Bir şərtlə razıyam ki, siz neftinizi bizdən başqa heç kimə satmayasınız!"

Ş.Əsədullayev: "Razıyam".

Şərtlər yazıya köçürülmür. Bir-birinin əllərini sıxıb sağollaşırlar. Müqavilə qüvvəyə minir... Özü də faytonda.

Bu da ötən dövrlərin neft kontraktı...

Üç gündən sonra Ramana gölündən neftin daşınmasına başlanılır.

Bu anlaşmadan xəbər tutan "Kaspi" yazırdı:

> "...Şəmsi Əsədullayev "Nobel qardaşları" şirkətinə pudu 4 qəpiyə 15 milyon pud neft satıb... Fontan hələ də davam edir. O qədər neft çıxır ki, anbarlar dolub, neft artıq Ramana gölünə axır..."

Növbəti gün isə qəzetdə daha bir xəbər verilir:

> "Bakı taciri Ş.Əsədullayevin məşhur fontanı 21-cü gündür ki, neft püskürür. Bütün neft Ramana gölünə axır və oradan "Nobel qardaşları" şirkəti tərəfindən hər gün 400 min pud neft yığılır".

İş elə təşkil edilir ki, sonrakı günlərdə, artıq danışıldığı kimi, sutkada 500 min pud yox, 1 milyon puda qədər neft daşınır. Həm də ona görə ki neft açıq havada qaldıqca buxarlanırdı, digər tərəfdən hər an yanğın baş verə bilərdi. Ona görə də hər iki tərəf tələsir...

"Biz bu fontandan 35 milyon puddan çox neft qazandıq. Şəmsi milyonçu oldu, şirkətimiz isə bu alverdən həmin il gələn gəlir qədər qazanc götürdü".

Bu da K.Hagelinin etirafıdır...

Və bütün bunlarla yanaşı, Nobelin Bakı nümayəndəsi daha bir maraqlı detalı xatırlatmağı lazım bilir:





"Şəmsi neftin qəbuluna dair bizim ona hər gün göndərdiyimiz rəqəmləri heç vaxt yoxlamazdı. Mənim nəzarətçi göndərmək barədə xatırlatmama həmişə eyni cavabı verərdi: "Biz sənə inanırıq"".

Bu cür faktlar Nobellərə Bakıda etibar olunduğunu xatırlatmaqla yanaşı, Bakı milyonçularının özlərinin də etibarlı tərəfdaş olmasından xəbər verir...

Hər halda, 100 il əvvəl belə idi...

Bakıda Nobellərlə alış-verişi olan sənayeçilərdən birinə sual verirlər ki, axı onlar baha satır, niyə onlardan alırsan.

Həmin alıcı deyir: "Çünki Nobellərdə bir pud həmişə 40 funtdur..."

Bir pud 1899-cu ildən sonra 16 kiloqramdan bir az artıq olan çəki vahidi idi. Ondan əvvəl pud funtla ölçülürdü və bir pud 40 funt idi...

# NEFT MİLYONÇUSU MÖVSÜMOVUN FACİƏVİ TALEYİ

Bakı sənayeçilərinin Nobellərlə işgüzar əlaqələrinin daha bir bariz nümunəsindən isə neft sənayesi tarixinə dair tədqiqatlar aparan Telman Aydəmirov öz kitabında söhbət açıb.

Sabunçunun neft milyonçularından olan Əbdülhüseyn Mövsümov ona məxsus neftli torpaq sahələrinin işlənməsini Nobellər şirkətinə həvalə edir. Milyonçu şirkətlə onu qane edən şərtlər əsasında lazımi müqavilələr imzalayır.

Ə.Mövsümov dindar adam olub, İslam qaydalarını və Quranı mükəmməl bilib. Bununla belə, neftli torpaq sahələrinin icarəyə verilməsi sahəsində də kifayət qədər təcrübəsi olub. Ona görə də icarəyə verdiyi quyulara görə Nobellərdən gəlirinin bir hissəsini uzun illər qızıl pulla alıb. Bu pulun əksər hissəsini isə Nobellərin bankında saxlamaqla oradan da gəlir götürüb.

Deyilənə görə, Ə.Mövsümov bu pulların hesabına Sabunçuda 12 ev tikdirib. İrandan dəvət edilən ustalara cəmi bir şamla qızdırılan unikal hamam inşa etdirib.

Ə.Mövsümovun torpaq sahələrində onun özünün və Nobellərin vəsaiti ilə neftçi fəhlələr üçün yataqxana da tikilib.

Lakin Azərbaycanda bolşevik hakimiyyətinin qurulması ilə bütün milyonçular kimi, Mövsümov da çıxılmaz vəziyyətə düşür. Və ailəsinə kiçik bir ev saxlamaqla bütün varidatının bolşeviklərə verilməsi barədə öz əli ilə ərizə yazır. Amma acgöz bolşeviklər bununla da kifayətlənmir. Tezliklə onun yaşadığı evi talan edir, olan-qalan qiymətli əşyalarını da mənimsəyirlər. Milyonçu infarkt keçirir...



# NOBELLƏR VƏ BAKI QOÇULARI

Bizim neftxudaların sırf Bakıya məxsus bir ənənəsindən – qoçularla əməkdaşlıq etməsi, daha doğrusu, öz varidatlarını qoçular vasitəsilə qoruması ənənəsindən Nobellər də yararlanıbmı?

Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin "Stalinlə ixtilal xatirələri" kitabında bu barədə qısaca söhbət açılıb.

XX əsrin əvvəllərinin Bakısındakı vəziyyətdən danışan müəllif yazır:

> "Polisin acizliyini görən bəzi firmalar təhlükəsizliyini verdikləri dolğunca maaş müqabilində Bakının "qoçu" deyə məşhur olan qoçaqlarına əmanət etmişdilər. O cümlədən məşhur petrol şirkəti sahibi Nobel bu məqsədlə H.M.-yev deyilən birisi ilə bağlaşmışdı. Bu zat 1927-1928-ci illərdə emiqrant ikən İstanbulda bir çoxlarına Bakıya aid xatirələri arasında şayani-diqqət bir hekayə danışmışdı".

M.Ə.Rəsulzadə daha sonra yazır: "Bolşevik partiyasının təhdid qolundan adıkeçən firmanın neft alan şöbəsinə bir məktub gəlir. Məktub 50 min rublənin müəyyən gün və saatda gələcək yoldaşlara təslim edilmək üzrə hazırlanmasını tələb edir. Firmanın müdiri H.M.-i çağırır və ondan təyin olunan saatda terrorçularla qarşılaşmasını tələb edir. H.M. bir neçə qoçusu ilə birlikdə gözləyir. Təyin olunan saatda iki yoldaşı ilə Koba peyda olur..."

Koba XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən İosif Stalinin inqilabçı ləqəbi idi. O, "inqilab naminə" bir neçə il Bakıda quldurluqla da məşğul olmuş, ayrı-ayrı imkanlı Bakı sənayeçilərindən təhdid və hədə-qorxu yolu ilə pul qoparıb, bolşevik partiyasının xəzinəsinə ötürmüşdü.

Nobellər şirkətinin də belə bir təhdidə məruz qalması barədə M.Ə.Rəsulzadənin yazdıqlarının nə dərəcədə həqiqət olduğu dəqiq məlum deyil. Çünki müəllif özü də etiraf edir ki, bunu eşitdikləri əsasında qələmə alıb. Amma müxtəlif dövrlərdə H.Z.Tağıyev, Musa Nağıyev kimi neftxudaların belə təhdidlərə məruz qalması, hətta M.Nağıyevin 1908-ci ilin dekabrında girov götürülüb iki gün saxlanması faktdır.

Maraqlıdır ki, Musa Nağıyevin quldurlar tərəfindən necə və hansı şəraitdə oğurlanması barədə "Nobel qardaşları" şirkətinin Bakı kontorundan Peterburqa – İdarə Heyətinə göndərilən geniş hesabat məktubu indi də Dövlət Tarix Arxivində saxlanılır. Ümumiyyətlə, Bakı kontoru o vaxt şəhərdə baş verən əksər hadisələr barədə baş ofisə daim məlumat verib. M.Nağıyevin oğurlanması isə o dövrdə Bakıda geniş əks-səda doğurmuşdu...

Hətta milyonçunun oğurlandığı gün belə hadisələrə son qoymaq məqsədilə hökumət nümayəndələri qarşısında məsələ qaldırmaq üçün Bakının imkanlı adamları H.Z.Tağıyevin evinə toplaşmışdılar. Və həmin toplantıda Nobellərin nümayəndəsi də iştirak etmişdi...

Bütün bunlar öz yerində. Amma, sən demə, Bakı qoçularının xidmətindən Nobellər də yararlanıbmış. Bu barədə də K.Hagelin söhbət açır.

> "Hamı kimi, biz də Qafqazda yerli adətlərlə barışmalı olurduq. O cümlədən oğrulara haqq verməli olurduq".

Maraqlıdır, yerli oğrulara Nobellər niyə pul verməli idi?

Onda nəhəng mədən sahələrini hasara almaq mümkün deyildi. Ayrı-ayrı neft sənayeçilərinin torpaqları arasında sərhəd rolunu çox vaxt adi xəndək, bəzən primitiv üsulla çəkilmiş məftil oynayırdı. Gecə-gündüz iş gedən mədənləri fəhlələr mühafizə edirdi, amma artıq iş getməyən sahələr ya bir-iki mühafizəçinin öhdəsində qalır, ya da tamam başlı-başına buraxılırdı. Ona görə də Nobellərin mədənlərindən də qiymətli əşyalar, avadanlıq və alətlər oğurlanırdı. Çünki təyin edilən mühafizəçilər də oğurluğun qarşısını ala bilmirdilər. Ya mühafizəçilər də onlarla əlbir idilər, ya da, sadəcə, onlardan qorxurdular.

K.Hagelinin xatirəsinə görə, "belə bir vaxtda Nobellərin köməyinə Sabunçu bəyi Mehdiqulu bəy Aşurbəyov" gəlib. Mehdiqulu bəy müəyyən pul müqabilində şirkətin buruqlarının mühafizəsini öz öhdəsinə götürüb.

Yəqin ki, Mehdiqulu bəy, sadəcə, Sabunçu bəyi yox, Sabunçu qoçusu olub.





Burada bir haşiyə çıxmağa ehtiyac var. Ola bilsin, K.Hagelin kömək təklif edən bəyin adını səhv salıb. Çünki Aşurbəyovlar Bakıda böyük bir nəsil idi. Onların nümayəndələrinin bir çoxu Məkkəni ziyarət edib, xeyriyyəçiliklə məşğul olub. Məşhur tarixçi-alim Sara Aşurbəyli də həmin nəsildəndir.

Bakıda qoçu Aşurbəyovlar da var idi. Amma onların arasında Mehdiqulu bəy adlı qoçu olmayıb. Nəcəfqulu bəy və Teymur bəy Aşurbəyov qardaşları Bakının ən məşhur qoçularından sayılıb. Böyük ehtimalla Bakıda Nobellər şirkətinə qəyyumluq edən şəxs də bu qardaşlardan biri olub.

Hər halda, adın səhv və ya düz olmasına baxmayaraq, bu xatirə əsasında demək olar ki, Nobellərin şirkəti də digər neftxudalar kimi Bakı qoçularının, daha doğrusu, Aşurbəyov soyadlı qoçunun xidmətindən istifadə edib.

K.Hagelin yazır ki, görünür, Aşurbəyov oğruları öz yanına işə götürmüşdü. Gecə bir əşya itən kimi səhər Aşurbəyova zəng vururlurdu. Həmin axşama qədər itən əşyanın özü, yaxud onun oxşarı qaytarılırdı. Əgər itən əşya tapılmırdısa, onun qiyməti Aşurbəyova ödənilən puldan çıxılırdı...

Bir dəfə Qafqaz canişini, qraf Vorontsov-Daşkov Bakıda olanda Bakı qoçularının bu xidməti barədə ona da məlumat verirlər. Canişin bu söhbəti eşidəndə qəhqəhə çəkib gülür və deyir:

> "Boş əllə silah qarşısında neyləyə bilərsən?! Mən canişinəm, yeri gələndə mən də sizin kimi oğrulara haqq verirəm. Burada adət belədir..."

Qafqaz canişininin bu söhbətini də K.Hagelin sitat gətirib.

Görünür, hətta dövlət nümayəndələrinin belə qoçularla hesablaşdığı həmin illərdə hakimiyyət o qədər zəif və gücsüz olub ki, Bakıda böyük bir faciənin qarşısını ala bilməyiblər. Və Nobellərin Bakıdakı nümayəndələri bu dəfə Peterburqa "Bakıda yenidən iğtişaşlar başladı..." cümləsi ilə hesabatlar yazmağa məcbur olublar.

# ERMƏNİ-MÜSƏLMAN QIRĞINLARININ ŞAHİDİ

1904-cü ilin əvvəllərində başlayan rus-yapon müharibəsi imperiyada ictimai-siyasi vəziyyəti xeyli gərginləşdirir. 1905-ci ilin yanvarında Peterburq fəhlələri hökumətə etiraz məqsədilə küçələrə tökülür. Gizli polisin casusu olan keşiş Qapon fəhlələrin Qış sarayına dinc yürüşünü təşkil edir və onları qırğına verir. Tarixə "qanlı bazar" kimi düşən həmin gün yüzlərlə fəhlə qətlə yetirilir və bütün Rusiyanı tətillər bürüyür.

İlk Rusiya inqilabının əks-sədası Bakıya da çatır və tezliklə burada da tətil və iğtişaşlar başlanır. Lakin Bakıda faciə başqa istiqamət alır: iğtişaşlar erməni-müsəlman qırğınlarına çevrilir.

1905-1906-cı illərdə Rusiyada baş verən iğtişaşlardan fürsət kimi istifadə edən ermənilər Bakıda dinc azərbaycanlılara qarşı qırğın törədirlər.

Tarixə "erməni-müsəlman qırğınları" kimi düşən bu qanlı faciələri Nobellər şirkətinin təmsilçiləri də müşahidə etməli olur. Adam öldürmək adi hala çevrilir. İğtişaşlar neft mədənlərinə keçir.

K.Hagelinin yazdığına görə, həmin günlərdə 130-a qədər neft buruğu dağıdılır. Bu qarma-qarışıq zamanda şirkətin Bakı mədənlərinin müdiri Qustav Eklunda da Qara şəhərdə güllə dəyir. Onu Bakıdan Peterburqa yola salırlar.

K.Hagelin Qara şəhər kontorunda özü işləməyə başlayır. Onun kütlələr arasında nüfuzu daha çox olduğundan problemləri daha asan həll edə bilir.

Bu işdə inqilabçıların fəallığı və hakimiyyət orqanlarının biganəliyi də öz rolunu oynayır və iğtişaşlar böyük itkilərə səbəb olur.

K.Hagelinin qənaətinə görə, ermənilərin "Daşnaksütyun" cəmiyyəti də hadisələr zamanı fəallaşır və bu da qırğınların daha böyük miqyas almasına səbəb olur.





O, sonralar etiraf edəcəkdi ki, "bizim müəssisələrə toxunmurdular". Çünki Nobellərin işçilərinin əksəriyyəti xaricilər, gəlmələr idi, xaricilərə isə Bakıda münasibət yaxşı idi.

K.Hagelin:

> "Bizim Şaban mənə deyirdi ki, sizin adamlara toxunmazlar, sizi tanıyırlar, öz adamımızsınız, ədalətli adamlarsınız".

Onun yazdığına görə, həmin qanlı günlərdə barışıq üçün müzakirələr H.Z.Tağıyevin evində təşkil olunur. Çünki danışıqlara gedən iki erməni mühəndis K.Hagelinə müraciət edir ki, onları Tağıyevin evinə qədər ötürsün.

Nobellərin təmsilçisi onları sağ-salamat Tağıyevin evinə çatdırır.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində "Bakının mədən rayonlarında 1905-ci ilin avqust hadisələri barədə məruzə" adlı bir qovluq saxlanılır.

Əvvəldə də qeyd etdiyimiz kimi, Nobellərin Bakı kontoru şəhərdə baş verən az qala hər bir ictimai-siyasi hadisə barədə dərhal Peterburqa – İdarə Heyətinə məlumat göndərirdi. Filankəsi güllələdilər, filan mədən fontan vurdu, filankəsin mədənində yanğın başlayıb və s. və i.a.

Bu baxımdan 1905-ci ilin avqustunda baş verən erməni-müsəlman qırğınları haqqında Bakıdan baş idarəyə geniş hesabat göndərilməsi təbii idi. Çünki bu hadisələr bütövlükdə Bakıdakı həyat ritminə, o cümlədən "Nobel qardaşları" şirkətinin işinə birbaşa təsir göstərirdi.

Peterburqa göndərilən məruzə bu sözlərlə başlayırdı: "Bakıda yenidən iğtişaşlar başlayıb... Qurbanların sayı ilə bağlı hələ heç nə məlum deyil. Dünən səhər A.Krasin şəhərdə olarkən küçələrdə beş cəsəd görüb..."

Məruzədə deyilirdi:

> "Nümayəndələrimiz general-qubernatora müraciət edib ki, şirkətin fəhlələrinə silah verilsin... Ona görə yox ki, döyüşlərdə iştirak etsinlər, ona görə ki, hər hansı hücum zamanı özlərini qoruya bilsinlər. Şəxsən biz tatarlar[1] tərəfindən hücum ediləcəyindən narahat deyilik, çünki onlarla yaxşı münasibətlərimiz var. Amma Ağ şəhərdəki işçilər arasında təlaş o

[1] Əcnəbilər azərbaycanlıları o zaman çox vaxt belə adlandırırdı.

qədər güclüdür ki, axşamlar hamı həyətə düşür, nə baş verəcəyini həyəcanla gözləyir".

O günlərin gərginliyini xatırladan daha bir misal:

"General-qubernator bəyan edib ki, hansı evdən güllə atılsa, həmin ev toplarla dağıdılacaq..."

Məruzənin son cümləsi isə belə idi:

"Mədənlərdə həyat tezliklə normallaşan deyil, tatarlarla ermənilərin əvvəlki kimi bir yerdə işləməsini bərpa etməyin necə mümkün olacağını demək çətindir".

XX əsrin əvvəllərinin Bakısı belə bir qanlı tarix də yaşamağa məhkum olmuşdu. Nobellərin Bakıdakı nümayəndələri və bütövlükdə "Nobel qardaşları" şirkəti də bu tarixin acısını dadmışdı...

Ən azı böyük iqtisadi itkilərlə...

Qırğınlar zamanı mədən və zavodlarda iş dayanırdı. Nobellər isə dayanmağı xoşlamırdılar...



# RUSİYADA ÇEVRİLİŞ VƏ NOBELLƏRİN QARA GÜNÜ

Bu gün tarixçilər belə bir qənaətdədir ki, bolşevik inqilabı ərəfəsində Rusiyanın siyasi-iqtisadi vəziyyəti, əvvəllər kommunist təbliğatının iddia etdiyi kimi, heç də böhran həddində deyildi. Hətta 1917-ci ilin payızında baş verən silahlı çevriliş ölkənin inkişafını ləngitdi. "Sosialist inqilabı" adlandırılan bu çevriliş nəticəsində siyasi hakimiyyəti ələ keçirmiş bolşeviklər çox tezliklə iqtisadi sahədə də köklü dəyişikliklərə başladılar. Xüsusi mülkiyyətin ləğvi və bütün iqtisadi subyektlərin milliləşdirilməsi neft sənayesindən yan keçmədi. Vladimir Leninin imzaladığı dekretlə bu sektorda milliləşdirmə 1918-ci ilin iyununda başladı. Bütün ölkə boyu şəxsi mülkiyyət müsadirə edilirdi.

Yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır...

İşlərin yağ kimi getdiyi – neft mədənlərinin sayının çoxaldığı, anbarların neftlə dolduğu bir vaxtda aləm qarışdı.

Nobellər bolşevik hakimiyyətinin uzun sürməyəcəyini düşünürdülər.

Həmin ilin yayında Emmanuil Nobel Rusiyada sonuncu dəfə Yessentuki kurortuna istirahətə gedir və orada rast gəldiyi sənayeçilərlə söhbətdən anlayır ki, bolşeviklərin hakimiyyəti onun hesab etdiyi qədər müvəqqəti deyil. Ona görə də yaxın ətrafı ilə Rusiyadan saxta pasportla qaçmaq qərarına gəlir. Ukrayna və Polşadan keçməklə uzun bir səfərdən sonra noyabrda Almaniyaya çatır.

E.Nobel illərlə toplanmış yüz milyonlarla sərvəti: zavod və fabrikləri, gəmi və tərsanələri, dükan və anbarları Rusiyada qoyub ölkəni tərk etməli olur. Belə yerdə deyirlər, can hər şeydən şirindir...

Lüdviqin iki oğlu: Emil və Yost sovetlərin Fövqəladə Komissiyası tərəfindən Petroqradda, öz mənzillərində həbs edilir. Lakin tezliklə onlar da

böyük çətinliklə Rusiyadan qaça bilir və Nobellər ailəsi Milad bayramını həmişəki kimi bir yerdə – Stokholmda qeyd edir...

Rusiyada baş verən proseslər Bakıda da təkrarlanır. Burada daha ağır faciələr yaşanır. İmperiyada baş verən inqilabi dəyişikliklərdən sui-istifadə edən erməni-daşnak qüvvələri 1918-ci ilin martında Bakıda azərbaycanlıların soyqırımını təşkil edirlər. Bunun ardınca – aprelin 25-də erməni millətçisi və bolşevik Stepan Şaumyanın rəhbərliyi altında şəhərdə sovet hakimiyyəti elan olunur. Özünü Bakı kommunası adlandıran bu qurumun icraedici orqanı – Bakı Xalq Komissarları Soveti şəhərdə hakimi-mütləq olduğu üçün istədiyi addımları atır, heç bir qayda-qanun və ədalət prinsipini gözləmir.

Bir gün "Nobel qardaşları" şirkətinin də qapısı döyülür...

Xalq Komissarları Soveti bütün sahələrdə olduğu kimi, gəmiçilik şirkətlərinin gəmilərini və digər əmlaklarını da "inqilabi məqsədlər" adı altında asanlıqla müsadirə edir, bolşevik hökumətinin məqsədlərinin reallaşmasına yönəldirdi. 1918-ci ilin aprelində "Nobel qardaşları" şirkətinə ünvanlanmış bir məktubda həmin niyyət açıq ifadə edilmişdi: "İnqilabi Müdafiə Komitəsi nəzərinizə çatdırır ki, ...qaçqınların daşınması məqsədilə Ərzaq Direktorluğunun tələbatı üçün gəmiləri müsadirə etmək hüququ bilavasitə su nəqliyyatı komissarı Krıltsov yoldaş vasitəsilə Su Nəqliyyatının rəhbərliyi üzrə kollegiyaya məxsusdur. Müsadirə edilmiş gəmilər üçün yanacaq, su və sair materiallar götürmək hüququ həmin kollegiyaya və komissara verilir, onlara bu barədə mandat təqdim edilir.

Ona görə də Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi sizə əmr edir ki, kollegiyanın və komissar Krıltsovun ilk tələb etdiyi andan lazımi materialların verilməsini təmin edəsiniz".

Bu, Bakıda artıq 50 ilə yaxın müddətdə azad sahibkarlıqla məşğul olan Nobel qardaşlarından yeni hakimiyyətin – sovetlərin ilk və son tələbi deyildi...

Hələ bundan əvvəl "Nobel qardaşları" şirkətinə məxsus avtomobil Qırmızı ordunun qərargahı tərəfindən müsadirə edilmişdi.

1918-ci ilin iyulunda heç bir order təqdim olunmadan şirkətə məxsus təcili yardım kareti, "Undervud" markalı yazı makinası "inqilabi məqsədlər" adı ilə götürülmüşdü...

Avqustda isə bolşeviklər şirkətin Qara şəhərdəki anbarlarından 6 verstlik dəmir yolu relsi aparmışdılar.





Şirkətin öz fəhlə və qulluqçuları üçün Qara şəhər və 5-ci zavod küçələrinin kəsişməsində tikdirdiyi üçmərtəbəli bina apreldə müsadirə olunmuş, binanın ikinci və üçüncü mərtəbələrində 11-ci Qırmızı batalyon yerləşdirilmişdi.

Şirkətin nümayəndələrinin şikayətlərinə baxmayaraq, qanunsuz müsadirələr davam edir: avtomobil təmiri parkı, qaraj, yeməkxana, fayton və atlar...

Bu, Nobellərin bolşeviklər tərəfindən hələ 1918-ci ildə müsadirə edilmiş əmlakının tam olmayan siyahısıdır. Çünki aprelin 9-da İnqilabi Müdafiə Komitəsi adından şirkətin Bakı kontoruna bu məzmunda məktub daxil olmuşdu ki, komitənin qərarı ilə bütün banklar və şirkətlər Qırmızı ordunun formalaşdırılması və son hadisələr zamanı əziyyət çəkən kasıblara yardım məqsədilə 50 milyon rubl yardım etməlidir:

> "Bu məbləğin proporsional bölünməsi üçün bütün şirkətlərin nümayəndələrinin ümumi yığıncağı təşkil edilir. Sizin də nümayəndənin iştirakı məcburidir, əks halda, ciddi tədbirlər görüləcək..."

Artıq əmlak müsadirəsi ilə yanaşı, Nobellərdən konkret məbləğdə pul da tələb edilirdi.

Mayın 24-də isə şirkətə, sadəcə, xəbərdarlıq məktubu göndərilmişdi ki, xalq daxili işlər komissarının sərəncamı ilə Nobel bağı və onun nəzdindəki klub binası Xalq Maarif Komissarlığının sərəncamına verilir.

Nobel bağı deyilərkən Lüdviq Nobelin şəxsi təşəbbüsü ilə salınan "Villa Petrolea" nəzərdə tutulurdu...

Belə müsadirə və talanlarla yanaşı, bütöv sənaye sahələri də milliləşdirilirdi...

# BAKI KOMMUNASINDAN "SENTROKASPİ"YƏ...

Bakı kommunası iqtisadiyyat üzərində nəzarəti həyata keçirmək üçün neft sənayesinin milliləşdirilməsinə xüsusi əhəmiyyət verirdi. Xalq Komissarları Soveti 1918-ci il iyunun 2-də bu barədə qərar qəbul etmiş və bunun ardınca Xəzər Ticarət Donanması da milliləşdirilmişdi.

Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyanın imzaladığı "Xəzər Ticarət Donanmasının milliləşdirilməsi haqqında dekret"in 1-ci maddəsində deyilirdi ki, "kimə məxsusluğundan asılı olmayaraq, bütün Xəzər Ticarət Donanması özünün daşınar və daşınmaz əmlakı ilə birlikdə Rusiya Sovet Federativ Sosialist Respublikasının bölünməz mülkiyyəti elan olunur".

Nobellərin gəmiçiliyə aid Bakıdakı mülkiyyəti də həmçinin...

Dekretin 2-ci maddəsində milliləşdirilən müəssisələrin təsnifatı verilirdi. Bu siyahıya ticarət donanmasına xidmət edən bütün sahil qurğuları və müəssisələr, emalatxanalarla bərabər tərsanələr, mexaniki zavodlar, üzən vasitələr, mayedolduran stansiyalar, gəmilərin yüklənməsi üçün mövcud olan qurğular, bir sözlə, gəmiçiliyə xidmət edən bütün müəssisə və təşkilatlar daxil idi.

Yeni dekretlə tələb olunurdu ki, milliləşdirildiyi andan Xəzər Ticarət Donanmasının bütün gəmilərinin üzərindəki üçrəngli bayraq ağ hərflərlə R.S.F.S.R. yazılmış qırmızı bayraqla əvəz olunsun.

Bu qayda, təbii ki, Nobellərin gəmilərinə də aid idi...

B.Osbrinkin yazdığına görə, 1918-ci ilin iyununda birinci milliləşdirmə vaxtı "Nobel qardaşları" şirkətinin Bakıda ən səlahiyyətli rəsmisi Artur Lessner olub. O həm də şirkətin bolşeviklər tərəfindən təqib edilən yeganə rəhbərlərindən biri idi. Bolşeviklər onu bir müddət hətta həbsxanaya da atıblar. Daha sonra əks-inqilabçı elan edib, Bakıdan sürgün olunması barədə qərar çıxarıblar.





Baş verən hadisələr Bakıda ictimai-siyasi vəziyyətin olduqca gərgin vaxtlarına təsadüf edirdi. Xəzər Ticarət Donanmasının milliləşdirilməsindən təxminən bir həftə əvvəl Zaqafqaziya Seymi buraxılmışdı. 1918-ci il mayın 26-da Gürcüstan dövlət müstəqilliyini elan etmiş, bir gün sonra Tiflisdə Azərbaycan Milli Şurası, mayın 28-də isə Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti xalqın azad və müstəqil yaşamaq, müstəqil dövlət qurmaq hüququnun təsbit olunduğu İstiqlal bəyannaməsini qəbul etmişdi.

Bundan sonra cümhuriyyətin rəhbərləri müvəqqəti olaraq Gəncədə məskunlaşmış və yeni hökumətin strukturlarını formalaşdırmağa başlamışdı. Çünki Bakıda hakimiyyət hələ də Azərbaycan xalqının düşmənlərinin əlində idi.

1918-ci ilin yazında Bakıda bolşeviklərin mövqelərinin möhkəmlənməsi Qərb dövlətlərinin Cənubi Qafqazda fəallaşmasına səbəb olmuşdu. Onda Almaniya hökuməti də Bakı neftinə sahib çıxmaq planları cızırdı.

1918-ci il yayın əvvəllərində Bakıda ictimai-siyasi vəziyyətin gərginləşməsi ingilislərin planlarını dəyişir. Bu dövrdə ingilis komandanlığı Bakıya girmək niyyəti ilə İranın şimalında qoşun hissələri toplamaqda davam edir. İngilislər həm də yerli bolşevik qüvvələri və daşnaklarla əlaqə qururlar.

İyulun 25-də Bakı Sovetinin fövqəladə iclasında ingilislərin dəvət edilməsi ilə bağlı fikir ayrılığı yaranır və iclasda eserlərin ingilisləri Bakıya dəvət etmək, koalisiya hökuməti yaratmaq barədə təklifi qəbul olunur. Həmin məsələ ətrafında yaranan siyasi böhran nəticəsində Bakı kommunası süquta uğrayır və Bakıda hakimiyyət "Sentrokaspi diktaturası" adlanan qurumun əlinə keçir. "Sentrokaspi" "Xəzər Hərbi Donanmasının Mərkəzi Komitəsi" adlanan eser-menşevik-daşnak yığnağının qısaldılmış adı idi.

Sovet hakimiyyətini qəbul etmədiyi üçün Rusiyadan qaçıb İrandakı ingilis qoşunlarının himayəsinə sığınmış rus zabiti Lazar Biçeraxov "Sentrokaspi diktaturası" qoşunlarının komandanı elan edilir.

İyulun 31-də Bakı Xalq Komissarları Soveti fəaliyyətini dayandırır.

# XƏZƏR GƏMİÇİLİYİ GENERAL DENSTERVİLİN GÖZÜ İLƏ

"Sentrokaspi diktaturası" ingilislərin Bakıya gəlməsinə razılıq verdiyindən avqustun 4-də 40 nəfərlik ilk ingilis dəstəsi Bakı limanına daxil olur. Avqustun 6-da dəstənin başçısı, general Lionel Denstervil bəyanat yayır ki, "ingilis qoşunları Azərbaycana müttəfiqlərin razılığı və Bakı sakinlərinin dəvəti ilə gəlib" və məqsədi almanlarla və türklərlə mübarizə aparmaqdır.

Denstervil xatirələrində həmin dövrün gəmiçilik təsərrüfatında vəziyyəti də təsvir edir: "Hər şey "milliləşdirildiyi" üçün limanın gəlirləri, demək olar ki, sıfıra enmişdi. Xəzər dənizində bütün gəmiçilik şirkətləri milliləşdirilmişdi və gəmilər heç kimə heç nə ödəmirdi. Bu vəziyyət liman qulluqçularını çətin vəziyyətə salmışdı. Komandor Norrislə bizim üçün münasib olan şərtlər daxilində onlarla iş qurduq. Liman qulluqçularına əməkhaqqı vermək və limanın istismar xərclərini ödəmək öhdəliyi götürdük, bir şərtlə ki, bütün gəlirlər bizə çatsın. Bu şərtlər "Sentrokaspi" hökuməti tərəfindən təsdiq olunmadı, bu müqaviləyə dair bütün sənədlər Bakının süqutuna qədər bizimlə hökumət arasında "səyahətdə" oldu".

General Denstervil xatirələrində o dövrdə Xəzərdə yük daşımalarının tamamilə dayanmasının səbəbini sadə dillə belə izah etmişdi:

> "Bakıda biz həm də ərzaq böhranı ilə rastlaşmalı olduq. Şəhərin özündə ərzaq malları istehsal edilmirdi. İnqilab baş verəndən sonra isə həmin məhsulların daşınması azalmışdı. Nə qədər ki istehsalçı, vasitəçi və gəmi xəttinin sahibi ərzaq mallarının daşındığı hər əməliyyatdan qazanc götürürdü, onda Xəzər dənizinin bütün limanlarından lazımi ərzaq məhsulları daşımaq çox sadə bir iş idi. Amma sosialist təsərrüfat sistemi şəraitində hər cür "milliləşdirmələr"lə mal daşınması, demək





> olar ki, sıfıra enmişdi. Mallar göndərildikləri limanlarda milliləşdirilmişdi, gəmilər də milliləşdirilmişdi. Belə bir şəraitdə kommersiya ilə məşğul olmaq heç kimə sərfəli deyildi. Şəxsi təşəbbüskarlıq ölmüşdü, dövlət müəssisələri isə işləmirdi".

Yəqin ki, Xəzərdə gəmiçilik sahəsində 1918-ci ilin yayında yaranmış vəziyyətin bundan sadə və anlaşıqlı izahını vermək mümkün deyil...

Təkcə gəmiçilikdə deyil, bütün sahələrdə, o cümlədən neft sənayesində də vəziyyət eyni idi.

1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu Bakını eser-daşnak qüvvələrindən azad edir, nəticədə "Sentrokaspi diktaturası" süquta uğrayır. General Denstervil gəldiyi gəmi ilə Bakıdan Petrovsk (indiki Mahaçqala) limanına qaçır...

Yalnız bundan sonra Azərbaycan Xalq Cümhuriyyəti Bakıya köçə bilir.

# CÜMHURİYYƏT HÖKUMƏTİ BAKIYA KÖÇÜR VƏ QAYDA YARADIR...

İngilislər Bakını tərk edəndən sonra – 1918-ci il sentyabrın 17-dən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıda fəaliyyət göstərməyə başlayır.

Həmin ilin sentyabrında Nobellərin Bakıdakı nümayəndəsi A.Lessner Türkiyə ordusunun komandanı ilə görüşüb, ondan şirkətin neft mədənlərini və zavodlarını qorumağı xahiş edir.

A.Lessner həmin ilin qarışıq sentyabr ayı barədə yazırdı:

> "Nobellər az adam və daha az əmlak itirdilər. Bunun səbəbi o idi ki, bizim şirkətdə ermənilər az idi, həm də biz müsəlman əhali ilə həmişə mehriban münasibət saxlamışdıq – həm yuxarılarla, həm də aşağılarla..."

Həmin sentyabr günlərinin birində A.Lessner küçədə avtomobil karvanı gördüyünü xatırlayır:

> "Bu maşınlarda yeni Azərbaycan hökuməti paytaxta gəlirdi. Sərnişinlər arasında bizim əməkdaşı və Cavanşirin[1] dostunu görüb korteji saxladım və ətrafda baş verənlər barədə iradlarımı bu cənablara söylədim. Mənə bildirdilər ki, vəziyyətə müdaxilə edəcəklər. Artıq axşam şəhərin fabrik-zavod rayonu türk qoşunları tərəfindən mühafizəyə götürüldü".

Burada, təbii ki, A.Lessner Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsindən sonra Cümhuriyyət hökumətinin Gəncədən Bakıya

[1] Söhbət, yəqin ki, Behbud xan Cavanşirdən gedir.





köçməsindən söhbət açır və bundan sonra iki ay şəhərdə həyatın normallaşmağa başladığını etiraf edir.

"Nobellər imperiyası" kitabının müəllifi B.Osbrink həmin 1918-ci ildə hələ Bakıda olmuş İsveç mütəxəssisi və şirkətin əməkdaşı Henninq Bernelmin xatirələrinə istinad edir. İsveçli mühəndis 1918-ci ilin Bakısındakı bolşevik özbaşınalığından və törədilən qırğınlardan ətraflı söhbət açır. Müəllif yazır:

> "Sentyabrın 19-da Henninqi Azərbaycan Cümhuriyyətinin yeni Nazirlər Şurası ilə tanış edirlər".

Kim tanış edir? Henninq kiminlə görüşür? Görüşdə hansı məsələlər müzakirə edilir? Bu barədə heç nə deyilmir. Amma fakt faktlığında qalır ki, Azərbaycan hökumətinin nümayəndələri Bakıda fəaliyyətə başlayandan iki gün sonra "Nobel qardaşları" şirkətinin təmsilçisi ilə görüşüb müzakirə aparıblar. Görünür, bu, yeni hökumətin azad sahibkarlığa qayğı göstərmək istəyindən və Nobellərə məhrəm münasibətindən qaynaqlanır.

> "Henninq öz-özünə sual verir: neft sənayesinin taleyi indi necə olacaq, bu sahəni yenidən necə dövlətsizləşdirəcəklər? Bakının bütün işgüzar həyatı bundan asılı olacaq".

Həqiqətən, o dövrdə Bakının, elə bütün Azərbaycanın həyatı, demək olar ki, neft sənayesindən asılı idi. Bolşeviklərdən fərqli olaraq, yeni hakimiyyət azad sahibkarlığın inkişafının tərəfdarı idi. Ona görə də hakimiyyətin ilk qərarlarından biri məhz bolşeviklərin milliləşdirmə haqqında verdikləri fərmanı ləğv etmək olur.

Yeni hökumət neft sənayesinin dövlətsizləşdirilməsi, daha doğrusu, milliləşdirmənin ləğv olunması barədə qərar qəbul edir. Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının bununla bağlı qərarı "Azərbaycan" qəzetinin (rus dilində) 7 oktyabr 1918-ci il tarixli sayının birinci səhifəsində dərc edilir. Qərarın 1-ci bəndində deyilirdi:

> "Keçmiş Bakı Xalq Komissarları Sovetinin Bakı quberniyası ərazisindəki neft sənayesi müəssisələrinin və buna müvafiq müəssisələrin, o cümlədən ticarət donanmasının

milliləşdirilməsi, habelə həmin müəssisələrin idarə edilməsi qaydaları haqqında verdiyi bütün dekret və sərəncamlar ləğv edilmiş hesab olunsun".

Həmin qərara əsasən, bütün mədənlər, zavodlar və gəmilər, onların əmlakı və s. dərhal əvvəlki sahiblərinə və səlahiyyətli nümayəndələrinə qaytarılırdı.

Təbii ki, Nobellər şirkətinin gəmiləri və bütün mülkiyyəti də özlərinə qaytarılır.

"Azərbaycan" qəzetinin 30 oktyabr tarixli nömrəsində məlumat verilirdi ki, Yollar Nazirliyinin müvəkkili milliləşdirilmiş ticarət donanmasının müəssisələrini əvvəlki sahiblərinə qaytarmağa başlayıb. Bu prosesin 10 günə yekunlaşacağı bildirilirdi.

Qəzetin 3 noyabr tarixli sayında isə artıq sənaye və ticarət naziri B.X.Cavanşirin imzası ilə elan dərc olunmuşdu:

"...bütün mədənlər, zavodlar, gəmilər və neft sənayesinə aid bütün müəssisələr istisnasız olaraq öz əvvəlki sahiblərinin tam ixtiyarına və idarəsinə verilib".

Qəribədir ki, Bakıda Cümhuriyyət hökuməti tərəfindən Nobellərə məxsus əmlakın qaytarılması barədə "Nobellər imperiyası"nda söhbət açılmır...

"Azərbaycan" qəzetinin 16 oktyabr tarixli nömrəsində isə yollar naziri X.Məlik-Aslanovun adından elan dərc edilir:

"Azərbaycan hökumətinin 5 oktyabr 1918-ci il tarixli qərarı ilə ticarət limanı və gəmiçiliyə aid yardımçı müəssisələr dövlətsizləşdirilir. Bu iş yollar nazirinin müvəkkili P.Pototski vasitəsilə həyata keçirilir və əmlakların qaytarılması xüsusi aktla təsdiq edilir".

Həmçinin bildirilir ki, bu məsələyə dair hər cür iddia və şikayətlər dekabrın 1-dək Bakı Ticarət Limanında yaradılmış dəftərxanada qəbul olunur. Elan "Azərbaycan" qəzetində bir neçə gün təkrar-təkrar dərc edilir ki, hamının xəbəri olsun.



# CÜMHURİYYƏT NAZİRLƏRİNİN NEFT SƏNAYEÇİLƏRİ İLƏ DİALOQU

Yeni hakimiyyət neft sənayeçiləri ilə işgüzar münasibətlər qurmaq, onların problemləri ilə yaxından məşğul olmaq qərarına gəlir.

1918-ci il oktyabrın 28-də maliyyə naziri M.H.Hacınski, ticarət və sənaye naziri B.X.Cavanşir və yollar naziri X.Məlik-Aslanov neft sənayeçilərinin nümayəndələrini qəbul edirlər. Görüşdə M.Əsədullayev, M.Səlimov və başqa tanınmış iş adamları iştirak edirlər. "Nobel qardaşları" şirkətini həmin tədbirdə Bakı kontorunun rəhbəri A.Lessner təmsil edir.

Bu görüşün protokolu Dövlət Tarix Arxivində saxlanılır.

Tədbirdə neft və neft məhsulları ehtiyatının saxlanması qaydaları, neft sənayeçilərinə hökumətin ssuda verməsi, bank-kredit məsələləri müzakirə olunur.

Görüşdə iştirak edən A.Lessner ötən dövrlər ərzində şirkətə dəyən ziyanı xatırladır:

"Milliləşdirmə dövründə "Nobel qardaşları" şirkəti Xalq Təsərrüfatı Şurasından təxminən 27 milyon rubl alıb, amma bu dövrdə şirkətin 78 milyon rubl dəyərində malı əlindən alınıb".

O daha sonra neftin xaricə satışı üçün şərtlər barədə fikrini bildirir, növbəti naviqasiyaya qədər neftdaşıyan gəmilərin qış müddətində təmir olunması məsələsindən söz açır, hökumətin bu işlərə yardım göstərməsini xahiş edir.

Yollar naziri neft sənayeçilərini əmin edir ki, Bakı-Batumi kerosin kəməri təmizlənib və işlək vəziyyətdədir. Sadəcə, bu kəmərlə neft, yoxsa kerosin daşınacağını müəyyən etmək lazımdır. Bundan başqa, Azərbaycan və Gürcüstan respublikalarının sərəncamında 1500 sistern də var ki, onlardan da neft məhsullarının daşınmasında istifadə edilə bilər.

Həmin ərəfədə hökumətin qərarı ilə Azərbaycanda istirahət günü bazar günündən cümə gününə keçirilir. Arxivdə Bakıdakı Neft Sənayeçiləri Qurultayının işlər idarəsindən Nobellərin Bakı kontoruna göndərilmiş bir məktubda hökumətin sərəncamı ilə istirahət günlərinin dəyişdirildiyi xatırladılırdı:

> "Fəhlə və qulluqçular üçün həftənin istirahət günü cümə günü hesab edilsin".

Bütün şirkət və zavodlar kimi, Nobellər şirkəti də bu təlimata riayət edir.

Noyabr ayında neft sənayeçilərinin nümayəndə heyəti ticarət və sənaye naziri B.X.Cavanşir və onun müavini Tağı bəy Səfərəliyevlə iki dəfə görüş keçirir.

Artur Lessner yenə də hər iki görüşdə iştirak edir. Nobellərin Bakıdakı təmsilçisi kimi...

Bütün bu görüş və müzakirələr barədə geniş hesabatlar məlumat üçün Bakıdan "Nobel qardaşları" şirkəti İdarə Heyətinin sədri cənab E.L.Nobelə də göndərilirdi.

Bu, şirkətin Bakı kontorunun birbaşa vəzifəsinə daxil idi.

Bu vəzifəni Emmanuil Nobel müəyyən etmişdi...

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvləri neft sənayeçiləri ilə belə görüşlər keçirməklə ölkə iqtisadiyyatında dönüş yaratmaq niyyəti güdürdülər. Onlar azad sahibkarlığın inkişafında maraqlı idilər.

Lakin az sonra demokratik dövlət quruculuğu prosesini və azad sahibkarlığın inkişafını prioritet götürən Cümhuriyyət hökumətinin bu planlarını reallaşdırmaq çətinləşir. Çünki... Bakıya yenidən əcnəbi ordu hissələrinin yeridilməsi planlaşdırılır...

1918-ci il oktyabrın 30-da indiki Yunanıstan ərazisində yerləşən Mudros limanında Antantanın[1] və Türkiyənin nümayəndələri arasında Mudros barışığı imzalanır. Müharibədə uduzan Türkiyənin barışığın ağır şərtləri ilə razılaşmaqdan başqa yolu qalmır. Həmin sənədə əsasən, Türkiyə qoşunları Zaqafqaziyadan çıxarılır, müttəfiq dövlətlərin qoşunlarının Batumi və Bakını tutmasına icazə verilir.

[1] Rusiya, Böyük Britaniya və Fransa tərəfindən yaradılmış birgə hərbi-siyasi blok





Noyabrın 17-də general Tomsonun başçılığı altında müttəfiq qoşunların dəstəsi Azərbaycan paytaxtına daxil olur.

Bakı yeni və daha mürəkkəb reallıqlar şəraitində yaşamalı olur. İngilislər şəhərdə fövqəladə vəziyyət elan edir, noyabrın 29-dan neft məhsullarının ixracı üzərində nəzarət Britaniya komandanlığının əlində cəmləşdirilir. Britaniya Dəniz Nəqliyyatı İdarəsinin ilk sərəncamlarından biri Britaniya hərbi komandanlığının icazəsi olmadan neftin dəniz vasitəsilə ixracının qadağan edilməsi olur.

Nobellər Bakı kommunası və "Sentrokaspi" kimi oyuncaq hakimiyyətlərdən sonra indi də ingilislərlə, onların qoyduğu məhdudiyyətlərlə üzləşməli olur.

# TOPÇUBAŞOVUN NOBEL DİPLOMATİYASI

1918-ci ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti Paris sülh konfransında Azərbaycanı təmsil etmək, dövlət müstəqilliyinin tanınmasına nail olmaq məqsədilə Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Parisə nümayəndə heyəti göndərir. Nümayəndə heyəti Parisə getmək üçün İstanbula gəlir və təəssüf ki, uzun müddət müttəfiq qoşunların tabeliyində olan bu şəhərdə Fransaya viza ala bilmir. Bu maneəni aşmaq üçün Ə.Topçubaşov İstanbulda olan bir çox ölkələrin nümayəndələri ilə danışıqlar aparır, onları nümayəndə heyətinin konfransda iştirakının vacibliyinə inandırmağa çalışır, habelə həmin nümayəndələrdən konfransda Azərbaycanın mənafeyini müdafiə etməyi xahiş edir.

1919-cu il yanvarın əvvəllərində Ə.Topçubaşov İsveçin nümayəndəsi Ankarxverdlə (Ankarchward) də görüşür. İsveç səfirliyinin binasında keçirilən görüşdə... söhbət həm də Nobel qardaşlarından düşür. Niyə?

Səfir Bakıda vəziyyətlə, xüsusən neft mədənləri ilə maraqlanır. Bolşeviklərin şəhəri qarışdırmasından xəbərdar olduğunu bildirir və "deyəsən, onlar neft mədənlərinə toxunmayıblar" deyə sual verir.

Yenə neft!

Qeyd etmək yerinə düşər ki, İkinci Dünya müharibəsi illərində Bakı nefti bir çox ölkələrin maraq dairəsinə düşmüşdü. ABŞ və aparıcı Avropa dövlətləri bir yana, İsveç hökuməti də Bakı nefti ətrafında gedən prosesləri diqqətlə izləyirdi. Birinci Dünya müharibəsi neftin əhəmiyyətini bir daha və qəti müəyyən etmişdi...

Əlimərdan bəy İsveç diplomatı ilə görüşdə bolşeviklərin milliləşdirmə siyasətindən söhbət açır, Bakıda baş verən hadisələr barədə məlumat verir. Bildirir ki, "general Tomsonun başçılığı ilə bir neçə yüz ingilis əsgəri





Bakıdadır, amma onlar Azərbaycanın idarəçiliyinə qarışmırlar, bu hüquq Azərbaycan hökumətindədir".

Bundan sonra Ə.Topçubaşov İsveç hökumətinin və bu ölkənin Paris sülh konfransındakı nümayəndələrinin Azərbaycan nümayəndə heyətini müdafiə edəcəyinə inandığını bildirir. Etiraf edir ki, "düzdür, biz Skandinaviya ölkələrini hələ yaxşı tanımırıq, amma gələcəkdə gənclərimizi sizin ölkəyə oxumağa göndərə bilərik".

Bu fikirdən razı qalan diplomat ölkələrimiz arasında məsafənin həqiqətən uzaq olduğunu xatırladır, bununla belə, oxumaq üçün bu ölkəyə gələcək gənclərin mehriban qarşılanacağını xüsusi vurğulayır.

Ə.Topçubaşov davam edir:

> "Unutmaq olmaz ki, İsveçlə bizim indinin özündə də əlaqəmiz var. Bizim Bakı ilə sizin ölkəniz arasında bu əlaqəni Nobel qardaşları yaradıb. Onların enerjisi hesabına Bakıda neft işi inkişaf edir, indinin özündə də onların yanında xeyli isveçli işləyir".

Onun sözlərini təsdiq edən səfir bu əlaqələrin daha da möhkəmləndirilməsi zərurətindən danışır.

Göründüyü kimi, Ə.Topçubaşov Nobel qardaşlarının fəaliyyətini hələ o dövrdə yüksək qiymətləndirib, onları iki ölkə arasında əlaqələrin əsas səbəbkarı hesab edib. Həqiqətən də, 1919-cu ildə Nobel qardaşları adı özü artıq brendə çevrilmişdi və hər yerdə tanınırdı.

# ƏLİMƏRDAN BƏYİN EMMANUİL NOBELLƏ PARİS GÖRÜŞLƏRİ

Arxiv sənədlərindən görünür ki, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinə başçılıq edən Əlimərdan bəy Topçubaşov Parisdə Emmanuil Nobellə dəfələrlə görüşlər keçirib, ayrı-ayrı problemlər barədə onunla müzakirələr aparıb. Hətta ondan yardım da istəyib...

Əlimərdan bəy 1919-cu ilin sentyabrında Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədrinə yazdığı məktubda nümayəndə heyətinin maliyyə çətinliklərindən söhbət açaraq xatırladırdı:

> "Dünən E.Nobel yanımda idi və sözarası dedi ki, mənə 300 min frank verilməsi barəsində "Azov-Don" bankından teleqram almışdır. Bu pulların mənbəyi ilə bağlı sualımın cavabında cənab Nobel dedi ki, pulların haradan gəldiyindən və kim tərəfindən göndərildiyindən xəbəri yoxdur. Hələlik həmin pulları da almamışıq".

Az sonra Parisdəki nümayəndə heyəti o pulları E.Nobel vasitəsilə alır. Pulların isə Azərbaycan hökuməti tərəfindən göndərildiyi aydın olur.

Ə.Topçubaşov artıq noyabrda Bakıya yazdığı məktubda bəzi dəqiqləşdirmələr verir:

> "Mənim məsləhətim: dərhal "Azov-Don" bankı ilə əlaqə yaradın və bu bank vasitəsilə hesabımıza 1 milyon frankdan az olmayan məbləğ keçirin. Siz artıq indi burada olan Nobel qardaşlarının vasitəsilə bir dəfə belə bir köçürmə əməliyyatı aparmısınız. Biz həmin bankdan 300 min frank almışıq. Bütün





> bunlar barəsində xəbər verir və öz borcumu yerinə yetirərək mən təkrarən bir daha bildirir və bir daha xəbərdarlıq edirəm ki, nümayəndə heyətinin maliyyə baxımından vəziyyəti son dərəcə acınacaqlıdır".

"Azov-Don" kommersiya bankının Bakı filialı 1916-cı ildə açılmışdı. Azərbaycan hökumətinin Parisdəki nümayəndə heyətinə pulu məhz Nobel qardaşlarının vasitəsilə göndərməsi də aradakı işgüzar və etibarlı münasibətdən xəbər verir.

Baxmayaraq ki, arada inciklik də olmuşdu. Həmin 1919-cu ildə...

Parisdəki nümayəndə heyətinin başçısı həmin ilin dekabrında yenə də Azərbaycan hökumətinə müraciətlə deyirdi:

> "Burada istər rəsmi, istərsə də qeyri-rəsmi şəxslər tərəfindən dəfələrlə mənə tranzit şərtləri, malların ixracı və idxalı haqqında çoxsaylı suallar verilib, xahişlər edilib. Biz bütün bu məsələlərdən, eləcə də neft sənayesi ilə bağlı hökumətin sərəncamlarından tamamilə xəbərsizik".

Əlimərdan bəy daha sonra yazırdı:

> "Bu yaxınlarda qoca Nobel yanımda oldu və hökumətimizə iradını bildirdi ki, ssuda məsələsinin sıxışdırılması, nefti 5 manat 80 qəpiyə satmaq tələbi və s. barədə sərəncamlar sənayeni məhv edir".

Bütün bunlara baxmayaraq, Əlimərdan bəy Topçubaşovla E.Nobel arasında qarşılıqlı etimada söykənən işgüzar münasibətlərin yarandığını inamla söyləmək olar.

Həmin 1919-cu ilin sonlarında nümayəndə heyətinin maliyyə durumu ağır olanda Ə.Topçubaşov pul üçün E.Nobelə müraciət edir:

> "Fəlakət günü – nümayəndə heyətinin tamamilə vəsaitsiz qalacağı günü göstərən vaxt get-gedə yaxınlaşır. Bu kədərli aqibətdən çıxış yolu tapmaq üçün mən hətta qoca Nobelə müraciət etdim. Lakin Nobelin dediyinə görə, indi onların nə

kredit, nə də nağd pul vermək imkanları var. Doğrudur, tamamilə boyun qaçırmadı. Amma fikirləşmək üçün vaxt istədi ki, bu işə kömək etsin. Onun kiçik qardaşı artıq gedib, özü də İsveçə yola düşməyə hazırlaşır. Ümumiyyətlə, özünü bizə borclu saydığını etiraf etməsinə baxmayaraq, indi bir çox səbəblərə görə Nobelə o qədər də ümid bağlamağa əsas yoxdur".

E.Nobelə onda, həqiqətən də, ümid bağlamaq olmazdı. Onun əmlakının əsas hissəsi bolşevik Rusiyasında qalmışdı. Bu söhbətdə ən maraqlı məqam isə odur ki, E.Nobel özünü Cümhuriyyət hökumətinə borclu bilib...

Maraqlıdır ki, Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransındakı fəaliyyətinə dair Ə.Topçubaşovun özünün tərtib etdiyi jurnalda E.Nobellə 1919-cu ilin oktyabr və noyabr aylarında da görüşdüyü qeyd olunub. Deməli, E.Nobel Əlimərdan bəylə Parisdə mütəmadi görüşüb.

Parisdəki nümayəndə heyətinin maliyyə böhranı keçirdiyi vaxtda Bakıdan xoş xəbər alınır...



# İNGİLİSLƏR ŞƏHƏRİ TƏRK EDİR

1919-cu ilin avqustunda ingilis qoşunları Bakıdan çıxır və qatarla Batumiyə yola düşürlər. Bununla da Bakıda Xəzər dəniz nəqliyyatına ingilislərin nəzarətinə son qoyulur.

İngilislərin Bakını tərk etməsi ilə əlaqədar hökumət dərhal Xəzər gəmiçiliyi üzərində nəzarəti öz əlinə almaq üçün tədbirlər görür. Avqustun 23-də Yollar Nazirliyi ilə Konvensiya Gəmiçiliyi Bürosunun şirkətləri ("Kavkaz i Merkuri", "Vostoçnoye", "Rus" və "Samolyot") arasında müqavilə imzalanır.

Bu müqavilə su nəqliyyatı üzərində Britaniya nəzarətinin ləğvi ilə əlaqədar Xəzər dənizində sərnişin və yük daşımalarında qayda yaratmaq məqsədilə imzalanır.

Elə həmin günlərdə Böyük Britaniya Dəniz Nəqliyyatı İdarəsinin rəhbəri, polkovnik Braun bütün şirkətlərə məktub yazaraq müqavilə öhdəliklərindən azad edildikləri barədə məlumat verir.

Polkovnikin "Nobel qardaşları" şirkətinə yazdığı məktubda isə deyilirdi:

> "Aldığımız əmrə əsasən, bu ayın 24-də biz Bakıdan çıxırıq. Həmin tarixdən siz də Böyük Britaniya Dəniz Nəqliyyatı İdarəsi ilə bağlanmış müxtəlif müqavilələrə əsasən götürdüyünüz bütün öhdəliklərdən azad olunursunuz".

Bundan sonra Azərbaycanın idarəçiliyi bütünlüklə Cümhuriyyət hökumətinin ixtiyarına keçir.

Ticarət limanının Azərbaycan hökumətinin sərəncamına keçməsinə və Azərbaycan hökuməti ilə Konvensiya Gəmiçiliyi Bürosu arasında müqaviləyə əsasən, hökumət gəmilərin hərəkəti barədə yeni qaydalar təklif edir.

Həmin qaydalara görə, limandan gəmilərin hərəkətinə bundan sonra Yollar Nazirliyinin müvəkkili icazə verir, belə icazə olmadan gəmilərin hərəkəti qadağan olunur. Bu qayda bütün gəmiçilik şirkətlərinə, o cümlədən də Nobellərin gəmilərinə tətbiq olunur.

1919-cu ilin sentyabr-oktyabr aylarında hökumət gəmiçilik şirkətləri və gəmi sahibləri ilə münasibətləri tənzimləmək məqsədilə çoxsaylı görüşlər keçirir. Bu iclaslarda konvensiya əsasında işləyən şirkətlərlə gəmi sahibləri arasında qarşılıqlı münasibətlər, daşımaların düzgün təşkili məsələləri müzakirə olunur.

"Nobel qardaşları" şirkətinin arxivdə qorunan bir arayışı son bir ildə şirkətin gəmiçilik işinin mənzərəsini yaratmaq baxımından maraqlıdır. Arayışda qeyd edilir ki, şirkətin gəmiləri 1918-ci il noyabrın 17-dək Rusiya Su Nəqliyyatı İdarəsinin sərəncamında olub. Söhbət bolşeviklərin Bakıda hakimiyyəti ələ aldıqları dövrdən gedir.

Nobellərin gəmiləri 1918-ci il noyabrın 17-dən 1919-cu il iyunun 9-na qədər isə Böyük Britaniya Dəniz Nəqliyyatı İdarəsinin ixtiyarında olub. Hətta "Varvara" gəmisi iyulun 21-nə, "Zərdüşt" gəmisi isə iyulun 26-na qədər ingilislərin əlində olub.

Onlardan "Emmanuil Nobel", "Sokrat", "Soyuz", "Vladimir", "Sergey" gəmiləri Böyük Britaniya Dəniz Nəqliyyatı İdarəsi tərəfindən Könüllü ordunun sərəncamına verilib. Hələ də qaytarılmayıb...

Bu faktlar Nobellərin gəmilərinin əldən-ələ keçməsini təsdiq edir.

Amma bunlar bir-iki il əvvəl olmuşdu – bolşeviklərin özbaşınalığı və ingilislərin hökmranlığı dövründə...

İndi isə zaman başqa idi.

1920-ci ilin yanvarında Paris sülh konfransının Ali Şurası Azərbaycan Cümhuriyyətinin müstəqilliyini de-fakto tanımışdı. Ümid etmək olardı ki, artıq ölkə işğal və müdaxilə təhlükəsindən uzaqdır.

1920-ci il martın əvvəllərində Azərbaycan hökuməti xaricə mal və məhsullar aparılmasını tənzimləyən müvəqqəti qaydalar müəyyən etmişdi.

Bakıda fəaliyyətini davam etdirən "Nobel qardaşları" şirkəti nikbin ovqata köklənmişdi. Şirkətin Bakı kontoru fevral ayında şəhərdə yeni qurğular tikintisi ilə bağlı planlarını açıqlamışdı: yeni yaşayış evinin tikintisi, Binəqədidə elektrik stansiyasının, Binəqədi və Buzovnada yaşayış evlərinin, Suraxanı və Bibiheybətdə hamam və camaşırxananın tikilməsi nəzərdə tutulurdu.





1920-ci il aprelin 4-də Bakıda mayedaşıyan gəmi sahiblərinin ümumi yığıncağı keçirilir. Yığıncaqda "Adamov qardaşları" ticarət evinin, Şəmsi Əsədullayevin, "Volqa-Xəzər" cəmiyyətinin, "Volqa" cəmiyyətinin, Dadaşovların, "Mazut", "Okean" və "Petrol" cəmiyyətlərinin, Useynovların, Nobel qardaşlarının və s. gəmi sahiblərinin nümayəndələri iştirak edirlər.

Tədbirdə mayedaşıyan donanmanın gələcək fəaliyyəti, yük daşımalarının azaldığı indiki şəraitdə fərdi qaydada deyil, birgə fəaliyyət planları, eləcə də daşımalarla bağlı Azərbaycan hökuməti ilə əməkdaşlıq perspektivləri müzakirə edilir.

Qərara alınır ki, qarşıdan gələn naviqasiya ilində birgə fəaliyyət üçün müqavilə hazırlansın, neftin hər pudunun daşınmasının maya dəyəri müəyyən edilsin, hökumətlə birgə işləmək üçün mayedaşıyan gəmi sahibləri təşkilatının mövcudluğu Azərbaycan hökumətinin diqqətinə çatdırılsın və s.

Bu yığıncaqdan cəmi 24 gün sonra Azərbaycanda hakimiyyət dəyişəcəkdi.

Mayedaşıyan gəmi sahibləri təşkilatının ümumi yığıncağına sədrlik edən "Nobel qardaşları" şirkətinin nümayəndəsi, mühəndis İ.V.Pokrovski isə yeni hökumətdə Xəzər dəniz nəqliyyatı komissarına çevriləcəkdi...

Bütün bunlar sonra olacaqdı. Amma hələ 1919-cu ildə Nobel qardaşlarının bolşeviklərlə sövdələşməsi barədə şayiələr yayılmışdı.

# NOBELLƏR BOLŞEVİKLƏRLƏ GİZLİ DANIŞIQ APARIBMI?

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı tədqiqatların müəllifləri Giorgi Mamulia və Ramiz Abutalıbovun böyük zəhməti hesabına ərsəyə gələn "Ə.Topçubaşı. Paris arxivi. 1919-1940" adlı topluda Nobellərin 1919-cu ildə Rusiya bolşevikləri ilə əlaqə yaratmaq cəhdi barədə qeydlər var.

Məlum olduğu kimi, Rusiyada bolşeviklər hakimiyyətə gələndən dərhal sonra Antanta ölkələri hər vasitə ilə bu hökumətin iqtisadi blokadada saxlanılmasına çalışırdı. Rusiyanın vaxtilə istifadə etdiyi neftin 90 faizinə qədərini Bakı mədənləri verdiyi üçün Qərb dövlətləri Azərbaycanın müstəqilliyə can atmasını alqışlayırdı ki, Rusiya Bakı neftindən məhrum olsun. Lakin 1919-cu ildə Denikin qoşunlarının darmadağın edilməsi vəziyyəti xeyli dəyişir. Həmin dövrdə Nobellərin bolşeviklərə neft satmaq cəhdi barədə Antanta dövlətlərinə kəşfiyyat məlumatları daxil olur. Fransa hökumətinin ABŞ-ın Paris sülh konfransındakı nümayəndəsinə ünvanladığı məktubda açıq bildirilir ki, "yanacaq və yağlama vasitələrinin yoxluğu qısa vaxtda Rusiyanın nəqliyyat xidmətinin tamamilə dayanmasına gətirib çıxarmalı, həmçinin bolşevik diktatura rejiminə son dərəcə ağır zərbə vurmalıdır".

Fransa hökumətinin qənaətinə görə, Antanta ölkələri Bakı neftinin bolşeviklərin ixtiyarına keçməsinin qarşısını almaq üçün ölkənin neft mənbələrinin sahibi olan Azərbaycan hökumətini müdafiə etməlidir.

Təəssüf ki, Antanta ölkələri əvvəlcə bir müddət Azərbaycanı müdafiə etsə də, 1920-ci ilin aprelində onun işğalına göz yumdu. Və Azərbaycan nefti bolşevik Rusiyasının ixtiyarına keçdi...

1919-cu ildə Nobellər, həqiqətən də, bolşeviklərə müraciət edibmi? Bu suala cavab vermək çətindir. Çünki müvafiq arxiv sənədləri tapılmayıb. Amma təxminən bir il sonra V.İ.Lenin belə bir müraciətin olduğunu dilinə gətirib. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra...



# İSVEÇ SƏFİRİ: "DÜNƏN BOLŞEVİKLƏR BAKINI TUTDU"

1920-ci il aprelin 27-də XI Qırmızı ordunun Azərbaycana yeridilməsi ilə Xalq Cümhuriyyəti bütün hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul edir.

Aprelin 29-da şüşə-farfor istehsalı fəhlələrinin ümumrusiya qurultayında çıxış edən V.İ.Lenin deyir: "...dünən Bakıdan aldığımız xəbər də göstərir ki, sovet Rusiyasının vəziyyəti yaxşılığa doğru gedir; bilirik ki, sənayemiz yanacaqsız qalıb, budur, xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə alıb və Azərbaycan hökumətini devirib. Bu o deməkdir ki, biz indi bütün sənayemizi canlandıra bilən iqtisadi bazaya malikik".

Proletariatın rəhbəri daha sonra deyir: "Bakıda son günlərə qədər satış yeri olmayan milyonlarla pud neft yığılıb qalıb; bunun nəticəsidir ki, hətta neft sənayeçisi Nobel bu neftin sovet Rusiyasına çatdırılması barədə bizimlə danışıqlara başlamağa cəhd edirdi".

Rusiya bolşevikləri ilə hətta bu cür danışıq cəhdi olubsa belə, "Nobel qardaşları" şirkətinin Bakı kontoru 1920-ci il aprelin 27-də baş verənləri, daha doğrusu, Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu çevriliş hesab edib.

Şirkətin Bakı kontorunun ayrı-ayrı yazışmaları və hesabatları Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanılır. 1920-ci ilin aprel ayına dair Bibiheybət mədənlərindən göndərilən hesabatda deyilir ki, "aprelin axırında baş vermiş çevriliş və hakimiyyətin dəyişməsi ilə əlaqədar olaraq, fəhlələrin bir hissəsi özünün birbaşa vəzifələrindən uzaq düşüb, ictimai işlərə cəlb edilib" və s.

Bu cür hesabatlar, demək olar ki, bütün aylar üzrə hazırlanaraq səliqə ilə Bakı kontoruna göndərilib. Məsələn, 1919-cu ilin noyabr ayı üçün Balaxanıda "mədən həyatının sakit" keçdiyi barədə məlumat verilib.

1920-ci ilin fevral ayında hasilatın 13,41 faiz aşağı düşdüyü haqqında xəbər göndəriblər. Bunu da Bakıda havaların şaxtalı keçməsi ilə əlaqələndiriblər.

Mart ayında hasilat fevrala nisbətən 36,6 faiz çox olub və s.

Hətta çevrilişin baş verdiyi apreldə də martla müqayisədə 3,35 faiz artım qeydə alınıb...

Yeri gəlmişkən, 1920-ci il martın 27-də – çevrilişdən bir ay əvvəl Bakı Şəhər Upravası "Nobel qardaşları" şirkətinin Bakı kontoruna təşəkkür məktubu da göndərib. Şirkətə şəhərin su kəmərində yaranmış problemin aradan qaldırılmasında göstərdiyi kömək üçün təşəkkür edilib, yenidən yaranmış çətinliyin aradan qaldırılması üçün nasos stansiyasına təcrübəli mexanik verilməsi xahiş olunub.

Bu cür faktlar "Nobellər imperiyası" üçün, bəlkə də, olduqca kiçik və əhəmiyyətsizdir. Sadəcə, şirkətin Cümhuriyyət dövründə və ondan sonrakı aylarda fəaliyyətinə işıq salmaq baxımından maraqlıdır.

O da maraqlıdır ki, 1920-ci ilin aprel çevrilişindən dərhal sonra – aprelin 30-dan Bakı neftinin sovet Rusiyasına daşınmasına başlanılıb. Həmin gün Bakı limanından çıxan neft dolu gəmilərdən biri də "Robert Nobel" gəmisi olub. 107.440 pud mazut yüklənmiş gəmi...

Bu barədə o vaxtın "Kommunist" (rus dilində) qəzeti məlumat verib. Amma "Robert Nobel" gəmisinin yükü bolşevik Rusiyasına təmənnasız olaraq göndərilib. Çünki onda, N.Nərimanovun təbirincə desək, "Azərbaycan proletariatı çəkiyə qoymadan, mühasibat dəftəri aparmadan qiymətli nefti-ni sovet Rusiyasının tam ixtiyarına verirdi".

"Nobel qardaşları" şirkətinin Bakı kontoru Azərbaycanda sovet hakimiyyəti qurulandan bir müddət sonra da fəaliyyətini davam etdirir. A.Lessner həmin dövrü xatırladaraq yazırdı ki, "biz şirkət naminə çalışır, öz vəzifə borcumuzu yerinə yetirir və ümid edirdik ki, bolşeviklər tezliklə qovulacaq".

Sovet hakimiyyətinin nümayəndələri ilk vaxtlar "Nobel qardaşları" şirkətinin nümayəndələri ilə isti münasibətlər yaradır, xüsusən peşəkar əcnəbi mütəxəssislərin bilik və bacarığından maksimum yararlanmağa çalışırlar.

Şirkətin təmsilçisi A.Lessner hətta "Azneft"in sədri A.Serebrovski ilə mehriban münasibətlər qurur, müəyyən vaxtdan sonra onun icazəsi ilə Borjomidə istirahət etməyə də gedir. Onda hələ Gürcüstan sovetləşmədiyi üçün Nobellərin nümayəndəsi Tiflisdən Konstantinopola (İstanbul), oradan isə Avropaya qaça bilir.





Bundan sonra Balaxanı mədəninin rəisi və İsveç konsulu da Bakını tərk edir. Artıq onlar anlayır ki, bolşeviklər hakimiyyəti əldən verməyə hazırlaşmırlar...

O vaxtdan Bakıda qalan digər İsveç mütəxəssisləri də gizli yollarla Bakıdan – bolşeviklərdən qaçmağı üstün tuturlar.

...Öz memuarlarında Bakı haqda ağızdolusu danışan K.Hagelin 1920-ci ilin aprelində yenidən bu şəhərə qayıtmağa hazırlaşır. Bakıda şirkətin işini canlandırmağa ehtiyac var idi və Bakını daha yaxşı tanıyan mütəxəssisin bu şəhərə qayıtması nəzərdə tutulmuşdu.

K.Hagelin Fransadan İtaliyaya, oradan isə Konstantinopola gəlir. Təbii ki, o dövrdə Avropadan Bakıya qədər olan uzaq yolu asanlıqla qət eləmək mümkün deyildi. Qatar, gəmi və yenə qatar... Yollar uzun və məşəqqətli... Amma bütün bunlar onu yormur. K.Hagelini sevdiyi Bakı ilə növbəti görüş gözləyir. O, Konstantinopolda gəmidən düşən kimi İsveç səfirliyinə gedir və orada kədərli xəbər alır:

– Dünən bolşeviklər Bakını tutub. Azərbaycan Cümhuriyyəti daha yoxdur...

– Bəs ingilislər?

– İngilislər müqavimət göstərməyiblər. Onlar Bakını çoxdan tərk ediblər...

# SOVETLƏRİN İKİNCİ VƏ QƏTİ MİLLİLƏŞDİRMƏSİ

1920-ci il mayın sonunda Bakıda neft sənayesi milliləşdirilir.

Neft və neft məhsullarının satışı dövlət monopoliyası elan olunur.

Azərbaycan Hərbi İnqilab Komitəsinin bununla bağlı dekreti "Kommunist" qəzetinin 27 may tarixli nömrəsində dərc edilir.

İyunun 6-da isə "Kommunist" qəzetində Xəzər Ticarət Donanmasının milliləşdirilməsi haqqında dekret dərc edilir.

Dekretin 1-ci paraqrafında deyilirdi:

> "Bütün Xəzər Ticarət Donanmasının kimə məxsusluğundan asılı olmayaraq, bütün növ dəniz və çay gəmiləri, harada olmasına və nədən ibarət olmasına baxmayaraq, bütün daşınar və daşınmaz əmlakı ilə birlikdə ticarət donanmasına xidmət edən hər cür sahil qurğuları, kontorları, anbarları, agentlikləri və yardımçı müəssisələri Sovet Respublikasının mülkiyyətidir".

Əgər neft sənayesinin milliləşdirilməsi ilə Nobellərin neft sahəsində var-dövləti mənimsənilirdisə, bu dekretlə qardaşların bütün gəmiçilik təsərrüfatı sovetlərin mülkiyyətinə çevrilirdi.

Donanmanın milliləşdirilməsi barədə dekret iyunun 6-da dərc olunsa da, hökumət milliləşdirmə üzrə müvafiq komissiyanı yalnız iyunun 20-də təşkil edə bilir. Həmin gün Xəzər Su Nəqliyyatının Milliləşdirilməsi Komissiyasının ilk iclası keçirilir. İclasda digər məsələlərlə yanaşı, komissiyanın üzvü "Məmmədovun keçmiş "Nobel qardaşları" şirkətinin kontoruna getməsinin nəticələri" də müzakirə edilir.

Bu barədə məruzədə bildirilir ki, kontorun mühasibat sənədləri qaydasında deyil. Komissiya "bu hərəkəti donanmanın milliləşdirilməsi





haqqında dekretə qarşı sabotaj saymaq barədə", eləcə də tədbir görmək üçün müvafiq sovet orqanlarına məlumat vermək haqqında yekdilliklə qərar qəbul edir.

Nobellərin məsələsi iki gün sonra komissiyada bir də müzakirəyə çıxarılır.

Bu, 1920-ci ilin iyun ayına təsadüf edir...

Nobellər haqqında daha bir qərar qəbul olunur:

> "Nisbətən ikinci dərəcəli hesab olunan müəssisələrin qəbulu ilə əlaqədar, – Nobellər haqqında məsələ aydınlaşana qədər, – komissiyanın işini sadələşdirmək üçün bu müəssisələrdən material buraxılışı dayandırılsın; "Kamvo" və "Nobel" firmalarından başqa qalanları möhürlənsin".

Arxivdə saxlanılan və iyul ayına aid olan bir arayışda isə donanmanın milliləşdirilməsi ilə bağlı yaranan çətinliklərdən söhbət açılır. Milliləşdirmə üçün təqdim edilən siyahıdan cəmi 13 firmanın ("Abdullayev", "Adamov", "Dadaşov", "Rus", "Samolyot" və s.) milliləşdirildiyi bildirilir. Bu siyahıda Nobellərin adı çəkilmir...

Ən başlıcası isə milliləşdirmə haqqında dekret yazan sovet hakimiyyətinin su nəqliyyatı müəssisələrini təhvil götürməyə qabil mütəxəssisləri çatışmır. Məsələn, Nobellərin gəmiçilik şirkətinin mühasibat fəaliyyətini yoxlamağa sıravi gəmisürən Məmmədov göndərilir...

Məhz bu çətinliklər ucbatından qərara alınır ki, əvvəlcə kiçik, ikinci dərəcəli firmalar milliləşdirilsin. Nobellərin şirkəti isə qətiyyən kiçik deyildi...

Həmin dövrdə milliləşdirilən müəssisələr o qədər çox idi ki, onları təhvil götürmək uzun vaxt aparırdı. Məsələn, sovetlərin Dəniz Nəqliyyatı İdarəsinin qəbuledicilərinin Nobel zavoduna[1] buraxılması haqqında qərar 1920-ci ilin sentyabrında qəbul edilmişdi.

Hələ noyabrda Nobellərin ellinqi[2] milliləşdirilməmişdi. Komissiya bu işə başlamağa hazırlaşırdı...

Bütün bunlara baxmayaraq, donanmanın milliləşdirilməsi ilin sonuna qədər yekunlaşır. Bu müddətdə şirkətin zavod və emalatxanaları da

[1] Arxiv sənədində belə yazılıb.
[2] Gəmiləri təmir etmək üçün sahildə inşa olunan tikili və ya qurğu

fəaliyyətini davam etdirir. Bəziləri ya "keçmiş Nobel" şirkəti kimi, ya da, sadəcə, başqa adla...

Məsələn, 1920-ci ilin oktyabrında 17 yaşlı Balaxanı sakini Abuzər Əbdülhüseyn oğlunun Balaxanı neft mədənində tokar şagirdi kimi işə götürülməsinə dair tərtib edilən və indi də arxivdə saxlanılan anket blankında ""Nobel qardaşları" şirkəti" sözlərinin üstündən xətt çəkilərək "Cənubi Balaxanı rayonunun Mərkəzi Mexaniki Emalatxanası" sözləri yazılmışdı. O dövrdə artıq şirkətin Balaxanı kontoru, görünür, belə adlanırmış.





Abşeron yarımadasının geoloji xəritəsi. 1897-ci il

# РЕЗОЛЮЦІЯ

*Жюри по присужденію преміи имени Э. Л. Нобеля, 25 мая 1910 года.*

На соисканіе преміи имени Э. Л. Нобеля въ 1910 г. былъ представленъ только одинъ трудъ: Проектъ аппарата для сверленія отверстій и одновременно для заливки скважинъ,—подъ девизомъ: „простыя механическія приспособленія часто разрѣшаютъ сложныя и трудныя задачи".

Жюри въ составѣ С. М. Теръ-Крикоряна, К. Л. Бардскаго, Б. Г. Юзбашева, В. Н. Дѣлова и Л. Е. Меликъ-Нубарова, разсмотрѣвъ проектъ, вынесло слѣдующую резолюцію:

„Представленный проектъ не заслуживаетъ преміи имени Э. Л. Нобеля, но ввиду остроумной идеи, вложенной въ основу конструированія аппарата, жюри нашло возможнымъ выдать изобрѣтателю его въ видѣ поощренія триста руб. (300 р.) изъ преміальной суммы".

По вскрытіи закрытаго конверта авторомъ предложеннаго аппарата оказался рудничный инженеръ Константинъ Моисеевичъ Ильгисонисъ, кому и слѣдуетъ выдать назначенные ему 300 рублей.

Предсѣдатель жюри: *С. Теръ-Крикорянъ.*

Члены жюри: *Б. Юзбашевъ.*
*К. Бардскій.*
*Л. Меликъ-Нубаровъ.*

Bakıda E.L.Nobel adına mükafatın verilməsi barədə qərar. 1910-cu il

*Копія.*

# Протоколъ

Третьяго засѣданія (23 мая 1915 г.) Жюри по присужденію преміи Э. Л. Нобеля при Бакинскомъ Отдѣленіи Императорскаго Русскаго Техническаго Общества.

Присутствовали: Калантаръ, Квитка, Тихвинскій, Герръ в Сурабековъ.

Открывъ засѣданіе, предсѣдатель заявилъ о выходѣ изъ состава Жюри г.г. Блюмштейна и Муата, затѣмъ было приступлено къ обмѣну мнѣній относительно труда подъ девизомъ „Мѣра, вѣсъ, число„.

Послѣ обмѣна мнѣній былъ поставленъ вопросъ закрытой баллотировкой:

1)—Удостоить ли преміи представленный трудъ или нѣтъ.

Единогласно постановлено *Нѣтъ.*

2)—Выдать ли частную премію въ поощреніе за собранный матеріалъ.

Четыре (4) голоса *Нѣтъ.*

Одинъ (1) голосъ *Да.*

Предсѣдатель *А. Калантаръ.*

Члены: *Тихвинскій.*
*С. Квитка.*
*В. Герръ.*

Секретарь *Сурабековъ.*

Bakıda E.L.Nobel adına mükafatı verən münsiflər heyətinin protokolu. 1915-ci il



АКТОВАЯ БУМАГА ОТЪ 50 ДО 500 РУБ. СЕР. ЦѢНА ОДИНЪ РУБЛЬ СЕР.

Условіе №2

Городъ Баку. Тысяча восемьсотъ семьдесятъ шестаго года, двенадцатаго Мая. Мы, нижеподписавшіеся, Бакинскій житель Эйвазъ Кербалай Касимъ-оглы и жительствующій въ городѣ Баку, Шведскоподданный Бакинскій первой гильдіи купецъ, Робертъ Эммануиловичъ Нобель заключили нижеслѣдующее условіе. 1) Я, Эйвазъ Кербалай Касимъ-оглы, имѣю участокъ земли въ чертѣ выгона города Баку, означенный по плану Генеральнаго межеванія выгонной земли подъ №59, который я сего числа запродалъ Шведскоподданному Роберту Эммануиловичу Нобелю а такъ какъ въ этомъ участкѣ земли я не встрѣчаю ни какой надобности, то уступаю пользованіе онымъ во всѣхъ видахъ какъ поверхностію, такъ и его нѣдрами на время до совершенія купчей крѣпости или до окончанія спора о немъ съ городомъ Баку, безъ ограниченія, Роберту Эммануиловичу Нобелю. 2) Уступивъ оный

Robert Nobelin torpaq alqısına dair ilk müqavilələrindən biri. 1876-cı il




Balaxanıdan Qara şəhərə çəkiləcək neft kəmərinin planı. 1876-cı il



СОВѢТЪ
НАРОДНЫХЪ КОМИССАРОВЪ
КОМИТЕТЪ
РЕВОЛЮЦІОННОЙ ОБОРОНЫ
г. Баку и его районовъ.
„9“ Апрѣля 1918 г.
№ 54

*Отъ Комитета Революціонной Обороны*
*г. Баку и его районовъ.*

Въ Управленіе Акціонернаго О-ва Бр. Нобель.

*Постановленіемъ Комитета Революціонной Обороны отъ 6-го апрѣля н. ст. всѣ коммерческіе банки, кредитныя о-ва, нефтепромышленныя и торгово-промышленныя о-ва, фабрично-заводскія предпріятія, товарищества по буренію и пр. облагаются суммою въ* **пятьдесятъ милліоновъ** *(50.000.000) Рублей для организаціи Красной арміи и въ помощь пострадавшей бѣдноты во время послѣднихъ событій.*

*Для пропорціональнаго распредѣленія означенной суммы между капиталистами назначается общее собраніе представителей всѣхъ вышеуказанныхъ фирмъ въ помѣщеніи Исполнительнаго Комитета Совѣта Р, С. и М. Депутатовъ 10-го апрѣля н. ст. с. г. въ 6 час. вечера.*

*Всѣ приглашенные обязаны явиться на засѣданіе въ назначенный часъ, къ уклонившимся отъ явки Комитетомъ Революціонной Обороны будутъ примѣнены строгія мѣры.*

Члены Комитета
Революціонной Обороны

Секретарь

Qırmızı ordunun təşkili ilə əlaqədar
“Nobel qardaşları” şirkətindən pul tələbi ilə bağlı müraciət. 1918-ci il

# RUSİYADAN KOMPENSASİYA ALMAQ ÜÇÜN SONUNCU CƏHD

“Nobel qardaşları” şirkəti ilə sovet Rusiyası arasında əlaqələr, daha doğrusu, bu əlaqələrin qurulmasına cəhdlər 1922-ci ildən sonra başlayır.

1922-1923-cü illərdə Stokholmda yaşayan Nobellər sovet hökumətindən çar Rusiyasında itirilmiş əmlaklarının haqqının ödənilməsini tələb etməyə cəhd göstərirlər. Müxtəlif instansiyalara müraciətlər edilir, yazışmalar aparılır və... bütün bu cəhdlər nəticəsiz qalır.

Sovet hakimiyyətinin ilk illərində dərin iqtisadi böhran yaşayan Rusiya isə vəziyyətdən çıxmaq üçün xarici neft şirkətləri ilə əməkdaşlığa can atır. Amerikanın “Standard Oil” və ingilis-holland “Royal Datch Shell” şirkətləri ilə danışıqlar aparılır. Amma xarici şirkətlərin Rusiyadakı əmlakı ilə bağlı problemlərin həll edilməməsi əməkdaşlığa mane olur.

Qərbin ən böyük neft sənayeçiləri Genuya (aprel-may 1922-ci il) və Haaqa (iyun-iyul 1922-ci il) konfranslarında xarici şirkətlərin Rusiyadakı əmlakının qaytarılması məsələsini qaldırırlar. Bu danışıqlarda sovet hökumətindən hər hansı güzəşt ala bilməyən şirkətlər “neft blokadası” yaratmaqla sovet dövlətinə təsir göstərmək niyyətinə düşür.

Rusiya tədqiqatçılarının yazdığına görə, Haaqa konfransı başa çatan kimi – 1922-ci il iyulun 21-də “Standard Oil”, “Shell” və “Branobel” şirkətlərinin rəhbərlərinin London görüşündə məsələ qaldırılır ki, sovetlərin neft ixracını boykot etsinlər. Onlar dünya bazarının iştirakçılarını “sovetlərin neft sənayeçilərindən oğurladığı neft”i almamağa çağırırlar. Lakin şirkətlər arasında fikir ayrılığı bu vasitənin də səmərəli olmadığını tezliklə sübut edir və neft sənayeçilərinin istəyi, xüsusən Nobellərin nümayəndələrinin yenidən Bakı zavodlarına sahib çıxmaq arzusu reallaşmır...

Emmanuil Nobel Rusiyada qoyub getdiyi əmlakın əvəzinə heç bir kompensasiya almadan 1932-ci ildə dünyasını dəyişir.

Amma Emmanuil Nobel bütün bunların əvəzində... ona Bakını, Bakı neft mədənlərini, daha doğrusu, bizim Atəşgah kimi tanıdığımız məbədin əks olunduğu qiymətli suveniri ömrünün son günlərinə qədər evində saxlayır.

Uzaq İsveçdə...

Niyə məhz Atəşgah rəmzi?

Bu bir başqa tarixçədir...



# SURAXANI, ATƏŞGAH VƏ... 2,6 MİLYON DOLLARA SATILAN SAAT

2006-cı ildə Stokholm şəhərinin məşhur Bukovskis hərracına çıxarılan qiymətli divar saatına əvvəlcə 1-1,5 milyon avro qiymət qoyulur. Amma hərrac başlayan kimi qiymət sürətlə qalxmağa başlayır və... həmin divar saatı 2,1 milyon avroya və ya 2,6 milyon dollara satılır.

Bir divar saatı üçün böyük məbləğdir!

Amma bizim üçün hərracda bir divar saatına bu qədər pul verilməsi qətiyyən maraqlı deyil. Dünya hərrac tarixində bundan da bahalı əşyalar satılıb və bundan sonra da satılacaq.

Bukovskis hərracında satılan divar saatının bizim Atəşgahın modeli kimi hazırlanması isə artıq başqa məsələdir. Boz mərmərdən hazırlanan Atəşgah modeli qırmızı mərmər altlığın üstündə qərar tutub. Atəşgahın üstündəki məşəllər də unudulmayıb. Məbədin üstündəki məşəl üçün çəhrayı mineraldan – rodonitdən istifadə edilib.

Saatın arxa tərəfində Balaxanı neft mədənlərinin mənzərəsi görünür...

Lap aşağıda yapışdırılmış gümüş vərəq üzərində Abşeron yarımadasının xəritəsi verilib. Ondan aşağıda isə Lüdviq və Emmanuil Nobellərin kiçik profili...

Yəqin ki, bir divar saatının 2006-cı ildə İsveçdə niyə belə baha satıldığının səbəbi aydın oldu. Nobellər və yenə də Nobellər...

Emmanuil Nobel onun üçün hər şeydən əziz olan bu suveniri Rusiyada inqilab baş verənə qədər vətəninə aparmışdı. Yoxsa 1918-ci ilin qarışıq günlərində başqa pasportla Rusiyanı gizli tərk edəndə artıq nə saat vaxtı idi, nə də qiymətli aksiyalar...

E.Nobel bu saatı 1906-cı ildə xüsusi sifarişlə, xüsusi bir tarix üçün hazırlatdırmışdı. Həmin il "Nobel qardaşları" şirkəti Bakıda milyardıncı pud xam nefti çıxarmışdı və həmin gün şirkət üçün bayram günü sayılırdı.

E.Nobel bu təntənəli gün üçün hədiyyəni Peterburqdakı məşhur zərgərlik şirkətinə – "Faberje evi"nə sifariş vermişdi. Rusiyada bolşevik hakimiyyəti qurulana qədər bu şirkət zərgərlik sahəsində dünyanın ən aparıcı şirkəti sayılırdı. Şirkətin alman əsilli sahibi Karl Faberje Rusiya çar ailəsi üçün hazırladığı zərgərlik məmulatları ilə tarixə düşmüşdü.

Məhz Bakıda milyardıncı pud neft çıxarılan ərəfədə E.Nobel belə bir suvenir hazırlamağı xahiş etmiş, Atəşgah modelini həmin hədiyyə üçün əsas element seçmişdi.

Niyə Atəşgah?

Nobellər ailəsindən ilk dəfə Bakıya gələn Robert Nobel Suraxanıdakı Atəşgah məbədini görəndə qəribə hisslər keçirmişdi. Və Bakıdan qardaşı Lüdviqə göndərdiyi bir məktubda yazmışdı ki, "mənim Bakıdakı gördüklərimi üç sözlə belə ifadə etmək olar: od, isti və güc".

Yeri gəlmişkən, Nobellər ömürləri boyu "güc" sözünə xüsusi əhəmiyyət veriblər.

Hələ Robertin Bakıya gəlməsindən xeyli əvvəl Alfred nitroqliserini digər maddələrə qatmaqla ondan istifadəni sadələşdirmiş və yeni kəşfinin adını "dinamit" qoymuşdu. Yunan sözü olan "dinamit"in mənası "güc" demək idi...

Nobellər güc tərəfdarı idi...

Elmin gücünə arxayın idilər...

Zəkanın gücünə inanırdılar...

Öz güclərinə güvənirdilər...

Suraxanıda Atəşgahla yaxından tanış olandan sonra isə Robert Lüdviqə yazmışdı:

> "Bilirsənmi, Zərdüşt deyərdi ki, mənəvi saflıq və müqəddəslik qazanmaq üçün insan daim qəlbini təmiz saxlamalıdır..."

Bu o dövr idi ki, Avropada "Zərdüşt deyərdi ki..." kəlamı geniş yayılmışdı. Avropa Zərdüşt fəlsəfəsi ilə yaxından maraqlanırdı. İşıqla qaranlığın, xeyirlə şərin mübarizəsinə dair traktatlar yazılırdı. Atəşpərəstliyin köklərini araşdırmağa maraq artmışdı.

Avropada bu müzakirələrin iştirakçısı olan Robertin Atəşgahda gördükləri, bu məbəd barədə eşitdikləri onu yeni bir aləmə aparmışdı. Və tezliklə neftin təmizlənməsi üçün aldığı zavoda "Bakıda R.E.Nobelin mineral





işıqlandırıcı yağlar zavodu" adı vermişdi. O, işıqlandırıcı yağlar istehsal edirdi. İnsanlara işıq vermək üçün...

Atəşpərəstlik fəlsəfəsinə bu maraq qardaşları sonralar da tərk etməyəcək və... Lüdviq 1878-ci ildə Xəzərdə üzməyə başlayan ilk neftdaşıyan tankerə o dövrün adətinə uyğun olaraq, çar ailəsindən kiminsə adını yox, "Zərdüşt" adını verəcəkdi.

Daha bir neçə il keçəcək və qardaşlar dünyaca məşhur olan şirkətlərini təsis edəcəkdilər. Və həmin şirkətin loqotipi kimi Atəşgah simvolunu seçəcəkdilər...

Nobellər neftin təmizlənməsi ilə insanın təmizlənməsi arasında paralellər axtaracaqdılar. Robert məktublarının birində atəşpərəstlərin ibadətindən söhbət açacaq və yazacaqdı:

> "Qəribədir, bu mənə sanki neftin saflaşdırılması qaydasını xatırladır".

1906-cı ildə Bakıda neftin milyardıncı pudunu çıxaranda artıq dünyada olmayan qardaşların davamçısı – L.Nobelin oğlu Emmanuil Nobel "Faberje evi" şirkətinə Atəşgah simvollu qiymətli divar saatı sifariş verəcəkdi.

Hədiyyənin sifariş olunan obyektə uyğun şəkildə hazırlanması, yəni onun dəqiq oxşarını yarada bilmək üçün "Faberje evi" Bakıya öz nümayəndələrini göndərir.

Azərbaycan Respublikasının Dövlət Kino-Foto Sənədləri Arxivində Atəşgah məbədinin üstündə və həyətində onlarla Avropa geyimli adamın olduğu görünən bir foto saxlanılır.

Fotonun arxasında şəkil üçün müşayiətçi söz yazılmayıb. Məşhur fotoqraf M.Mişonun çəkdiyi bu fotoda məhz "Faberje evi"nin nümayəndələrinin saat hazırlamaq üçün ölçmə işləri apardıqları ehtimal olunur.

# ƏBƏDİ MƏŞƏLƏ SİTAYİŞ QURTARDI, NEFT ZAVODU TİKİLİR

Suraxanıdakı məbəd o dövrdə Bakıya gələn hər bir əcnəbi üçün maraqlı gəzinti yeri olub. Nobellər bu şəhərə gələn qonaqlarını mütləq Suraxanıya aparıblar.

İmperator III Aleksandr 1888-ci ilin oktyabrında Qafqaza səfəri çərçivəsində Bakıda olarkən imperator ailəsinin üzvlərini də "əbədi məşələ və hindli atəşpərəstlərin məbədinə baxmaq üçün", indiki terminlə desək, maraqlı turist obyekti kimi Atəşgaha aparıblar.

Xatırladaq ki, Rusiya imperatorunun Bakıya ilk səfərində onu həyat yoldaşı – imperatriçə Mariya Fyodorovna, oğlanları: taxt-tacın vəliəhdi, Böyük knyaz Nikolay Aleksandroviç və Böyük knyaz Georgi Aleksandroviç müşayiət edirdilər.

Polkovnik Pottonun çar ailəsinin Qafqaza səfəri barədə hazırladığı kitabda Atəşgah məbədi barədə ətraflı məlumat verilir, burada yaşayan hindli atəşpərəstlərdən söhbət açılır:

> "60-cı illərə qədər köhnə qafqazlılar və Qafqaza gələn turistlər, demək olar ki, lüt, arıq, qupquru, boğucu qazla diri-diri zəhərlənən və mumiyaya dönən bu fanatikləri yaxşı xatırlayırlar... İndi Qafqazda onlardan biri də qalmayıb. Onların axırıncı nümayəndələrini knyaz Baryatinskinin canişinliyi dövründə dağlardan gəlmiş hansısa dəstə, görünür, qiymətli şeylər tapmaq məqsədilə qırıb və təbii ki, burada qiymətli heç nə tapılmayıb. O vaxtdan məbəd boşdur".

Söhbət 1888-ci ildən gedir.





Knyaz Aleksandr Baryatinski 1856-1862-ci illərdə Qafqaz canişini olmuşdu.

1896-cı ildə isə Nobellər şirkətinin Bakı kontorunda işləyən gənc isveçli qadın Atəşgah barədə təəssüratlarını anasına yazdığı məktubda bölüşürdü:

> "Nobellər hamımız üçün Suraxanıya çox maraqlı səfər təşkil etdilər. Zərdüştün davamçılarının əbədi məşələ ibadət etdikləri atəşpərəstlik məbədinə baxmağa getdik. Düzdür, ibadətgah indi boş və baxımsızdır, amma orada hələ də məşəl yanır. Əvvəllər məşəl hər otaqda və həyətdə yanıb. İndi isə ancaq böyük qüllənin dörd küncündə məşəl alovlanır. Bu alov bütün həyəti işıqlandırır və gecə səhrasında uzaqdan görünür... Mən rəfiqəmlə gizlənib burada qalmağa, hamı gedəndən sonra atəşpərəstlər kimi alova sitayiş etməyə hazır idim..."

O dövrdə Atəşgah, həqiqətən də, kimsəsiz idi.

Polkovnik Pottonun yazdığına görə, həmin dövrdə artıq "tərki-dünya insanların dini tamaşalarını qaynar zavod fəaliyyəti əvəz etmişdi və Bakının əbədi məşəli başqa, daha praktik sənaye məqsədlərinə xidmət etməyə başlamışdı".

O, "praktik sənaye məqsədi" deyəndə neft istehsalını nəzərdə tuturdu.

İlk dəfə Suraxanı torpaqlarından sənaye məqsədilə istifadə edən isə məşhur neft sənayeçisi Kokerev olmuşdu. O, 1859-cu ildə Atəşgah məbədinin yaxınlığında ilk neftayırma zavodu açmışdı.

Ona görə də Bakı Neft Cəmiyyətinin sədri Atəşgahda olan çar ailəsinə Suraxanı mədənlərinin fotoları toplanmış albom hədiyyə etmişdi.

Yeri gəlmişkən, "Nobel qardaşları" şirkəti Bakıda olan imperatora və onun ailə üzvlərinə nə və ya nələr hədiyyə edib? Ümumiyyətlə, Nobellərin hədiyyə verməklə arası necə olub?

Bu isə daha maraqlı tarixçədir...

# III ALEKSANDR BAKIDA: TƏNTƏNƏLİ QARŞILANMA

Əsas məqsədi Bakıda inşa olunacaq Aleksandr Nevski kilsəsinin təməlini qoymaq olan imperator III Aleksandr Bakıya 1888-ci ilin oktyabrında gəlir. Bakı Rusiya imperatorunu onun tituluna və dövrün qaydalarına uyğun böyük təmtəraq və təntənə ilə qarşılayır.

Şəhər bir neçə gün əvvəldən bəzədilir, küçələr səliqəyə salınır. Bakı dəmiryol vağzalı isə tanınmaz şəklə salınır. Hər yan gül-çiçək, hər tərəfdə xalı-xalça...

Şəhər başçısı vağzalda imperatoru düz-çörəklə qarşılayır.

Çar və ailə üzvləri vağzaldan kilsəyə gedirlər. Sonra ayrı-ayrı nümayəndə heyətləri: Bakı tacirləri, Teymurxan-Şura, Dərbənd və Petrovskdan gələn heyət, Orta Asiya xalqlarının təmsilçiləri də imperatora xüsusi hazırlanmış gümüş qablarda duz-çörək, ardınca ailə üzvlərinə hədiyyələr təqdim edirlər – xəncərdən tutmuş xalçaya qədər...

Günorta ali qonaqlar çarın arvadının adını daşıyan Mariya qadın gimnaziyasında olur, oradan isə Müqəddəs Nina məktəbinə baş çəkirlər.

Bütün bunlardan sonra III Aleksandr ailə üzvləri ilə birlikdə Aleksandr Nevski kilsəsinin təməlqoyma mərasimində iştirak edir.

Məlumat üçün bildirək ki, o vaxt təməli qoyulan və bakılıların "Qızıllı kilsə" kimi tanıdıqları Aleksandr Nevski kilsəsi Bakının indiki 190 nömrəli məktəbinin yerində olub. 1936-cı ildə bolşevik hökuməti bir çox ibadət evləri kimi, "Qızıllı kilsə"ni də yerlə yeksan edib...

Çarın Bakıda olduğu birinci axşam bütün şəhər çılçırağa bürünüb. Xəzərdəki başqa gəmilər bir yana, yalnız "Kavkaz i Merkuri" şirkətinə məxsus "İmperator III Aleksandr" gəmisi 3000-dək elektrik lampası ilə işıqlandırılıb.





Elə həmin axşam şam yeməyindən sonra çarın arvadı oğlanları ilə birlikdə xüsusi qatarla Suraxanıya – Atəşgah məbədinə baxmağa gedir. Qonaqları hərbçilər, Əmircan, Bülbülə və Suraxanı sakinləri alqışlarla qarşılayırlar.

Quberniya rəisinin xanımı imperatorun xanımına gül buketi təqdim edir, sonra qonaqlara Atəşgahın və Suraxanı zavodunun şəkillərindən ibarət albom hədiyyə olunur. Çay süfrəsi arxasında qısa söhbətdən sonra çar ailəsini gətirən qatar Bakıya dönür.

Növbəti gün imperator ailə üzvləri ilə Bayıl buxtasına səfər edir, dənizçilərin kilsəsində olur, hərbçilərin paradına baxır.

Nahardan sonra qonaqlar neft sənayesi ilə tanış olmaq üçün Qara şəhərə gəlirlər.

# İMPERATORLA ÜZBƏÜZ: EMMANUİL NOBEL RUSİYA VƏTƏNDAŞI OLUR

Çarın neft sənayesi ilə tanışlığı Qara şəhərdən başlayır. Bir gün əvvəldən imperatorun keçəcəyi küçələrə neft tullantıları səpilir ki, faytonların təkərləri səs salmasın, toz-duman olmasın. Necə deyərlər, "küçələrə su səpmişəm..."

Çarın keçdiyi küçələrə isə su yox, neft tullantısı səpilmişdi və şahidlərin dediyinə görə, "faytonlar sanki xalça üzərində hərəkət edirdi".

İmperatorun korteji günorta saat 3-də Nobel qardaşlarının zavodlarına gəlir. Zavodun xüsusi bəzədilmiş qapılarında çar ailəsinin üzvlərini şirkətin rəhbərləri Emmanuil Nobel və xanım Nobel, eləcə də istefada olan general-mayor Bilderlinq qarşılayırlar.

Xanım Nobel imperatorun həyat yoldaşına brilyantlarla bəzədilmiş qızıl port-buketdə gül çələngi təqdim edir.

E.Nobel isə xüsusi hazırlanmış gümüş qabda imperatora duz-çörək təqdim etmək şərəfinə nail olur. Duz-çörəyin qoyulduğu qab gümüşdən hazırlanmış, qabın içinə dövlət gerbi və çarın ad-familiyasının baş hərfləri həkk edilmiş, yanlarda isə neftdaşıyan gəmi, neft fontanı, neft buruğu modelləri işlənmişdi. Qabın ortasında zavodun ümumi görünüşü əks olunmuşdu. Bütün bunlardan başqa, "Əlahəzrət imperatora zati-aliləri tərəfindən təsis olunmuş "Nobel qardaşları" şirkətindən" sözləri yazılmışdı.

Şahidlərin dediyinə görə, imperator qabda əks edilmiş fiqurlara çox diqqətlə baxır. Bu və gül buketinin qoyulduğu qablar E.Nobelin sifarişi ilə Moskvadakı məşhur Ovçinnikov fabrikində hazırlanmışdı.

"P.A.Ovçinnikov" firması o dövrdə Rusiyanın ən məşhur zərgərlik fabriki sayılıb. Fabrik imperator ailəsi üçün qızıl və gümüş zərgərlik malları hazırlaması ilə məşhurlaşıb.





E.Nobel çar ailəsinə hədiyyələrin harada hazırlanmalı olduğunu yaxşı bilirdi...

Çarın keçdiyi yolda binanın divarına zavodun böyük rəsmi çəkilmişdi. Bu rəsm barədə imperatora E.Nobel özü, onun həyat yoldaşına P.Bilderlinq, onların övladlarına K.Nellis məlumat verir.

İmperator ailəsinin üzvləri zavodla yaxından tanış olur, bütün istehsal prosesini izləyirlər.

Zavodda neft istehsalı ilə yaxından tanış olan qonaqlar şirkətə məxsus dəniz körpüsünə çıxır, oradan kerosinin gəmilərə doldurulmasını müşahidə edirlər. Dəniz körpüsü də başdan-ayağa xalçalarla döşənmişdi.

Bundan sonra "Nobel qardaşları" şirkətinin Rusiyadakı və xaricdəki zavod və anbarlarının şəkli olan təmtəraqlı albom imperatora təqdim edilir.

Albomun gümüş üz qabığını Bakı xan sarayının – Şirvanşahlar sarayının Şərq üslubunda işlənmiş təsviri bəzəyirdi.

İmperatorun vəliəhdinə – şahzadəyə isə rus üslubunda palıddan hazırlanmış mücrü hədiyyə edilir. Neft sənayeçilərinin təşkil etdiyi çay süfrəsində isə E.Nobel vəliəhd-şahzadəyə daha bir hədiyyə – gümüş mürəkkəbqabı hədiyyə edir.

İmperatorun üçüncü oğlu, Böyük knyaz Georgi Aleksandroviç də unudulmur. Ona neft çəni formasında gümüş portsiqar hədiyyə olunur.

Bəs imperatorun xanımı?

Nobellər qadına daha təmtəraqlı hədiyyə təqdim edirlər – ona qızıldan hazırlanmış şəbəkəli qabda güllər bağışlanır. Şəbəkələrin arası isə rəngbərəng şəffaf emalla elə işlənib ki, rənglər gah ikibaşlı qartala, gah da imperatorun xanımının adının baş hərflərinə çevrilir.

Bütün bunlardan sonra "zati-aliləri ev sahiblərindən şampan qədəhini qəbul etməklə onları şərəfləndirib və neft işinin çiçəklənməsi şərəfinə badə qaldırıb".

Bu, Nobellər üçün, həqiqətən də, böyük şərəf idi!

Mehriban qarşılanmaya görə şirkətin rəhbərliyinə Bakının sənaye həyatında böyük əhəmiyyətli fəaliyyətləri üçün təşəkkür edən imperator elə buradan da Suraxanı və Balaxanı neft mədənlərinə yola düşür.

Neftin çıxarılmasına və neft fontanlarına tamaşa edən qonaqlar bir neçə şirkətin mədənlərində olur, qazma işlərinə baxırlar. Sonra zati-aliləri mədəndə çay içməklə "mədən sahiblərinə şərəf verir..."

Yeri gəlmişkən, III Aleksandr Bakıya səfəri zamanı müsəlman neft sənayeçilərinin mədənlərinə baş çəkməyib...

Göründüyü kimi, imperator ailəsi Bakıda olduğu bir neçə gün ərzində cəmi bir neçə neft sənayesi obyektini ziyarət edir ki, onlardan da birincisi Nobellərə məxsus zavodlar olur. Təbii ki, bu da Rusiya hakimiyyət dairələrinin Nobellərə yaxşı münasibətindən xəbər verirdi.

Təsadüfi deyil ki, E.Nobel bu görüşdən sonra imperatorun təkidi ilə Rusiya təbəəliyini qəbul edir. Bu vaxta qədər Rusiyada işləyən Nobellərin hamısı İsveç təbəəsi olaraq qalmışdı. Amma əvəzində qardaşlardan ikisi Rusiyanın az qala bütün ordenləri ilə təltif edilmişdi.

Lüdviq hələ 1858-ci ildə donanma üçün buxar maşınları hazırladığına görə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni, 1870-ci ildə sənaye sahəsində səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə, 1871-ci ildə ordunun silahlandırılması sahəsindəki xidmətlərinə görə 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə, 1875-ci ildə İjevsk silah zavodunun texniki hissəsinin yenidən qurulmasına görə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilmişdi. 1882-ci ildə isə ona 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni verilmişdi.

Emmanuil isə hələ III Aleksandrın Bakıya səfərindən təxminən bir ay əvvəl – avqustun 30-da 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdu. O, 1892-ci ildə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni, 1895-ci ildə 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni, 1898-ci ildə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni, 1902-ci ildə 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni almışdı. 1909-cu ilin mayında isə xeyriyyəçilik fəaliyyəti nəzərə alınaraq, ona "Həqiqi mülki müşavir" rütbəsi verilmişdi.



# NOBELLƏR VƏ İBADƏT EVLƏRİ

Nobellərin xeyriyyəçilik fəaliyyəti haqqında da çoxlu əfsanə və həqiqətlər söylənilir. Sözsüz, o dövrdə maliyyə çətinliyinə düşən ayrı-ayrı adamlar, eləcə də müəssisə və təşkilatlar çox vaxt Nobellərin qapısını döyüblər. Bəs onlar hamıya kömək edibmi?

Bu artıq başqa məsələdir.

Amma Nobellər yardım və ianə işinə də həmişə ciddi və düşünülmüş şəkildə yanaşıblar. Necə deyərlər, hər yoldan ötənə pul verməyiblər.

Bununla belə, Nobellər şirkətdə çalışan fəhlə və qulluqçuların problemlərinin həllində, xüsusən uşaqlarına təhsil vermək istəyən valideynlərə yardım göstərməkdə xəsislik etməyiblər. Bakıda ayrı-ayrı fərdi adamlardan tutmuş kilsə, məscid və məktəb tikdirmək istəyənlərə qədər çoxlarının yardım üçün şirkətə müraciət məktubları arxivlərdə qorunur. Bakıda sonralar "Kirxa" kimi tanınan lüteran kilsəsinin tikintisinə "Nobel qardaşları" şirkətinin 70 min rubl ianə verdiyi barədə sənədlər də o cümlədən...

Lüteran kilsəsinin bünövrəsi 1896-cı ilin martında qoyulur. Mərasimdə Bakı qubernatoru və şəhər başçısı, eləcə də Emmanuil Nobel, onun analığı – Lüdviqin ikinci arvadı da iştirak edir.

Kilsə 1899-cu ildə istifadəyə verilir, 1900-cü ilin aprelində isə burada ilk dəfə orqan musiqisindən ibarət konsert təşkil olunur.

Memar Adolf Eyxlerin layihəsi əsasında inşa olunan kilsə bu gün də Bakının tarixi memarlıq abidələrindən biri kimi şəhərimizə yaraşıq verir. Söhbət indi 28 may küçəsində yerləşən və Azərbaycan Dövlət Filarmoniyasının orqan və kamera musiqisi zalı kimi fəaliyyət göstərən binadan gedir...

Bakıda Roma katolik kilsəsi tikdirmək istəyənlər də vaxtilə Nobellərə müraciət ediblər.

Şəhərdə katoliklərin sayının ilbəil artmasını nəzərə alan Rusiya imperatoru 1903-cü ildə burada Roma katolik kilsəsinin tikintisinə icazə verir.

Tezliklə kilsə tikintisi üçün ianə toplanması məqsədilə komitə yaradılır. Bakı Şəhər Duması həmin ilin aprelində kilsənin tikintisi üçün torpaq sahəsi də ayırır. İanə üçün komitə yaradılmasından bir il ötür və lazımi miqdarda vəsait toplamaq mümkün olmur. Səbəb sadədir: yerli katoliklərin əksəriyyəti kasıbdır. Həm də ianənin yalnız Bakı quberniyası ərazisində və 3 il ərzində toplanmasına icazə verilir.

Lakin yenə də ianə yığılmasında problem yaranır. Nəhayət, komitə 1904-cü ilin martında "Nobel qardaşları" şirkətinə müraciət etməli olur:

> "Sizin ümumi işlərə ürək yandırdığınızdan və arasında çoxsaylı katoliklərin də olduğu işçilərinizə göstərdiyiniz qayğıdan xəbərimiz olduğu üçün komitə acizanə surətdə sizə müraciət etməyi özünün borcu sayır: xahiş edirik, Bakı şəhərində Roma katolik kilsəsinin tikilməsi işinə xeyirxah köməyinizi əsirgəməyəsiniz".

Nobellər bu kilsənin tikintisinə yardım ediblər, ya yox? Bunu demək çətindir. Amma tikintinin 1915-ci ilə qədər uzandığı barədə dəqiq məlumat var. Belə uzun müddətə başa gələn kilsənin fəaliyyət dövrü isə uzun çəkmir. Azərbaycanda bolşevik hakimiyyəti qurulur və kilsənin binasından anbar kimi istifadə edilir və 1935-ci ildə dağıdılır.

O dövrdə Nobellərə təkcə xristianlar müraciət etmirdi. 1907-ci ilin avqustunda Balaxanı-Sabunçu mədən rayonunun müsəlmanları adından Məşədi Cəfər Süleyman oğlu və Rza Həsən oğlu Nobellərin Bakı kontorunun müdirinə ərizə ilə müraciət edirlər:

> "Allahın və xeyirxah adamların köməyi ilə biz Balaxanı kəndində məscid tikintisinə başlamışıq ki, istər fəhlələr, istərsə də bura gələn qonaqlar ibadət edə bilsinlər. Çünki burada və ətraf kəndlərdə məscidlər balaca olduğundan hamı ibadət edə bilmir".

Məsciddən yerli əhalinin, o cümlədən Nobellər şirkətində işləyən çoxsaylı müsəlmanların da istifadə edəcəyini nəzərə alaraq, şirkətdən tikinti üçün maliyyə yardımı göstərilməsi xahiş olunur.

Balaxanı müsəlmanlarının müraciəti ilə əlaqədar dərhal Peterburqdan Bakı kontoruna cavab verilir:





> "...Balaxanıda məscid tikintisi ilə bağlı məsələ təzə deyil. Belə bir xahişlə bizim şirkətə ötən il də müraciət olunmuşdu. Amma o vaxt söhbət yalnız iranlı müsəlmanlar üçün məscid tikintisindən gedirdi".

Məktubdakı "iranlı müsəlmanlar" ifadəsi altında şiə müsəlmanlar nəzərdə tutulurdu.

Ona görə də o vaxt Peterburqdan Bakı kontorunun müdiri Artur Lessnerlə məsləhətləşmə aparılır və qərara alınır ki, məscid tikintisinə yardım olunmasın. Niyə?

Şirkət yardım verməkdən imtinanın səbəbini belə izah edir:

> "Bizim fəhlələr arasında İslamın müxtəlif təriqətlərinə ibadət edən müsəlmanlar var və indiki halda yardımımız fəhlələrin yalnız bir hissəsinin tələbatının ödənilməsinə sərf oluna bilər. Bu isə yaxşı hal deyil və digər müsəlman fəhlələrin də onlara məscid tikilməsi üçün yardım istəmələrinə səbəb ola bilər".

İdarə Heyətinin qənaətinə görə, indi vəziyyət başqa cürdür: məscidin məzhəbindən asılı olmayaraq, bütün müsəlmanlar üçün tikilməsi nəzərdə tutulur...

Ona görə də Peterburq ofisi məscid tikintisinə yardım göstərilib-göstərilməməsi məsələsini Bakı kontorunun öz ixtiyarına verir.

Ən maraqlısı isə odur ki, belə müzakirələr aparılsa da, sonda İdarə Heyəti Balaxanı müsəlmanlarının xahişinə müsbət cavab vermir. Görünür, müraciətə ilk tələsik cavabdan sonra məsələ araşdırılır və yardımdan imtina etmək üçün kifayət qədər sanballı əsas tapılır:

> "Neft sənayeçilərinin 23-cü qurultayının qərarı ilə Balaxanıda məscid tikintisinə 11 min rubl vəsait köçürülüb. Həmin ümumi vəsaitin içində bizim şirkətin də böyük ianəsi olduğu üçün ayrıca şirkət adından yardım göstərilməsini artıq iş hesab edirik".

Bu yazışma da göstərir ki, Nobellərin şirkəti göstərilən hər bir yardımın da hansı nəticə verəcəyini qabaqcadan hesablayır və nəzərə alırdı.

# EMMANUİL NOBEL BİBİHEYBƏT MƏSCİDİNDƏ

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində saxlanılan sənədlər arasında Emmanuil Nobelin Bibiheybət məscidinin mühafizi Baxış Bünyatov və digər dindarlarla birlikdə çəkilmiş şəkli var.

Onun Bibiheybət dindarları ilə görüşməsinə şirkətlə məscidin mühafizi imam Baxış Bünyatov arasında yazışmalar səbəb olub.

Məsələ burasındadır ki, "Bibiheybət bağları" deyilən ərazi – Bibiheybət məscidinin yanındakı neftli torpaq sahələri 1873-cü ildə 24 illiyə İosif Cakeli adlı neft sənayeçisinə icarəyə verilmişdi. O, torpağın icarə müqaviləsinə əsasən məscidin mühafizi B.Bünyatovun özünə və məscid icmasına ildə müəyyən olunmuş miqdarda pul ödəyirdi. Lakin sonradan bu torpaqlar "Nobel qardaşları" şirkətinə satılır.

1907-ci ildə məscidin mühafizi imam Baxış vaxtilə bağlanmış müqaviləni xatırladaraq şirkətə müraciət edir ki, başqa neft sənayeçiləri kimi, Nobellər də Bibiheybət məscidinə hər il yardım göstərsin.

Şirkətin daxili qaydalarına uyğun olaraq, imam Baxışın müraciəti Peterburqa göndərilir və oradan cavab verilir:

> "Heç bir məlumatı olmadığı üçün İdarə Heyəti bu məsələ ilə bağlı qərar çıxarmaqda çətinlik çəkir və Bakı kontorundan xahiş edir ki, məsələ yerində araşdırılsın".

Burada da problemə maraqlı yanaşma var: Peterburqdan imamın müraciətinə "digər firmaların necə yanaşmasından asılı olaraq" baxılması xahiş edilir...

Yenə də rəqabət?

Digər firmalar Bibiheybətə necə kömək edir, bunu dəqiqləşdirin və ondan çıxış edərək qərar qəbul edin.

Sırf Nobellər yanaşması!





Yeri gəlmişkən, belə bir yanaşmanı sübut edən başqa bir arxiv sənədi də var. 1906-cı ilin iyununda Balaxanıda ikisinifli rus-tatar məktəbinin açılması nəzərdə tutulur. Məktəb üçün bina tikmək məqsədilə neft sənayesi firmalarından ianə toplanır. Rotşildlər firması 400 rubl yardım göstərir. "Xəzər" şirkəti 500 rubl verir.

İanə üçün Nobellərin Bakıdakı nümayəndəliyinə də müraciət olunur. Bakı kontorunun müdiri A.Lessner Peterburqdakı İdarə Heyətinə göndərdiyi məktubda maraqlı bir mövqe nümayiş etdirir. O, Rotşildlərin bu işə 400 rubl verdiyini xatırladaraq yazır:

> "Mənim fikrimcə, bizim firmanın 1000 rubldan az ianə verməsi yaxşı olmazdı".

Bu da Nobellər yanaşmasıdır.

Əgər Rotşildlər 400, Qukasovlar 500 rubl veribsə, biz azı 1000 rubl verməliyik. Nobellərin adına layiq!

Doğrudur, Bibiheybət məscidi ilə bağlı məsələdə Nobellər belə əliaçıqlıq göstərməyiblər.

Bakıdan Peterburqa göndərilən cavab imam Baxış Bünyatovun xeyrinə olmayıb, amma, hər halda, məsələyə aydınlıq gətirilib və böyük ianə ödənilməməsinin səbəbi də aydın olub. Yazışmadan məlum olur ki, şirkətin Bakı şöbəsi başqa firmalar kimi Bibiheybət müsəlman məscidinin saxlanılması üçün mühafiz Baxış Bünyatova ildə 25 rubl məvacib verir.

O da xatırladılır ki, "Nobel qardaşları" şirkəti adıçəkilən məscidin saxlanılması ilə bağlı heç bir öhdəlik götürməyib...

Məscid qarşısında heç bir hüquqi öhdəliyi olmayan E.Nobel, bununla belə, özü sonradan Bibiheybət məscidinə baş çəkir və imam Baxış Bünyatovla görüşür. Təəssüf ki, görüşün təfərrüatları barədə sənədlər qalmayıb. Amma şirkətin rəhbərinin müsəlman məscidinin nümayəndələrinə belə isti münasibəti çox şeydən xəbər verir...

"Nobel qardaşları" şirkəti Bakıda fəaliyyət göstərdiyi bütün illər ərzində yerli əhalinin adət-ənənələrinə hörmət və ehtiramla yanaşıb. Şirkət rəhbərliyinin qərarı ilə, adətən, müsəlman bayramları günlərində müsəlman fəhlələr ya işdən tam azad edilir, ya da vaxtından əvvəl buraxılırdı. Məsələn, şirkətin arxivdə saxlanılan 1917-ci ilə aid bir əmrində deyilirdi ki, iyulun 18-də bütün müsəlmanların Ramazan bayramını qeyd etməsi ilə əlaqədar, işin xarakterindən asılı olaraq, növbəni tərk etməsi mümkün olmayanlar istisna edilməklə zavodlarda işləyən bütün müsəlmanlar üçün iş günü iyulun 17-də gündüz saat 2-də başa çatır, iyulun 18-də isə onlar işdən tam azaddırlar.

# BAKIDA İLK DƏFƏ...

Nobellərin Bakıda fəaliyyətə başlaması bir çox yeniliklərlə əlamətdar olub. Məsələn, haqqında əvvəldə söhbət açılmış ilk neft kəməri məhz Nobellərin təşəbbüsü və inadkarlığı ilə çəkilib.

İlk neftdaşıyan tankeri də Xəzərə ilk dəfə Nobellər gətirib.

Neftin dəmir yolu ilə vaqon-çənlərlə daşınması ideyası da bu qardaşların adı ilə bağlıdır.

İlk dəfə neftin dəmir çənlərdə saxlanması zərurətini də onlar fikirləşib.

Bakıda ilk telefon xətti də Nobellərə məxsus "Villa Petrolea"ya çəkilib.

1882-1888-ci illərdə şirkətin Bakı kontoruna rəhbərlik etmiş Qustav Törnud ailəsinə yazdığı məktubda "Villa Petrolea"da yaradılan şərait barədə söhbət açırdı:

> "Biz sıxılmış hava vasitəsilə "Villa Petrolea"nın otaqlarında temperaturu 15-20 dərəcəyə endirmək, daha doğrusu, biz şimallıların adət etdiyi normal temperatura salmaq üçün çox bahalı qurğu qururuq".

Bu məktubda söhbət ilk dəfə Bakıda Nobellərin havanın temperaturunu aşağı salan qurğu quraşdırmasından gedir. Bu qurğunu XIX əsrin sonlarının kondisioneri də adlandırmaq olar...

Bakıda ilk avtomobilin nə vaxt görünməsi barədə fikirlər isə müxtəlifdir. Deyilənə görə, ilk dəfə bu şəhərə avtomobil 1907-ci ildə gətirilib.

Manaf Süleymanovun yazdığına görə, bu yenilik H.Z.Tağıyevin adı ilə bağlıdır.

Nobellərin uzun illər Bakıda işləmiş nümayəndəsi K.Hagelinin fikri isə fərqlidir. Onun yazdığına görə, Bakıya ilk avtomobil də "Nobel qardaşları" şirkətinin sifarişi ilə gəlib. Özü də bu hadisə 1907-ci ildən çox-çox qabaq olub.





Həqiqətən də, əgər 1907-ci ildə Bakı Şəhər Upravası tikinti şöbəsinin Bakıda avtomobillərin hərəkətinin tənzimlənməsi barədə qaydalar tətbiq etdiyini nəzərə alsaq, deməli, şəhərə avtomobil daha qabaqlar gətirilib.

"Benz" avtomobil firmasının nümayəndələri istehsal etdikləri maşınlar barədə plan-prospekti Bakıya ilk dəfə 1895-ci ildə göndəriblər.

O vaxt Almaniyanın hələ məşhur olmayan avtomobil şirkətinin potensial müştəriləri həm də Bakıda axtarması özü maraqlı faktdır. Bu, XIX əsrin 80-ci illərində artıq Bakının, Bakı pullarının sorağının Almaniyaya çatmasından xəbər verir.

Şirkət Nobellərin Bakı kontoruna "Viktoriya" markalı avtomobilin iki variantını təklif edir. Onlar üç və beş silindrli mühərriklə işləyən maşınlar idi. Bakı kontoru üçsilindrli maşın sifariş vermək istəyir. Lakin məsləhət görülür ki, Qafqazın yüksəkliklərini nəzərə alaraq, beşsilindrli avtomobil sifariş olunsun. Bakı kontorunun nümayəndələri bu məsləhətə qulaq asırlar. Çünki onlar özü də avtomobili ilk dəfə görəcəkdilər. Bu mənada istehsalçı şirkətin məsləhətinə qulaq asmaq lazım idi.

Müəyyən vaxt keçəndən sonra sifariş edilən avtomobil Bakı dəmir yolu vağzalında yük platformasından düşürülür. Dərhal benzin tökürlər və "Qafqazda ilk dəfə, bəlkə də, bütün Rusiyada ilk dəfə Qara şəhərin küçələri ilə avtomobil hərəkət etməyə başlayır".

K.Hagelin belə hesab edir.

Bakı sakinləri bu mənzərəni həyəcanla seyr edirlər.

Şirkətin milliyyətcə gürcü aşpazı Sandro maşını görən kimi dostunun üstünə qaçır.

–Vano!.. Vano!.. At qoşulmayan arabanın özü getdiyini indicə gördüm. Vano, daha rahat ölə bilərəm...

"Bakıda bu avtomobilə "şeytan arabası" deyirdilər".

Bu fikir də K.Hagelinə məxsusdur.

O özü də təsdiq edir ki, həqiqətən, bu maşın "şeytan" imiş... Birinci dəfə mühərriki dərhal işə salmaq mümkün olsa da, sonradan hər dəfə bu, xeyli əziyyət bahasına başa gəlib. Onun qənaətinə görə, yəqin ki, "Benz" zavodu istehsal etdiyi maşınları hələ kifayət qədər işlək vəziyyətə gətirməyibmiş.

K.Hagelin bu maşını bir neçə dəfə Balaxanıya, bir-iki dəfə Bibiheybətə, sonra bir neçə dəfə Qara şəhərə sürür və... maşın daha getmir. Məcbur olub onu material anbarına qoyurlar. Bir müddət keçəndən sonra anbarda yanğın baş verir və "Viktoriya" da yanğının qurbanı olur...

Bakıda ilk seysmik stansiyanın tikilməsi isə ayrı mövzudur...

# NOBELLƏRİN ZƏLZƏLƏDƏN QORUNMAQ CƏHDİ

1902-ci ildə uzun fasilədən sonra Şamaxıda növbəti zəlzələ baş verir və şəhər yerlə yeksan olur.

Bu arada həm də Tiflisdə, Qafqazın digər ərazilərində yerin titrəməsi Nobelləri narahat etməyə başlayır.

1903-cü ilin əvvəllərində artıq Nobellər Rusiya İmperator Elmlər Akademiyasının qapısını döyürlər. Qafqazda nə baş verir?

Qafqazda zəlzələ ehtimalından narahat olan Emmanuil Nobeli akademiyanın Daimi Mərkəzi Seysmologiya Komissiyasına istiqamətləndirirlər. O bu komissiyaya müraciət edərək, Bakıdakı mədənlərində iki birinci dərəcəli seysmik stansiya qurulmasını, özü də imkan daxilində tez qurulmasını xahiş edir.

Komissiyanın həmin ilin martında keçirilən iclasında məlumat verilir ki, seysmik stansiya üçün bəzi mexanizmlər artıq Bakıya göndərilib. Artıq mayda keçirilən iclasda isə məlumat verilir ki, Bakı seysmik stansiyası üçün lazımi mexanizmlər hazırlanıb. Sadəcə, Nobeldən xahiş olunur ki, mexanik Fexnerə alınmış avadanlıqlar üçün əlavə 2434 marka ödəsin.

Bundan sonra Bakıya Nobellərin xərci ilə yeni seysmik cihazlar da gətirilir.

1903-cü ilin iyununda Daimi Mərkəzi Seysmologiya Komissiyasının mühəndisi S.Şarbe Bakıya gəlir, Balaxanıda və Qara şəhərdə seysmoloji aparat quraşdırmağa başlayır.

Bu, Bakıda ilk belə qurğu idi.

Həmin illərdə Xəzər dənizinin səviyyəsinin getdikcə aşağı düşməsi bu dəniz ətrafından milyonlar qazanan Mantaşovu narahat etməsə də, Nobelləri narahat edir.

Emmanuil Nobel yenə də Rusiya İmperator Elmlər Akademiyasına müraciət etməli olur. Abşeron yarımadasında nə baş verir?





1910-cu ilin fevralında E.Nobelin özünü akademiyanın Daimi Mərkəzi Seysmologiya Komissiyasının iclasına dəvət edirlər ki, narahatlığı barədə məlumat versin.

O, komissiyanın iclasında çıxış edərək bildirir ki, son illər Abşeron yarımadası sahillərində Xəzər dənizinin səviyyəsinin aşağı enməsi müşahidə olunur. Tərsanələrdə su getdikcə dayazlaşır. 12 əvvəl keçilməz olan böyük bataqlıqlar quruyur, dənizin sahilləri tədricən qalxır.

Bu nə ilə bağlıdır? Dənizdə su azalır, yoxsa Abşeron yarımadasının sahilləri tədricən yüksəlir? Bəlkə, bu proses milyardlarla pud neftin çıxarılması nəticəsində yerin təkinin süni boşalması ilə bağlıdır?

Yeri gəlmişkən, 1906-cı ilə qədər təkcə Nobellər yerin təkindən 1 milyard pud neft çıxarmışdılar.

Komissiyanın iclasında o dövrün tanınmış alimləri çıxış edir və 1850-ci illərdən bəri Xəzərdə aparılan müşahidələr barədə hesabat verirlər. Və əsaslandırırlar ki, dəniz səviyyəsinin enməsi son illərin hadisəsi deyil, qeyri-adi heç nə baş vermir.

Suyun səviyyəsinin enməsinin hidroloji və meteoroloji amillərlə bağlı olduğu əsaslandırılır. Xəzərə axan çayların suyunun artması, yağıntıların azalması amili barədə geniş izahat verilir. Bütün bunların həm də seysmoloji proseslərlə bağlı olduğu ehtimal edilir.

İclasda qərara alınır ki, Xəzər dənizində aparılan müşahidələr davam etdirilsin, bu müşahidələrin nəticələri kitab halında nəşr olunsun, Xəzərə axan çayların suyunun səviyyəsi öyrənilsin, Xəzərdə təbii buxarlanmanı müşahidə etmək üçün tədbirlər görülsün, Xəzərin dərinliyi yenidən ölçülsün və s.

1911-ci ilin mayında akademiyanın həmin komissiyasında Bakıda, o cümlədən Balaxanıda aparılan müşahidələr barədə məruzə dinlənilir. Müşahidələr neft fontanlarının seysmoqraflara birbaşa təsiri imkanlarını müəyyən etmək, Balaxanıda meteoroloji amilləri və fontanların fəaliyyətini tədqiq etmək üçün aparılmışdı.

Bu müşahidələr nəticəsində müəyyən edilir ki, Balaxanıda yerin təkinin xarakterik döyüntüsü mövcuddur. Fontanlar isə seysmoqraflara birbaşa təsir göstərmir.

Həmin ilin oktyabrında akademiyadan Abşeron yarımadasında baş verən proseslərin tədqiqinə dair müzakirələrdə E.Nobelin də iştirakı arzu olunur.

İclasda bu barədə geniş məlumat verilir və qərara alınır ki, Abşeronda baş verən prosesləri aydınlaşdırmaq üçün orada yer səthi dəqiq nivelir

olunmalıdır. Və bu iş məşhur alimlərdən ibarət xüsusi komissiyaya həvalə edilir. Bu sahədə araşdırmalar uzun müddət davam edir.

Nəhayət, 1912-ci ilin aprelində akademiya imperatora müraciət edir: "Artıq yarım ildən çoxdur ki, Xəzərin səviyyəsinin dəyişməsi ilə bağlı müşahidələr aparılır. Səbəblər barədə rəylər müxtəlifdir. Bununla belə, məsələnin öyrənilməsi təkcə sırf elmi baxımdan deyil, həm də iqtisadi baxımdan olduqca vacibdir. Çünki Xəzərin səviyyəsinin aşağı düşməsi bir sıra iqtisadi problemlərin yaranmasına da gətirib çıxara bilər".

İmperatora məlumat verilir ki, akademiyanın Daimi Mərkəzi Seysmologiya Komissiyası E.L.Nobelin xahişi əsasında Xəzərin müşahidə edilməsi ilə bağlı dəqiq işlənmiş müşahidə planı hazırlayıb.

Akademik O.Baklundun imzaladığı məktubda əlahəzrət imperatordan xahiş olunur ki, Abşeron yarımadasında nivelir işləri üçün Hərbi Topoqraflar Korpusunun iki zabitinin Bakıya ezam edilməsi barədə hərbi nazirə tapşırıq versin.

Nivelirləşdirmə xərclərinin "Nobel qardaşları" şirkəti tərəfindən ödəniləcəyi də qeyd edilir.

Tezliklə hərbi nazir iki zabitin Bakıya ezam olunmasına razılıq verir, bir şərtlə ki, nivelirləşdirmə zamanı istifadə ediləcək nişanların hazırlanması və quraşdırılması xərclərini "Nobel qardaşları" şirkəti öz üzərinə götürsün.

Hərbi Nazirlik Abşeronda müşahidə qurğuları üçün nişanların hazırlanması və quraşdırılmasının 11 min rubla başa gələcəyini bildirir və bu pulların Baş Qərargahın hərbi-topoqrafiya şöbəsinə köçürülməsini xahiş edir. E.Nobel bu şərtlərlə razılaşır.

Bundan sonra Abşeronda aparılan müşahidələrin kitab halında buraxılması xərclərini də Nobellər öz üzərinə götürür.

Bir sözlə, E.Nobel Xəzər dənizində suyun səviyyəsinin azalması ilə bağlı elmi araşdırmalara pul ayırmaqda xəsislik etmir. Həm də ona görə ki, Nobellərin fəaliyyətinin bir hissəsi, həqiqətən də, Xəzər dənizi və Xəzər sahilləri ilə bağlı idi.

Bütün bunlar göstərir ki, Nobellər böyük pullar qazanmaq üçün böyük xərclərin qaçılmaz olduğunu hamıdan yaxşı anlayırdı...

Bu fakt həm də Nobellərin Bakıda hələ uzun illər boyu işləmək niyyətində olduğunu göstərirdi. Və bir də Nobellərin digər iş adamlarından fərqinin göstəricisi idi. Həmin illərdə Bakıda Nobellərdən başqa, onlarla neft sənayeçisi fəaliyyət göstərirdi. Amma onlardan heç birini nə Qafqazda baş verən zəlzələlər, nə Bakı ətrafında püskürən palçıq vulkanları, nə də Xəzər dənizində suyun səviyyəsinin enməsi narahat etmirdi...



# NOBELLƏRİN VARİSLƏRİ ULU BABALARI HAQQINDA

Hazırda Nobellər ailəsi təxminən 400 nəfəri özündə birləşdirən və bir-biri ilə sıx əlaqəsi olan 9 qoldan ibarətdir. Onlar əsasən Skandinaviya ölkələrində (İsveç, Norveç, Finlandiya), həmçinin ABŞ, Fransa və Baham adalarında yaşayırlar. Ailənin maraqlarını iki təşkilat – "Nobel Family Society" və "Nobel Charitable Trust" təmsil edir.

Bəs Nobellər ailəsinin indiki davamçıları ulu babalarını və onların Bakı sərgüzəştlərini necə xatırlayırlar?

Təbii ki, əksəriyyəti Nobellərin Bakıdakı fəaliyyətindən və neft sənayesi sahəsində qazandıqları uğurlardan xəbərdardır. Amma Nobel mükafatı fondunun formalaşmasında Bakı neftinin rolu barədə dəqiq rəqəmlər söyləməkdə çətinlik çəkirlər.

Bakı Media Mərkəzinin Nobel qardaşları haqqında film layihəsi çərçivəsində ölkəmizə səfər edən varislər ulu babalarını xarakterizə etməkdə isə xəsislik göstərməyiblər.

Nobellər ailəsinin nümayəndəsi Peter Nobel bildirib ki, Alfred çox sakit, ehtiyatlı, düşüncəli, təmkinli bir insan idi. O, qələbəlik yerlərdə, adamlar arasında olmağı xoşlamırdı. Həm də bir qədər təvazökar və utancaq idi.

Robert isə xüsusi xarakteri və enerjisi ilə seçilirdi.

Lüdviq yaxşı təşkilatçı idi. Robertdən də mütəşəkkil, eyni zamanda çox sabitqədəm bir adam idi.

Nobellər Ailəsi Cəmiyyətinin sədri Tomas Tüden isə ulu babalarından danışarkən deyib: "Bu sahədə müəyyən qədər tədqiqat aparmışam. Qardaşların məktublarını oxumuşam ki, fərdi xüsusiyyətləri ilə daha yaxından tanış olum".

Tomasın sözlərinə görə, Robert özü də məktublarında yazırdı ki, atasına daha çox oxşayır. Güclü xarakterə malik olub, amma əhvalı tez-tez dəyişirmiş. Gah qəzəblənir, gah sevinir, bəzən qəmə qərq olur, bəzən də özünü çox xoşbəxt hiss edirmiş... Daim hərəkətdə imiş, riskə getməyi də xoşlayırmış...

Lüdviq isə daha təmkinli, sakit, dərin düşünən insan olub. Bir qərara gəlməzdən qabaq saatlarla fikirləşərmiş. "Gəlin fikirləşək, baxaq nə etmək olar", – deyərmiş...

Alfred çox fəal insan olub. O da daim hərəkətdə imiş. Həmişə harasa tələsir, biznesini dünyada genişləndirmək istəyirmiş. Bu səbəbdən də vaxtının çoxunu dəmir yollarında, qatarlarda keçirib.

Alfreddən bir dəfə soruşurlar:

– Sən, ümumiyyətlə, kimsən? İsveçlisən, russan, parislisən?

Cavabı belə olur:

– Mən hazırda olduğum ölkənin bir hissəsiyəm.

T.Tüdenin xatırlatdığı bu misal ibrətamizdir.

Əslində bütün Nobellər belə düşüncədə olublar. Onlar özlərini yaşadıqları şəhərin, ölkənin bir hissəsinə çevirməyi bacarıblar. Uzun müddət burada yaşamış Robert də, Lüdviq də, hətta sonralar Emmanuil də özlərini neft, milyonlar və qoçular şəhərinin bir hissəsi hesab ediblər. "Branobel" şirkətinin loqotip kimi məhz Atəşgah məbədini seçməsi də bundan xəbər verir.

Və bunun bir təsadüf olmadığını təsdiq edən daha bir fakt.

1896-cı ildə Nijni Novqorodda keçirilən Ümumrusiya bədii-sənaye sərgisində iştirak edən "Branobel"in pavilyonu hansı formada hazırlansa yaxşıdır?

Çar II Nikolayın da iştirak etdiyi həmin sərgidə Nobellərin pavilyonu Şəki xan sarayı üslubunda tərtib edilibmiş... Pavilyonun tərtibatı və qurulması şirkətə 200 min rubla başa gəlib. Bir Rusiya şəhərində xan sarayı "yaratmaq", təbii ki, ucuz başa gələ bilməzdi. Və Nobellər Nijni Novqoroda Şərq koloriti gətirməkdə xəsislik etməyiblər. Əvəzində bu qeyri-adi tərtibat Nobelləri yenə də başqa sənayeçilərdən fərqləndirib.

Tomas Tüden onu da deyib ki, Robert Nobel Bakıdan qardaşlarına yazdığı məktublarda bu şəhərə gəldiyi üçün özünü xoşbəxt hiss etdiyini dəfələrlə vurğulayıb. Çünki burada insanlar çox nikbin, mehriban və xeyirxahdırlar. Hər addımda ona kömək ediblər.

Söhbət XIX əsrin ikinci yarısının Bakısından gedir...

O Bakıdan ki, dünyanın hər yerindən çoxsaylı iş adamlarını özünə cəlb edib. Amma o dövrdə gələnlərin əksəriyyəti unudulub. Nobellərin adı isə bu gün də bakılıların yaddaşlarında yaşayır...



# SON SÖZ ƏVƏZİ

Bu günün Bakısında Nobellərin hansı yadigarı qalıb?

Vaxtilə "Qara şəhər" adlanan ərazidə salınmış, o dövr üçün ən rahat həyat şəraiti olan, sonralar sovet hökumətinin mədəniyyət və istirahət parkına çevirdiyi, müstəqillik dövründə isə bərpa edilərək dövlət mühafizəsinə götürülən və Nobellərin xatirə muzeyinin də yerləşdiyi "Villa Petrolea" kompleksi...

Gəlin etiraf edək ki, bu kompleks H.Z.Tağıyevdən qalan Musiqili Komediya Teatrı ilə, Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi ilə, Musa Nağıyevin yadigarı "İsmailiyyə" sarayı ilə, Murtuza Muxtarovun Səadət sarayı kimi tanıdığımız əzəmətli binası ilə, lap Mailovlardan qalma Milli Opera Teatrı ilə, Lev De Burun tikdirdiyi indiki Milli İncəsənət Muzeyi ilə... müqayisədə çox kiçikdir.

Amma onu da etiraf etmək lazımdır ki, Nobellər paytaxtımızda əzəmətli memarlıq nümunələri yaratmasalar da, neft sənayesinin inkişafına misilsiz töhfələr verib, yüksək istehsalat mədəniyyətinin əsasını qoyublar.

Onların öz fəhlə və qulluqçularının uşaqlarına təhsil vermək üçün açdıqları məktəbdə yüksək səviyyədə təhsil alanların bir çoxu sonralar Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çalışıb, öz bilik və bacarıqlarını yeni nəsillərə ötürüb.

Nobellər indi önəmindən yaxşı xəbərdar olduğumuz insan amilini qiymətləndirərək, öz işçilərinin sağlamlığının qayğısına qalıblar. Çünki fəhlənin, mütəxəssisin xəstələnməsinin istehsalatda işi axsadacağına əmin idilər.

Bakıda vəba xəstəliyi tüğyan edəndə Peterburqdan Bakıya məşhur professorları gətiriblər ki, epidemiyanın qarşısını alsınlar. Ona görə yox ki insanların kütləvi qırılmasından narahat olublar. Bunu ona görə ediblər ki, mütəxəssislərin xəstələnməsi ilə zavodlarında iş dayanmasın.

XX əsrin əvvəllərində Şamaxıda baş verən zəlzələdən sonra Bakıda ilk dəfə seysmoloji qurğular da Nobellərin təşəbbüsü ilə qurulub.

Xəzər dənizində suyun səviyyəsinin getdikcə aşağı düşməsi də ən birinci onları narahat edib. Sankt-Peterburqun, Rusiya İmperator Elmlər Akademiyası alimlərinin diqqətini Xəzərə yönəltmək üçün pula qənaət etməyiblər. Narahat olublar ki, bəlkə, bütün bunlar yerin təkindən milyonlarla pud neftin çıxarılması ilə bağlıdır...

Nobellər daim tərəqqiyə, yeniliyə can atıblar. Bakının neft sənayesində texniki tərəqqinin əsasını qoyanlardan olublar. İstehsalat proseslərinin asanlaşdırılması üçün dövrün elmi nailiyyətlərindən yetərincə yararlanmağa çalışıblar.

Nobellər əməyə yüksək qiymət veriblər. Onlar üçün pul qazanmaq son məqsəd yox, yeni ideyaları gerçəkləşdirmək üçün vasitə olub. Üstəlik bu prinsiplərlə yanaşı, cəsarətli təşəbbüskarlıq və tükənməz enerji ilə çalışmaq xüsusiyyətləri də Nobellərdə nəsildən-nəslə keçib. Onların uğurlarının təməlində, sözsüz ki, işgüzarlıq, zəhmətsevərlik və çevik düşüncə tərzi dayanıb.

Bunu təsdiqləyən kiçik bir misal...

Lüdviq Nobel daha çox kerosin satmaq məqsədilə məişət lampası sifariş verir. Amma lampalara alıcı tapılmır. Amerikada evlər artıq çoxdan kerosinlə işıqlandırıldığı halda, Rusiyada sadə adamlar evdə taxta talaşası ("luçina") yandırmağı kerosin lampasından üstün tuturdular. Lüdviq vəziyyətən çıxış yolunu tez tapır: kerosin lampalarını əvvəlcə alverçilərə pulsuz paylayır. Bundan sonra lampalar evlərə yol tapır. İnsanlar evi lampa ilə işıqlandırmağın daha sərfəli olduğunu anlayırlar və... Nobellərin alveri genişlənir.

Nobellər həm də dövrün, zamanın nəbzini tuta biliblər. Onlar anlayıblar ki, Bakıda rahat yaşamaq və işləmək üçün qoçularla hesablaşmaq lazımdır. Və hesablaşıblar. Avropaya, avropalıya yad olan bu adətlə də barışıblar, Bakı qoçuları ilə dil tapıblar.

Deyək ki, Fransada, İsveçdə hər hansı bir işi həll etmək üçün, sadəcə, müraciət, sənəd-kitab lazım olubsa, Nobellər başa düşüblər ki, çar Rusiyasında kimlərəsə rüşvət, kimlərəsə hədiyyə vermədən iş aşırmaq çətin məsələdir. Və bu məsələni də yüksək səviyyədə həll etməyi bacarıblar.

İlk dəfə Bakıda neft kəməri çəkməyin səmərəsini yerli məmurlara başa salmağa çətinlik çəkəndə Tiflisə – imperatorun qardaşının yanına gediblər...





Emmanuil Nobelin Rusiya hökumət dairələrində və Avropa banklarında yaxşı əlaqələri olub. Hədiyyə vermək məqsədilə Peterburqun ən məşhur zərgərlik firmalarında özünün eskizi ilə zərgərlik məmulatları hazırlatdırıb və kabinetində saxlayıb. Bu hədiyyələrin ünvanı imperator ailəsinin üzvləri də olub, adi qulluqçu da...

Onun "yuxarılarla dil tapmaq" sahəsində zirəkliyini sübut edən bir sənəd isə Sankt-Peterburqdakı Rusiya Dövlət Tarix Arxivində saxlanılır.

Bakının müvəqqəti general-qubernatorunun E.Nobelə 1906-cı ilin mayında göndərdiyi həmin məktub bu sözlərlə başlayır: "Sizin xəsislik etmədən dəfələrlə göndərdiyiniz güllərlə mənə göstərdiyiniz daimi lütfkarlıqdan qəlbən məmnunam. Özü də o qədər güllər göndərirsiniz ki, həyat yoldaşım və mən özüm Bakı şəhərində olduğumuzu unuduruq..."

O vaxt Bakının müvəqqəti general-qubernatoru 1877-1888-ci illərdə rus-türk müharibəsinin fəal iştirakçısı, hətta Qars şəhərinin komendantı olmuş Semyon Faddeyev idi...

Nobellərin zirəkliyi ilə bağlı nümunələrin sayını artırmaq da olardı. Ehtiyac yoxdur. Amma bir həqiqəti etiraf etməyə ehtiyac var: XIX əsrin sonu, XX əsrin əvvəllərinin Bakısını Nobellərsiz təsəvvür etmək mümkün deyil...

# BİBLİOQRAFİYA


## Arxivlər

1. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi
2. Azərbaycan Respublikasının Dövlət Arxivi
3. Azərbaycan Respublikasının Dövlət Kino-Foto Sənədləri Arxivi
4. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi
5. Rusiya Dövlət İqtisadiyyat Arxivi (Moskva)
6. Rusiya Dövlət Kino-Foto Sənədləri Arxivi (Krasnoqorsk)
7. Rusiya Dövlət Tarix Arxivi (Sankt-Peterburq)
8. Rusiya Elmlər Akademiyası Arxivinin Sankt-Peterburq filialı
9. Rusiya Federasiyasının Dövlət Arxivi (Moskva)

## Ədəbiyyat

### *Azərbaycan dilində*

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, 2005
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild Bakı, 2005
3. İsmayıl Mahmud, İbrahimov Marat. El atası. Bakı, 1994
4. Nobellər və Bakı nefti. Bakı, 2009
5. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991
6. Süleymanov Manaf. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1987
7. Topçubaşov Əlimərdan bəy. Paris məktubları, Bakı, 1998

### *Rus dilində*

1. Айдамиров Тельман. Вывоз бакинской нефти из Азербайджана в конце XIX – начале XX вв. Баку, 2014
2. Алияров С.С. Нефтяные монополии Азербайджана в период первой мировой войны. Баку, 1974
3. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. Москва, 1959

4. Врангель Н.Е. Воспоминания: от крепостного права до большевиков. Москва, 2003
5. Генерал-майор Денстервиль. Британский империализм в Баку и Персии 1917-1918 (воспоминания). Перевод с английского. Тифлис, 1925
6. Дипломатические беседы А.Топчибашева в Стамбуле (записи чрезвычайного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг. Баку, 1994
7. Документы жизни и деятельности семьи Нобель 1801-1932. Под ред. профессора А.И.Мелуа. Том 12. Санкт-Петербург, "Гуманистика", 2013
8. Дьяконова И.А. Нобелевская корпорация в России. Москва, 1980
9. Ергин Дэниел. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. Москва, 2016
10. Мир-Бабаев М.Ф. Краткая история азербайджанской нефти. Баку, 2008
11. Мир-Бабаев М.Ф. Краткая история азербайджанской нефти. Т. 2. Баку, 2012
12. Монополистический капитал в нефтяной промышленности России. 1883-1914. Документы и материалы. Т. 1. М.-Л. 1961
13. Монополистический капитал в нефтяной промышленности России. 1914-1917. Документы и материалы. Т.2. М.-Л. 1973
14. Монополистический капитал в нефтяной промышленности России. Документы и материалы. Том 1. 1883-1914 гг. Москва, 1961
15. Мурадалиева Эльмира. Кровь земная – нефть Азербайджана и история. Баку, 2005
16. Надеждин Н. Альфред Нобель: "Господин динамит". Москва, 2010
17. Нардова В. А. Начало монополизации нефтяной промышленности России. 1880-1890-е годы. Ленинград, 1974
18. Осбринк Брита. Империя Нобелей: история о знаменитых шведах, бакинской нефти и революции в России. М., 2014





19. Полное собрание законов Российской Империи. Том XXXVIII. Собрание второе. Том LIV. Санкт-Петербург, 1881
20. Потто В.А. Царская семья на Кавказе. СПб, 1889
21. Сульман Рагнар. Завещание Альфреда Нобеля. Новосибирск, 2014
22. Топчибашев Али Марданбек. Письма из Парижа. Баку, 1998
23. Топчибаши А. М. Парижский архив 1919-1940. В четырех книгах. – Книга первая 1919-1921. Составители Г.Мамулиа и Р.Абуталыбов. Введение, перевод и примечания Г.Мамулиа. Москва, 2016
24. Хагелин К.В. Мой трудовой путь. Записки человека, которому сопутсвовала удача. Москва, 2013

# İNDEKS

## A


Abşeron yarımadası 11, 19, 37, 131, 148, 149, 150
Abutalıbov, Ramiz 122
ağ neft 12, 14, 161
ağ neft zavodu 14
Ağ şəhər 99
"Aleksandr", gəmi 53
Aleksandr Nevski kilsəsi 136
Aleksandr, II, rus, çarı 51
Aleksandr, III, rus çarı 6, 134, 136, 140
Almaniya 60, 101, 105, 147
Amerika kerosini 5, 29, 42, 48
Amilaxvari, İ. 18
Antanta 122, 161
Artyomov, Dmitri, 53, 54
Artyomov, Nikolay 53, 54
Aşurbəyov, Mehdiqulu bəy 96, 97
Aşurbəyov, Nəcəfqulu bəy 83, 97
Aşurbəyov, Teymur bəy 97
Aşurbəyovlar 97
Atəşgah 6, 8, 9, 130, 131, 132, 133, 134, 135, 137, 152
Aydəmirov, Telman 94
Azərbaycan 7, 8, 19, 35, 61, 70, 73, 77, 94, 95, 99, 105, 107, 108, 109, 110, 111, 112, 113, 114, 115, 116, 117, 118, 119, 120, 121, 122, 123, 124, 125, 126, 133, 141, 142, 144, 153, 157
Azərbaycan Milli Şurası 105
Azərbaycan Xalq Cümhuriyyəti 8, 95, 105, 107, 108, 112, 114, 122, 123, 157
"Azov-Don" kommersiya bankı 117


## B


Bakı 2, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 16, 18, 19, 20, 21, 22, 23, 24, 25, 29, 30, 31, 32, 33, 34, 35, 36, 37, 38, 39, 40, 41, 42, 43, 44, 45, 46, 47, 48, 49, 50, 51, 53, 54, 55, 56, 58, 59, 60, 61, 63, 70, 71, 72, 73, 77, 78, 79, 80, 81, 83, 84, 85, 86, 87, 89, 90, 91, 92, 93, 94, 95, 96, 97, 98, 99, 100, 102, 103, 104, 105, 106, 107, 108, 109, 110, 111, 112, 113, 114, 115, 116, 117, 120, 122, 123, 124, 125, 129, 130, 132, 133, 134, 135, 136, 137, 139, 140, 141, 142, 143, 144, 145, 146, 147, 148, 150, 151, 153, 154, 155, 157
Bakı Dairə Məhkəməsində 60
Bakı dəmir yolu vağzalı 136, 147
Bakı Media Mərkəzi 7, 151
Bakı Neft Cəmiyyəti 32, 135
Bakı Nobel Neft Klubu 61

Bakı qoçuları 8, 9, 95, 96, 97
Bakı quberniyası 10, 34, 35, 38, 40, 41, 50, 109,
Bakı Real Məktəbi 78, 79
Bakı Şəhər Duması 142
Bakı Şəhər Upravası 124, 147
Bakı Soveti 105
Bakı Ticarət Limanı 110
Bakı Xalq Komissarları Soveti 102, 105
Bakı zooparkı 60
Bakı-Batumi kerosin kəməri 111
Baklund, O., akademik 150
Balaxanı 16, 17, 18, 19, 32, 35, 39, 46, 47, 49, 50, 123, 125, 128, 131, 139, 142, 143, 145, 148, 149
Baryatinski, Aleksandr, knyaz 135
Batumi 119
Bebutaşvili (Bebutov), Abessalom Petroviç, knyaz 32, 33, 39, 47
Behbud xan Cavanşir 108, 110, 111, 112
Bekle, Erik 59, 73
Berdan, Hayrem 25
"berdanka" 25
Bergenqren, E. 73
Bergenqren, Erik 73
Bernelm 109
Beynəlxalq Konfrans Mərkəzi 61
Bibiheybət 12, 87, 120
Bibiheybət məscidi 144, 145
Bibiheybət Neft Cəmiyyəti 23
Biçeraxov, Lazar 105
Bilderlinq, Pyotr Aleksandroviç fon 51, 79, 138, 139
Binəqədi 120
bolşeviklər 60, 94, 95, 101, 104, 105, 109, 114, 120, 122
"Branobel" 68, 69, 129, 152
Bratke, mühəndis 23
Britaniya 56, 112, 113, 119, 120, 161, 162
Britaniya Dəniz Nəqliyyatı İdarəsi 113, 119, 120
Bryüggen, Aleksandr fon Der 47
Bünyatov, Baxış 144, 145
"Budda", gəmi 54
Bur, Lev Martınoviç De 31, 33, 39, 40, 153
Buzovna 120

C

Cakeli, İosif 144

Ç

Çavçavadze, D. 18

D

Dadaşov, Ələsgər Şıxəli oğlu 83
Dadaşov, Hacı Şıxəli 8, 89, 90
Dadaşovlar 53, 121
Dağ İşləri İdarəsi 15, 16, 41
Daimi Mərkəzi Seysmologiya Komissiyası 148, 149
"Darvin", gəmi 54
daxiliyanma mühərriki 57
Denikin 122
Denstervil, Lionel, general 106, 107
Dəmir Yolu İdarəsi 52
Dəniz Nəqliyyatı İdarəsi 113, 119, 120, 127





Dərbənd 136, 162
dizel mühərrikləri 57
Dizel, Rudolf 56, 57
Dövlət Əmlakı İdarəsi 10, 34, 35, 38, 40, 41, 50
Dövlət Tarix Arxivi 35, 60, 79, 96, 99, 111, 123, 144, 155
"Drezden", gəmi 56

E

E.L.Nobel adına mükafat 80, 81, 82
Eyxler, Adolf, memar 141

Ə

əl-Məsudi 11
Əsədullayev, M. 111
Əsədullayev, Şəmsi 6, 8, 90, 91, 92, 93, 121,

F

Faberje, Karl 132
Finlandiya 10, 27
fotogen 15, 16, 35, 36, 41, 42
Freken, Anten 64
Freken, Betger 64
Fyodorovna, Mariya 78, 134

G

Georgi Aleksandroviç 134, 139
gəmiçilik şirkətləri 53, 54, 106, 120
Gəncə 105
Gürcüstan 22, 24, 105, 111, 124, 162

H

Hacı Əli Kərbəlayi Baba oğlu 50
Hacınski, M.H. 111
Hagelin, Karl Vasilyeviç 85, 86, 87, 88, 89, 90, 91, 92, 96, 97, 98, 99, 125, 146, 147
Hammond, Gerr 64
Henninq, Bernelm 109
Hərbi İnqilab Komitəsi 126
Həştərxan 31, 53, 54, 59, 83

İ

İkinci Dünya müharibəsi 59, 114
ilk neftayırma zavodu 14, 135
İngeborq 64, 163
İnqilabi Müdafiə Komitəsi 102, 103
"İsmailiyyə" 153
İsveç 5, 6, 9, 10, 25, 35, 41, 46, 50, 59, 63, 65, 67, 68, 69, 72, 73, 74, 75, 85, 109, 114, 115, 123, 125, 140, 151

K

Karasayev, Q. 85, 90
"Kaspi" 54, 63, 78, 85, 91, 92, 163
"Kavkaz i Merkuri" 31, 53, 119, 136, 163
kerosin 13, 16, 29, 42, 44, 54, 55, 86, 111, 139, 154
Keşlə 59, 60
kəmər 32, 33, 34, 46, 47, 48, 49, 50
Kərbəlayi Qasım oğlu, Eyvaz 50
Koba 95
Kokerev 135

Konşin, A. 21, 23
Konvensiya Gəmiçiliyi Bürosu 119
Krasin, A.M. 99
Krıltsov 102
Krım müharibəsi 27
Kutaisi Dairə Məhkəməsi 60

L

Lazarev, P.S. 18
Leblan üsulu 37
Leblan, Nikola 37
Lenin, Vladimir İliç 122, 123
Lessner, Artur 104, 108, 111, 112, 124, 143, 145
Lənkəran 25, 59
Lidbek, Gerr 64
Lillekvist, Rudolf 66
"Linney", gəmi 54
Lunaçarski adına park 60

M

Mailovlar 153
Malyarova, K. 81
Mamulia, Giorgi 122
Mansurov, Eldar 83, 84
Mansurov, Məşədi Süleyman bəy 84
Mansurovlar 83
Mantaşov 21, 148, 163
"Mazut" Neft Sənayesi Cəmiyyəti 80, 121
Melikov, L.İ. 18
Mendeleyev, Dmitri 14
"Məhəmməd", gəmi 54
Məlik-Aslanov, X. 110, 111
Məmməd oğlu, Ələkbər 50, 90, 162
Milli Azərbaycan Tarixi Muzeyi 153
Milli İncəsənət Muzeyi 153, 163
Milli Opera Teatrı 153, 163
Mirbabayev, Miryusif 73
Mirzoyev 13, 163
Mişon, M. 133
"Moisey", gəmi 54
Moller, fon 27
Montvij-Montvil 58
Moskva 21
"Motala" gəmiqayırma zavodu 54
Mövsümov, Əbdülhüseyn 94
Müqəddəs Nina məktəbi 136
Muradəliyeva, Elmira 73
Musiqili Komediya Teatrı 153
Muxtarov, Mrtuza 83, 153

N

Nağıyev, Musa 79, 96, 153
Nargin adası 5, 9, 10, 34, 35, 36, 37, 38, 39, 41, 42
Nastyukova, A. 81
"Neft bağı" 5, 57, 58
"Neft mədənləri və fotogen istehsalından aksiz haqqında qaydalar" 15
neft fontanı 9, 43, 87, 91, 99
neft hasilatı 12, 13, 25
neft kəməri 32, 39, 47, 49, 50, 146, 154
Neft Sənayeçiləri Qurultayı 112
neft sənayesi 7, 13, 19, 20, 25, 35, 36, 45, 47, 50, 55, 56, 57, 78, 82, 83, 86, 94, 104, 107, 109, 117, 126, 137, 138, 140, 145, 151, 153, 154





neftayırma sənayesi 58
neftçıxarmada iltizam sistemi 31
Nellis, K. 139
Nərimanov, Nəriman 124
Nikolay, I, rus çarı 48, 134
"Nobel bağı" 60
Nobel qardaşları 1, 2, 3, 5, 6, 7, 8, 10, 19, 27, 29, 36, 43, 44, 45, 47, 48, 49, 50, 51, 52, 53, 54, 55, 56, 57, 58, 59, 60, 61, 62, 63, 64, 68, 69, 70, 71, 72, 73, 77, 78, 79, 80, 81, 83, 84, 85, 86, 87, 88, 89, 90, 91, 92, 93, 94, 95, 96, 97, 98, 99, 100, 101, 102, 103, 104, 108, 109, 110, 111, 112, 113, 115, 116, 117, 119, 120, 121, 122, 123, 124, 126, 127, 128, 129, 131, 132, 133, 134, 135, 138, 139, 140, 141, 142, 143, 144, 145, 146, 147, 148, 149, 150, 151, 152, 153, 154, 155, 157
Nobel, Alfred 5, 25, 27, 28, 29, 43, 44, 49, 51, 55, 62, 63, 64, 65, 66, 67, 68, 69, 70, 71, 72, 74, 75, 76, 78, 79, 132, 151, 152
Nobel, Emil
Nobel, Emmanuil 5, 6, 8, 27, 28, 42, 44, 57, 62, 63, 64, 67, 68, 69, 70, 71, 72, 80, 82, 84, 86, 101, 112, 116, 117, 118, 120, 130, 131, 132, 133, 138, 139, 140, 141, 144, 145, 148, 149, 150, 152, 155
Nobel, Karl 79
Nobel, Lüdviq 5, 25, 28, 29, 30, 42, 43, 44, 47, 48, 49, 51, 55, 57, 59, 62, 64, 68, 72, 75, 77, 78, 79, 82, 101, 103, 131, 132, 133, 140, 141, 150, 151, 152, 154
Nobel, Mina 64
Nobel, Peter 151
Nobel, Robert 5, 8, 10, 24, 25, 26, 27, 28, 31, 32, 33, 34, 35, 36, 37, 38, 39, 41, 42, 43, 44, 45, 46, 47, 48, 50, 51, 62, 68, 71, 72, 124, 132, 133, 151, 152
Nobel, Yalmar 62, 63, 64, 68
Nobel, Yost 101
Nobellər Ailəsi Cəmiyyəti 151
Nobellər İrsinin Bakı Fondu 61
"Nobmazut" 56

O

Opoçin, general 18
Osbrink, Brita 44, 47, 73, 109
Oskar, II, İsveç kralı 68, 69, 74, 75

P

parafin zavodu 14
Paris sülh konfransı 114, 115, 116, 120, 122
Pensilvaniya 29
Peterburq 9, 26, 27, 38, 43, 48, 96, 97, 98, 99, 144, 145, 154, 155 həmçinin bax Sankt-Peterburq
Petrovsk 21, 22, 23, 107, 136
Petrovsk-Bakı dəmir yolu 21, 22

Pirallahı adası 14
Polo, Marko 11
Polşa 101
Pozen, V.M. 18
Pyotr, I 11

Q

Qafqaz 5, 9, 15, 19, 21, 25, 26, 30, 31, 33, 38, 41, 47, 49, 60, 107, 134, 135
Qafqaz canişini 16, 18, 32, 33, 41, 48, 60, 97, 135
Qafqaz İslam Ordusu 107
Qaqarina, A. 19
Qara şəhər 32, 42, 46, 47, 49, 50, 78, 83, 98, 102, 103, 137, 147, 148, 153
qazolin 16
Qlazenapl, istefada olan 1-ci dərəcəli kapitan 27
Qlazqo 50
qoz ağacı 7, 25, 26
Quliyev, Ağabala 83
Qustav, Vilhelm 59, 98, 146

R

Rakuzin 82
Ramana 91, 92, 164
Rəsulzadə, Məhəmməd Əmin 95, 96
Rokfeller, Con 29, 56
Romanov, Mixail Nikolayeviç, böyük knyaz 48
"Rote fane" 60
Rotşild, Alfons 56
Rotşildlər 83, 145
Rusiya 5, 6, 12, 13, 14, 15, 16, 17, 18, 19, 25, 28, 29, 37, 46, 48, 49, 51, 53, 55, 57, 66, 78, 80, 86, 98, 101, 102, 104, 112, 120, 122, 123, 129, 130, 131, 132, 134, 136, 140, 141, 147, 148, 152, 154, 155, 157
Rusiya-İran müharibəsi 11

S

Sabunçu 31, 47, 83, 94, 96, 142
Sankt-Peterburq 7, 9, 17, 23, 25, 27, 28, 42, 55, 78, 86, 89, 142, 143, 144, 153, 157
"Sarmat", tanker 57
"Sentrokaspi diktaturası" 105, 106, 107, 113
"Shell" 129
"Spinoza" 54
"Standard Oil" 29, 129
Serebrovski, A. 124
Səadət sarayı 153
Səfərovlar 84
Səlimov, M. 111
Səlimxanov, Qasım bəy 12
Smitt, Yohan 63
Smolnikov, Qriqori 40
soda zavodu 37, 41
Solven, Ernest 37
Sormovo zavodu 57
sovet hakimiyyəti 37
Staroselski, D.S. 19, 32
Stokholm 27, 62, 63, 74, 102, 129
Stolen, N. 73
Süleymanov, Manaf 58





Sulman, Raqnar 62, 63, 66, 67, 71, 72, 75
Suraxanı 6, 14, 32, 120, 131, 132, 134, 135, 137, 139

Ş

Şaumyan, Stepan 60, 102
Şibayev, S.M. 81

T

Tağıyev, Hacı Zeynalabdin 6, 8, 21, 83, 84, 85, 86, 96, 99, 146
tankerlər 54, 57
teploxod 57
Ter-Qukasov 13
Tiflis 18, 32, 105, 124, 148, 154
Tomson, general 113, 114
Topçubaşov, Əlimərdan bəy 8, 114, 115, 116, 117, 118
Törnkvist, A. 44, 45
Trubetskoy, S.N., knyaz 18
Tüden, Tomas 151, 152
Türkiyə 108, 112
Türkmənçay sülh müqaviləsi 11

U

Ukrayna 101, 165
"Useyn Manafov" gəmisi 83
Useynovlar 53, 121

V

Vilhelm, Qustav 59
"Villa Petrolea" 5, 57, 58, 59, 60, 61, 103, 146, 153
Vladiqafqaz 22, 23
"Volqa çayı", gəmi 44
Vonsoviç, Stanislav 60
Vorontsov-Daşkov, İ.İ. 19, 97, 165
"Vostoçnoye" Mal Anbarları Cəmiyyəti 53
Vrangel, Nikolay 5, 19, 20, 21, 22, 23, 24

X

Xalq Daxili İşlər Komissarlığı 60
Xalq Komissarları Soveti 60, 102, 104, 105
Xalq Maarifi Komissarlığı 60, 103
Xatisov, K. 80
Xəzər dənizi 11, 37, 39, 52, 53, 54, 106, 107, 119, 133, 136, 146, 148, 149, 150, 154
Xəzər Ticarət Donanması 104, 105, 126
Xəzər-Qara Dəniz Neft Sənayesi Cəmiyyəti 56
"Xəzər yoldaşlığı" 19

Y

Yekaterina, II 46

Z

Zaqafqaziya 15, 39
Zaqafqaziya Seymi 105
Zeyn-Bitgenşteyn-Berleburq, Ferdinand 18
"Zərdüşt" (Zoroastr), gəmi 52, 54, 120, 133
Zorge, Rixard 59
Zubalov, Konstantin 21, 87, 88